RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 41 (8357) BAZAR, 23 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vatikanda Papa Fransisk ilə görüşüblər









Fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vatikanda olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Vatikanda rəsmi qarşılanma mərasimi oldu.

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşdülər.

Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı salamlayan Roma Papası onların Vatikana səfərlərini və özünün 2016-cı ildə Azərbaycana səfərini xatırladaraq bu səfərdən məmnun qaldığını bildirdi.

Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, xalqımızın rifah içərisində yaşadığını qeyd edən Papa Fransisk ölkəmizdə dini icmalar arasındakı tolerant münasibətlərə toxundu. Bildirdi ki, dünyanın bir çox yerlərində gərginlik və münaqişələrin artdığı, bəzi dairələrin dini amildən istifadə edərək ədavəti və nifaqı daha da yaymağa çalışdığı bir vaxtda Azərbaycan əsl tolerantlıq nümunəsidir.

Roma Papası Heydər Əliyev Fondu tərəfindən Vatikanda həyata keçirilən təmir-bərpa işlərini qeyd etdi, Azərbaycan hökumətinə, xüsusilə də Fondun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirdi. Vurğuladı ki, Vatikan Heydər Əliyev Fondu tərəfindən burada aparılan bərpa işlərini heç vaxt yaddan çıxarmayacaq. Çünki məhz Heydər Əliyev Fondunun layihələri sayəsində Vatikanda bir çox tarixi abidələrin, o cümlədən katakombaların bərpasına nail olunub.

Prezident İlham Əliyev dedi ki, Papa Fransiskin Azərbaycana səfəri dünyada sivilizasiyalar və dinlər arasında münasibətlərin daha da inkişaf etdirilməsində xüsusi rol oynayan ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu baxımdan bir çox mühüm beynəlxalq tədbirlərə evsahibliyi edib. Ölkəmiz bütün dünyada dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın, qardaşlıq və həmrəylik hisslərinin bərqərar olmasına çalışır və bu baxımdan dünyaya nümunədir. Azərbaycanın təqdim etdiyi tolerantlıq və birgəyaşayış nümunəsi dünyada münaqişələrin və toqquşmaların aradan qaldırılmasına xidmət edən əsas meyarlardan biridir.

Prezident İlham Əliyev Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında qurulmuş münasibətlər əsasında aparılan əməkdaşlığın daha da genişləndiriləcəyini vurğuladı.

Daha sonra qarşılıqlı hədiyyələr təqdim edildi.

## Prezident İlham Əliyevin Vatikanda Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olub

### Birinci vitse-prezident Mehriban Əliyeva Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə layiq görülüb





Fevralın 22-də Vatikana səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Roma Papasının 2016-cı ildə Azərbaycana səfərini qeyd etdi. Bildirdi ki, Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində fəaliyyətini fəal şəkildə davam etdirir. Prezident İlham Əliyev ötən il Bakıda Dünya dini liderlərinin II Sammitinin keçirildiyini bildirərək bu tədbirdə Vatikan nümayəndəsinin də iştirak etdiyini xatırlatdı.

Dövlət başçısı ölkəmizdə etnik və dini baxımdan qarşılıqlı anlaşmanın olduğunu, müxtəlif dinlərin nümayəndələrinin dinc şəraitdə birgə yaşadıqlarını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə dinlərarası və mədəniyyətlərarası dialoqun, multikulturalizmin prioritet olacağını vurğuladı.

Kardinal Pietro Parolin Azərbaycan ilə Vatikan arasında xüsusi münasibətlərin olduğunu bildirdi. O, Papa II İohan Pavelin və Papa Fransiskin Azərbaycana səfərlərini xatırlatdı.

Ardı 2-ci səh.




### Taleyi uşaq evində yazılan cütlüyün nisgil və sevinc dolu həyat hekayəsi



**Günəş saralmış şəfəqlərini yer üzünə xəsisliklə paylayır, tez də tutqun buludların arxasında daldalanırdı...**

**Dəli küləyin hirslə sovurduğu xəzan yarpaqlarının arxasınca isə qucağı körpəli bir qadın ayaqlarını sürüyürdü...**

**Neçə müddətdir beynində götür-qoy etdiyi, son çarə ünvanına çatmamağa çalışırdı...**

❖❖❖

Çovğunlu bir qış səhəri idi...

Dəli küləyin hirslə sovurduğu qar dənələri acı gerçəklik kimi bir qızcığazın əlindən yapışaraq beynindəki tərəddüdlərdə ilişib qalan başqa bir qadının üzünə çırpılırdı...

Təəssüf ki, zaman fərqli olsa da, hər iki qadının, ananın taleləri də, ağrı-acıları da, könüllü olaraq bala həsrəti seçiminə qol qoymaq üçün üz tutduqları ünvan da eyni idi...

Bu yolçular uşaq evinə gedirdilər...

❖❖❖

Tale özü onların qismətini uşaq evində çarpazlaşdırmış, bir-birinin alın yazısına çevirmişdi. Kimsəsizlik, valideyn özləmi, ailə həsrətini qoşa yaşamışdılar. Gözləri qapıya dikiləndə, ürəklərinə qubar dolanda, adicə bir sözdən inciyib-küsəndə həyan, arxa-dayaq olmuşdular bir-birlərinə. Beləcə, onlar da uşaq evinin ana-ata nisgilli bütün sakinləri kimi böyüyürdülər... Amma hər şeyin dəyişəcəyi, kimsəsizliklərinə son qoyulacağı, talelərinin güləcəyi ümidini itirmirdilər...

Və günlərin bir günü arzularının belə fövqündə olan bir aləmə düşmüş, həsrətlə gözlərinin dikildiyi o qapı açılmış və kandarında əziz bir qonaq görünmüşdü. Onun gəlişi bayrama, hüdudsuz sevincə rəvac vermişdi.

Ardı 5-ci səh.

◆ Müəllifi İlham Əliyevdir




**Səhərdir...**

**Azərbaycanın ucqar cəbhə bölgələrindən biri Qazax rayonundayıq.**

**Dəmir Yolu Stansiyasına xeyli insan toplaşıb. Hər kəsin üzündə bir təbəssüm var. Bir qədər sonra stansiyada dayanmış qatarın qapıları açılır və minik başlanır.**

Növbəlilik prinsipi qorunmaqla insanlar vaqonlara daxil olurlar. Müəyyən qədər vaxt keçsə də, qatar yerindən tərpənmir ki, tərpənmir.

Bir az əvvəl qatara minən vətəndaşlar isə sevincli şəkildə vaqonlardan düşərək geri qayıdırlar. Nə baş verir?

Bayaqdan kənardan seyr etdiyimiz mənzərə bizdə maraq yaradır. Duruma şahidlik etmək üçün qatara yaxınlaşırıq və bir anlıq hər şey bəlli olur. Sən demə, bu, regionlararası dəmir yolu nəqliyyatı vasitəsi yox, milli brendimiz olan “ASAN xidmət”in səyyar qatarıdır.

Maraqlı gəldiyi üçün qatara daxil olub burada həyata keçirilən proseslə yaxından maraqlanırıq.

Ardı 4-cü səh.

# Prezident İlham Əliyevin Vatikanda Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olub

## Birinci vitse-prezident Mehriban Əliyeva Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə layiq görülüb





*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında mədəniyyətlərarası dialoqun, multikulturalizmin, həmçinin müsəlmanlar, xristianlar və yəhudilər arasında harmoniyanın möhkəmləndiyini vurğuladı. Pietro Parolin Azərbaycanın beynəlxalq münasibətlərdə çoxtərəfliliyə böyük əhəmiyyət verdiyini təqdir etdiyini bildirdi. O, həmçinin Azərbaycanda Katolik Kilsəsinin fəaliyyəti üçün yaradılan şəraitin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bir daha diqqətə çatdırdı, Ermənistanın regionda destruktiv siyasət yürütdüyünü bildirdi. Dövlət başçısı hazırda Ermənistan tərəfindən danışıqlar prosesinə xələl gətirən ziddiyyətli açıqlamaların verildiyini dedi və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, Helsinki Yekun Aktına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu vurğuladı.

Söhbət zamanı Azərbaycanın regiondakı rolu və qonşu ölkələrlə münasibətləri müsbət qiymətləndirildi.

Sonra kardinal Pietro Parolin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya Papa Cəngavər Ordeninin ən ali dərəcəsi olan IX Piy Ordeninin Böyük Xaçını (Dama di Gran Croce dell'ordine Piano) təqdim etdi.

Birinci vitse-prezident Mehriban Əliyeva bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Kardinal Pietro Parolin Mehriban Əliyevaya bu mükafatı təqdim etməkdən şərəf hissi keçirdiyini bildirdi.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA dedi:**

- Kardinal həzrətləri.

Məni Müqəddəs Taxt-Tacın yüksək ordeni ilə təltif etdiyinizə görə sizə və zati-müqəddəsləri Roma Papası Fransiskə dərin minnətdarlığımı bildirirəm. Bu, mənim üçün böyük şərəfdir.

Mən bu ordeni Vatikan ilə Azərbaycanın ikitərəfli münasibətlərinin yüksək səviyyədə olmasının daha bir təsdiqi kimi qiymətləndirirəm. Çox şadam ki, bu münasibətlərin möhkəmlənməsində mənim də töhfəm var. Səmərəli əməkdaşlığın qurulmasında əməyi olan hər bir insana, Vatikanda olan bütün dostlarıma, xüsusilə də kardinal Ravaziyə dərin minnətdarlığımı bildirirəm.

Bir daha yüksək təltifə, göstərdiyiniz qonaqpərvərliyə və səmimiyyətə görə sizə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**Kardinal Pietro PAROLİN:** Sağ olun zati-aliləri. Mən də şəxsən öz tərəfimdən bu jesti bizim artıq uzun illər ərzində aramızda təşəkkül tapmış bu münasibətlərin təzahürü kimi görürəm. Hesab edirəm ki, gələcəkdə ikitərəfli qaydada demək olar ki, bütün sahələrdə və xüsusən də mədəniyyət sahəsində Müqəddəs Taxt-Tacla Sizin ölkəniz arasındakı əlaqələri daha da dərinləşdirəcəyik. Şəxsən Sizi, Sizin həyat yoldaşınızı və bütövlükdə ölkənizi səmimi-qəlbdən təbrik edirəm.

**Birinci vitse-prezident Mehriban ƏLİYEVA:** Çox sağ olun, təşəkkür edirəm.

Qeyd edək ki, IX Piy Ordeni 1847-ci ildə təsis edilib. Bu ordenlə kilsə və cəmiyyət qarşısında xidmətlərə görə təltif olunurlar. Böyük Xaç - dövlət başçılarına və yüksəkvəzifəli dövlət xadimlərinə təqdim olunan xüsusi dərəcədir.

İtaliya Respublikasının hazırkı Prezidenti Sercio Mattarella, İtaliya dövlətinin bir sıra sabiq rəhbərləri, o cümlədən Corcio Napolitano, həmçinin tac qoyulmuş şəxslər - İsveç Kralı XVI Qustav, Lüksemburqun Böyük Hersoqu Anri, İspaniya Kralı Xuan Karlos və Belçika Kralı II Albert bu ordenə layiq görülənlər sırasındadır.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vatikanda Sikstin Kapellası və Müqəddəs Pyotr Kilsəsi ilə tanış olublar






Fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Vatikanda Sikstin Kapellası və Müqəddəs Pyotr Kilsəsi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu tərəfindən hazırda Vatikanda bir neçə layihə həyata keçirilir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı “Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü” barelyefi və Vatikan Bazilikasındakı katakombalarda yerləşən “Tullius Zethus” məqbərəsi Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bərpa edilir və artıq işlər başa çatmaq üzrədir. İşlərin bu ilin may ayında başa çatması planlaşdırılır. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında imzalanmış müqaviləyə əsasən, hazırda “Müqəddəs Komodiliya” katakombalarındakı mavzoleyin bərpası işləri aparılır və layihənin 2020-ci ildə başa çatması nəzərdə tutulur. 2016-cı ildə icrasına başlanan və 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Canfranko Ravazinin iştirakı ilə açılışı olan “Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombaların bərpası” layihəsi çərçivəsində son tamamlama işləri yekunlaşıb.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr müqəddəs Taxt-Tacda çox yüksək qiymətləndirilir. Bu işlər Fondun ümumbəşəri dəyərlərə verdiyi töhfələri bütün dünyaya nümayiş etdirir. Bununla yanaşı, bu layihələr həm də ölkəmizin müxtəlif dinlərin abidələrinə və müqəddəs yerlərinə verdiyi önəmi göstərir. Bütün bunlar isə multikultural dəyərlərə sadiq və bu dəyərləri təşviq edən ölkə kimi Azərbaycanın dünyadakı mövqeyini və yerini, həmçinin dinlərarası dialoqun qurulmasındakı rolunu möhkəmləndirir.

Qeyd edək ki, Sikstin Kapellasının yerləşdiyi bina Vatikanda Renessans dövrü italyan incəsənətinin ən görkəmli abidələrindən biridir. Qeyd olundu ki, 1481-1483-cü illərdə kapellanın divarlarına Musanın və İsanın həyatlarından səhnələr təsvir olunan freskalar çəkilib. XV əsrdə dünya şöhrətli italiyalı heykəltəraş Mikelancelo kapellanın tavanının və mehrab divarının rəsmlərini yaradıb. Bura həm də muzey kimi fəaliyyət göstərir.

Vatikandakı Müqəddəs Pyotr Kilsəsi italyan intibah memarlığının ən məşhur nümunələrindən və dünyanın ən böyük kilsələrindən biridir. Kilsədə ilk Roma Papası hesab edilən Müqəddəs Pyotr dəfn edilib. Bura həm də məşhur ziyarətgah və dini mərasimlər yeridir. Buna görə də erkən xristianlıq dövründən etibarən əksər Roma papaları burada dəfn olunub.

Diqqətə çatdırıldı ki, Müqəddəs Pyotr Bazilikası həm də məşhur ziyarətgah və mərasim yeridir. Roma Papası il ərzində bazilika və ya onun qarşısındakı Müqəddəs Pyotr meydanında bir neçə dini mərasim keçirir.

# Səfər başa çatdı



Fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına dövlət səfəri başa çatıb.

AZƏRTAC xəbər verir ki, Romanın “Fiumicino” Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Respublikası Nazirlər Şurasının dövlət katibi Mario Turko və digər rəsmi şəxslər yola saldılar.

## Azərbaycan Respublikasında avtomobil yollarının tikintisi və istismarı sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının avtomobil yollarının tikintisi və istismarı sahəsində xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Səlimov Məzahir Yaqub oğlu

**“Tərəqqi” medalı ilə**

Abışov Mərdan Məşdi oğlu
Babayev Rafiq Rza oğlu
Əbilov İsmayıl Fəzi oğlu
Əliyev Qurban Əli oğlu
İmanov Hidayət Ədalət oğlu
İsmayılov Zaur Əziz oğlu
Qədirov Naməddin Cəlaləddin oğlu
Qəhrəmanov Məhəmməd Xanəli oğlu
Quliyev Fizuli Tofiq oğlu
Qurbanov Emin Telman oğlu
Mehdiyev Müslüm Abbas oğlu
Məmmədov Elçin Aydın oğlu
Mirzəyev Ataş Şahlar oğlu
Muradov Murad Mobil oğlu
Süleymanov İlham Şahbaz oğlu
Zamanov Vahid Bayraməli oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2020-ci il*

## Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin işçilərinə “Əməkdar mühəndis” fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə “Əməkdar mühəndis” fəxri adı verilsin:

Cəbrayılov İlham Yasəf oğlu
Quliyev Tərlan Düşməl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2020-ci il*

# 28 yeni saziş, 6 milyard dollarlıq ticarət

## Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri Azərbaycana və onun rəhbərinə göstərilən xüsusi diqqətin bariz təcəssümüdür



**Fevralın 19-21-də Azərbaycanın siyasi tarixində daha bir ilk yaşandı. Prezident İlham Əliyevin Azərbaycanın Avropada ən əsas ticarət tərəfdaşı olan İtaliya Respublikasına dövlət səfəri baş tutdu. Ölkələr arasında ikitərəfli münasibətlər kontekstində dövlət səfəri səviyyəsinə görə ən yüksək səfər hesab olunur və il ərzində bir ölkəyə məhdud sayda belə səfər edilir. Dövlət səfəri zamanı müzakirə edilən məsələlərin əhatəsi daha geniş, mahiyyəti daha dərin olur.**

Bu, Azərbaycan dövlət başçısının İtaliyaya ilk dövlət səfəri idi. Eyni zamanda bu səfər 2020-ci ildə İtaliyaya xarici dövlət başçıları tərəfindən edilən ilk dövlət səfəridir ki, bu da Azərbaycana və onun dövlət başçısına göstərilən xüsusi diqqətdən irəli gəlirdi.

### Azərbaycan əhəmiyyətli modernləşmə prosesinin baş qəhrəmanıdır

Bu gün İtaliya "Böyük Yeddilik" ölkəsidir və dünyanın 7-ci iqtisadiyyatı hesab olunur. Əlbəttə ki, Azərbaycanın məhz Avropanın nəhənglərindən biri ilə münasibətlərini bu səviyyəyə yüksəltməsi böyük uğur hesab olunmalıdır. Buna İtaliya Prezidenti Sercio Mattarellanın dəyərləndirməsi ilə nəzər yetirək:

"Müstəqilliyini bərpa etdikdən sonra üçüncü onillik ərəfəsində Azərbaycan regionun ən inkişaf edən ölkələrindən biri və mədəniyyətlər, etnik qruplar və fərqli dinlərin birgəyaşayış modeli kimi özünü təsdiq etmişdir. Sürətlə möhkəmlənən və şaxələnən bu münasibətlər mütəmadi və məhsuldar əlaqələrə təkan verərək yalnız qurumlar, hökumətlər və müəssisələr arasında deyil, həmçinin mədəni və akademik reallıqlar arasında da inkişafa səbəb olmuşdur. Azərbaycan öz enerji ehtiyatları ilə keçən əsrdə dünyada gedən əhəmiyyətli modernləşmə prosesinin baş qəhrəmanı oldu".

Azərbaycanın ən mühüm ticarət tərəfdaşı olan Avropa nəhənginin rəhbəri hesab edir ki, illərdir iki ölkə çoxtərəfli sahələrdə, xüsusən də ikitərəfli əlaqələrdə əhəmiyyətli şəkildə seçilən energetika və sənaye sektorlarında, həmçinin mədəni və sosial əhəmiyyətli təşəbbüslər daxil olmaqla, bir sıra uğurlu əməkdaşlıqlara imza atır.

Prezident İlham Əliyevin İtaliyaya 3 günlük dövlət səfəri çərçivəsində reallaşan tarixi hadisələrə nəzər yetirdikdə aydın şəkildə görərik ki, Azərbaycan və İtaliya arasındakı siyasi, iqtisadi, mədəni əlaqələr yüksələn xətlə inkişaf edir.

### Tarixi münasibətlər, Bakıda açılan ilk səfirlik

İtaliya-Azərbaycan münasibətləri qədim dövrdən mövcud olub. Hələ orta əsrlərdə indiki İtaliya ərazisindəki şəhər-dövlətlər Azərbaycandakı Səfəvilər, Ağqoyunlular dövlətləri ilə davamlı əlaqələr saxlayıblar. XV əsrdə Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında siyasi-diplomatik əlaqələr qurulub, 1469-cu ildən 1478-ci ilə kimi Venesiya Respublikasının Azərbaycanda səfirliyi fəaliyyət göstərib. Həmin dövrdə Azərbaycan diplomatları Neapol Krallığında danışıqlar aparıblar.

1918-1920-ci illərdə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə də İtaliya və Azərbaycan arasında diplomatik münasibətlər yaradılıb. Həmin vaxt İtaliyanın Bakıda diplomatik təmsilçiliyi fəaliyyət göstərib. Sovet hakimiyyəti dövründə - 1972-ci ildə Azərbaycanın paytaxtı Bakı və İtaliyanın Neapol şəhərləri qardaşlaşmış elan ediliblər. Azərbaycan və İtaliya arasında mədəni əlaqələr həmin vaxtdan daha da sürətlənib.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyub. 1997-ci ilin sentyabrında Ulu Öndər Heydər Əliyevin İtaliyaya rəsmi səfəri dövlətlər arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım olub. İtaliya Cənubi Qafqazda ilk səfirliyini 1997-ci ildə Azərbaycanda açıb. İtaliyada Azərbaycan səfirliyi 2003-cü ildən fəaliyyət göstərir.

### Prezident İlham Əliyevin İtaliyaya 6-cı səfəri

Prezident İlham Əliyevin fevralın 19-da Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə İtaliyaya dövlət səfəri və keçirdiyi rəsmi görüşlər, imzalanan müqavilələr və İtaliya-Azərbaycan Biznes Forumu münasibətlərin daha da şaxələnməsinə real imkanlar yaratmış oldu.

Düzdür, bu səfər Prezidentin İtaliyaya ilk dövlət səfəri idi. Bundan əvvəl Prezident İlham Əliyev 5 dəfə İtaliyaya səfər edib. Bunlardan üçü rəsmi səfər (fevral 2005, noyabr 2008, iyul 2014), ikisi isə işgüzar (iyun 2011 və iyul 2015) səfər olub. Ümumilikdə bu səfər Azərbaycan Prezidentinin İtaliyaya sayca 6-cı səfəri idi. Bundan öncə dövlət başçısının bu ölkəyə rəsmi səfərləri, o cümlədən İtaliyanın dövlət rəsmilərinin Azərbaycana gəlişi qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsini şərtləndirmişdi. 2014-cü ildə isə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə qəbul edilmişdi. Bu sənəd iki ölkənin bir-biri ilə olan münasibətinin və gələcək əməkdaşlıq formatının göstəricisi idi.

2018-ci ildə isə İtaliya Prezidenti Sercio Mattarella Azərbaycana rəsmi səfər edib və iki ölkə arasında yeni sənədlər imzalanıb. Bu səfər zamanı Sercio Mattarella Azərbaycanın ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, Prezidentin qızı Laura Mattarella "Şöhrət" ordeni, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Enzo Moavero Milanesi isə "Dostluq" ordeni ilə təltif ediliblər.

### İki ölkə arasında 28 mühüm sənəd imzalandı

Bu səfər çərçivəsində iki ölkə arasında mühüm tarixi sənədlər də imzalandı. Prezident İlham Əliyev və İtaliya Nazirlər Şurasının Sədri Cüzeppe Konte "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni imzaladılar və mübadilə etdilər.

Sonra tərəflər arasında enerji, mədəniyyət, turizm, xarici işlər, bitki karantini və bitki mühafizəsi, sülh məqsədilə kosmos fəaliyyətləri sahəsində, idman sahəsində anlaşma memorandumları imzalandı.

Eyni zamanda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə "Leonardo S.p.A" arasında "M-346" təyyarələri inteqrasiya sisteminin alınması ilə bağlı Sazişə dair Bəyannamə" mübadilə edildi. "Azərbaycan İnvestisiya Şirkəti" ilə CDP, SACE, "Simest" şirkətləri, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə İtaliya Ticarət Agentliyi (ICE) arasında anlaşma memorandumları imzalandı.

SOCAR ilə SNAM arasında da əməkdaşlıq sazişi mübadilə edildi. SOCAR və dünyanın qabaqcıl enerji infrastrukturu şirkətlərindən biri olan SNAM arasında bərpaolunan qazlar və dayanıqlı enerjidən istifadənin inkişaf etdirilməsi, habelə həmin qazların gələcəkdə "Cənub qaz dəhlizi" və TAP vasitəsilə nəqli üzrə əməkdaşlıq haqqında saziş imzalanıb. Hər iki şirkət TAP konsorsiumunda 20 faiz paya sahibdir və "Cənub qaz dəhlizi"nin ən böyük səhmdarlarındandır.

Bundan başqa, "AZPROMO ilə "Simest" arasında Tərəfdaşlıq Sazişi", "Azərenerji" ASC ilə "Ansaldo Energia" arasında və ADA Universiteti ilə Luiss Universiteti arasında anlaşma memorandumları, "Azərbaycan Dəmir Yolları" QSC ilə "I.M.A. Project Financing S.R.L." şirkəti arasında dəmir yolu maşınlarının (drezinlərin) və iş avadanlıqlarının satınalınması barədə müqavilə" imzalandı.

Ümumilikdə səfər çərçivəsində iki dövlət arasında 28 sənəd imzalandı. Onlardan 17-si Prezidenti İlham Əliyev ilə İtaliya Nazirlər Şurasının sədri Cüzeppe Kontenin geniş tərkibdə görüşü başa çatandan sonra onların iştirakı ilə imzalandı və mübadilə olundu. Digər sənədlər səfərin ikinci günündə baş tutan biznes forumu çərçivəsində imzalandı. Bu sənədlər siyasi, müdafiə, iqtisadi-ticarət, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəni, elmi, turizm, idman sahələrini əhatə edir.

### Yüksələn xətlə inkişaf edən iqtisadi-ticari əlaqələr

İtaliya Azərbaycan üçün dünya miqyasında bir nömrəli tərəfdaşdır. Azərbaycan İtaliyaya xam neft ixrac edir və son 15 il ərzində heç bir problem, heç bir fors-major hadisəsi baş verməyib.

Fevralın 21-də Prezident İlham Əliyevin də iştirak etdiyi İtaliya-Azərbaycan biznes forumunda iki ölkə arasında iqtisadi-ticari əlaqələr barədə geniş məlumat verildi. Qeyd edildi ki, imzalanmış yeni sazişlərə əsasən Azrbaycan İtaliyadan dəmir yolu texnikası alacaq, kosmik sənayenin inkişafı üzrə əməkdaşlıq genişlənəcək. Yaxın zamanlarda Azərbaycan Mədəniyyət Mərkəzi Romada fəaliyyətə başlayacaq.

İki ölkə arasında iqtisadi ticari əlaqələrə nəzər yetirək:

- ticarət dövriyyəsi 6 milyard dollara çatıb;
- qeyri-enerji sektorunda bu rəqəm 700 milyon dollardır;
- İtaliyanın xam neft istehlakının 17 faizi Azərbaycanın payına düşür;
- enerji layihələri ilə bağlı İtaliya şirkətləri ilə 10 milyard dollara yaxın saziş imzalanıb;
- İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi ölkəmizin payına düşür;
- Azərbaycanda fəaliyyət göstərən 100-dən çox İtaliya şirkəti qeydiyyata alınıb;
- İtaliya şirkətləri Azərbaycanda 300-dən artıq müxtəlif layihələrdə iştirak edirlər;
- son 10 ildə İtaliyanın Azərbaycandan olan idxalı 55,5 milyon avro təşkil edib;
- İtaliya şirkətləri Azərbaycanda dəyəri 7 milyard avro təşkil edən tender qazanıblar.

### İtaliya hər zaman Azərbaycana dəstək verməyə hazırdır

Azərbaycanın Avropada ən mühüm ticarət tərəfdaşı olan İtaliyanın Cənubi Qafqazın lider ölkəsi ilə hərtərəfli münasibəti yeni inkişaf mərhələsindədir. İtaliyanın dövlət başçısı hesab edir ki, Azərbaycan məhz Prezident İlham Əliyevin yürütdüyü müstəqil, prinsipial siyasəti ilə inkişaf yolunda inamla addımlayır.

Qlobal səviyyədə birinci ticari tərəfdaş kimi Roma Prezident İlham Əliyevin idarəçiliyi sayəsində başladılan iqtisadiyyatın şaxələndirilməsi prosesində Azərbaycanın yanında olmaq niyyətindədir və ətraf mühitin qorunmasına yönəldilmiş texnoloji innovasiyalara açıq elmi və sənaye yenilikləri ilə töhfə verməyə hazırdır: "Bu gün hər iki ölkə arasında əlaqələrin inkişaf perspektivləri geniş və dərin panoramaya malikdir. Sizin tarixi əhəmiyyətli dövlət səfəriniz də əminəm ki, bunu daha da gücləndirməklə strateji sektorlarda əməkdaşlığı inkişaf etdirərək Bakı və Roma arasında dostluğun təşviqinə töhfə verəcək. Azərbaycan dialoqa çox açıq və bütün dünya tərəfindən görünən müasir bir ölkədir", - deyə Sercio Mattarella vurğulayıb.

Bu səfər çərçivəsində də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Prezident İlham Əliyev tərəfindən gündəmdə saxlanılıb. Dövlət başçısı mətbuata bəyanatında qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı İtaliya Prezidenti ilə müzakirə aparıb: "Bu məsələnin həlli yolları imzalanmış Birgə Bəyannamədə də göstərilir. Orada göstərilir ki, İtaliya və Azərbaycan bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına hörmətlə yanaşır və bunu dəstəkləyir. Eyni zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsiplər əsasında, Helsinki Yekun Aktı, BMT və ATƏT tərəfindən qəbul edilmiş qətnamə və qərarların əsasında həll olunması göstərilir. Hesab edirəm ki, bu, çox ədalətli və beynəlxalq hüquqa əsaslanmış mövqedir və bu mövqeyə görə biz İtaliya tərəfinə minnətdarıq".

Prezident vurğuladı ki, məsələnin konkret həlli ilə bağlı addımlara gəlincə, Ermənistan tərəfindən çox məyusedici və bir-birini inkar edən və ziddiyyətli bəyanatlar səslənir: "Ermənistan rəhbəri bir dəfə demişdi ki, Dağlıq Qarabağ Ermənistandır. Ondan sonra demişdir ki, Dağlıq Qarabağ müstəqil dövlətdir. Hər ikisi həqiqəti əks etdirmir. Dağlıq Qarabağ Azərbaycandır. Bunu tarix, beynəlxalq hüququn norma və prinsipləri göstərir. Azərbaycanın ərazi bütövlüyü, o cümlədən Dağlıq Qarabağ daxil olmaq şərtilə bütün dünya tərəfindən tanınır və qəbul edilir. Ona görə münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır".

### Azərbaycan İtaliyanın Avro-Atlantik Tərəfdaşlıq üzrə ən əsas tərəfdaşıdır

Dövlət başçısının bu səfərinin proqramı çox zəngin olub. Səfər çərçivəsində Prezident İlham Əliyev dövlət və hökumət rəsmiləri ilə görüşlər keçirib, mühüm tədbirlərdə iştirak edib. Öncə Prezident İlham Əliyev fevralın 19-da Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib. Dövlət səfəri çərçivəsində birinci xanım Mehriban Əliyeva Romadakı Kuirinale Sarayı ilə tanış olub. Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Romadakı "Altare della Patria" memorial kompleksində naməlum əsgər abidəsini ziyarət ediblər.

İtaliya Prezidenti Sercio Mattarellanın adından Azərbaycan Prezidentinin şərəfinə dövlət ziyafəti verilib. Həmçinin Romadakı Kuirinale Sarayında "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramı təqdim olunub.

Prezident İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarella, Nazirlər Şurasının Sədri Cüzeppe Konte, İtaliya Senatının Sədri, senator xanım Maria Elisabetta Alberti Kaselatti, Deputatlar Palatasının sədri Roberto Fiko və Roma şəhərinin meri xanım Vircinia Raggi ilə görüşlər keçirib.

Bu görüşlərdə ikitərəfli əlaqələr, getdikcə daha da dərinləşən münasibətlər və bu əlaqələrin daha da şaxələnməsi üçün real imkanlar müzakirə edilib.

Prezident Sercio Mattarella vurğulayıb ki, İtaliya Azərbaycanla Avropa İttifaqı arasında da əlaqələrə hər zaman dəstək olmağa hazırdır: "Biz Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələrə stimul olmaq üçün bu sahədə də çox geniş formada əməkdaşlıq etməyə hazırıq. İtaliya Azərbaycanı həmçinin Avro-Atlantik Tərəfdaşlıq üzrə də ən əsas tərəfdaş kimi görür. Əfqanıstanda terrorizmə qarşı mübarizədə və gördüyünüz kimi, hər bir sahədə bizim ölkələrimiz arasında əməkdaşlıq çox yüksək səviyyədədir. Azərbaycan hər zaman bu əməkdaşlıqda İtaliyanın dostluğuna və dəstəyinə əmin ola bilər".

### Azərbaycan İtaliya şirkətləri üçün bütün sahələrdə əməkdaşlığa açıqdır

Bu səfər və iki ölkə arasında Çoxtərəfli Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması əlaqələrə növbəti dəstək verəcək. Bu əlaqələr təkcə energetika sahəsində deyil, eləcə də Roma ilə Bakı arasında olan körpünü özündə birləşdirir və münasibətlərin daha geniş şəkildə inkişafına kömək edəcək.

Biznes forumunda Prezident İlham Əliyev bir daha İtaliya şirkətlərinə müraciət etdi. Bəyan etdi ki, Azərbaycan bütün sahələrdə əməkdaşlığa açıqdır: "Azərbaycanın gələcək planlarına gəldikdə, infrastruktur layihələri prioritet təşkil edəcək və biz İtaliya şirkətlərini dəvət edirik. Azərbaycan və İtaliya dünəndən strateji tərəfdaşlar kimi əlaqələrimizin tarixində yeni səhifə açıblar. Avropa məkanında İtaliya bizim üçün bir nömrəli tərəfdaş ölkədir və tam əminəm ki, eyni tərəfdaşlıq biznes sahəsində də olmalıdır. İtaliya şirkətləri Azərbaycanda dövlət xətti ilə həyata keçirilən və keçiriləcək layihələrdə ön sıralarda olmalıdırlar. Biz bunu arzulayırıq. Əminəm ki, İtaliya şirkətlərinin də marağı bizim marağımızla üst-üstə düşür. İnanıram ki, biznes forum bu istiqamətdə önəmli addım olacaqdır".

Bu gün Azərbaycan və İtaliya arasında siyasi əlaqələr yüksək səviyyədədir. İtaliya ikitərəfli müstəvidə Azərbaycanın strateji tərəfdaşı olmaqla yanaşı, çoxtərəfli müstəvidə də Azərbaycanın sıx əməkdaşlıq etdiyi vacib ölkədir. Xüsusilə İtaliya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığının güclənməsinə fəal dəstək verən ölkədir.

Təcrübəyə əsasən ölkələr arasındakı siyasi əlaqələr mükəmməl olduqda bu, iqtisadi, ticarət və digər sahələrdə də əməkdaşlığın inkişafı üçün hərtərəfli zəmin yaradır. Bu mənada əminliklə deyə bilərik ki, Azərbaycan və İtaliya arasında siyasi əlaqələrin mükəmməlliyi hərtərəfli əməkdaşlığın inkişafına böyük təkan verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Estoniya Respublikasının Prezidenti zati-aliləri xanım Kersti Kalyulayda

Hörmətli xanım Prezident!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və bütün Estoniya xalqına ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2020-ci il*

# Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitoya

Əlahəzrət!

Ölkənizin milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və dost Yaponiya xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

60 illik yubileyinizin qeyd olunduğu belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2020-ci il*

# Bruney-Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiaha

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda dost Bruney xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Bruney dostluq və əməkdaşlıq əlaqələri həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusən İƏT və Qoşulmama Hərəkatı çərçivəsində bundan sonra da xalqlarımızın mənafelərinə uyğun inkişaf edəcək və dərinləşəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2020-ci il*

# İtaliyanın nüfuzlu Rai telekanalı Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfəri ilə bağlı reportaj yayımlayıb




İtaliyanın nüfuzlu Rai televiziya kanalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə dövlət səfəri ilə bağlı reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda Prezident İlham Əliyevin İtaliyaya dövlət səfərinin iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyəti qeyd edilir. Xüsusən də imzalanmış sənədlərin əlaqələrin daha da dərinləşməsinə təkan verəcəyi vurğulanır.

Reportajda Azərbaycan Prezidentinin səfər zamanı keçirdiyi görüşlərdə müzakirə olunan məsələlərdən bəhs edilir. Prezident Sercio Mattarella ilə görüşə daha çox diqqət yetirilən reportajda İtaliya dövlət başçısının ölkələrimiz arasında münasibətlərin inkişafı, eləcə də bu istiqamətdə müzakirə edilən məsələlərlə bağlı fikirləri diqqətə çatdırılır.

Enerji sahəsində əməkdaşlığa toxunulan reportajda TAP layihəsi üzrə işlərin yekunlaşma mərhələsində olduğu, habelə bunun İtaliya-Azərbaycan əlaqələrinin daha da inkişafına töhfə verəcəyi vurğulanır.

Həmçinin keçirilən görüşlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunulduğu da qeyd olunur.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Fevralın 22-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar maraqlı subyektlərin və ərizəçilərin iştirakı ilə MSK-ya daxil olan müraciətlərə baxılıb.

Tam və hərtərəfli şəkildə araşdırılan müraciətlərlə bağlı təqdim olunan əlavə görüntülər birbaşa iclasın gedişində də nümayiş etdirilib və aparılan müzakirələrdən sonra Seçki Məcəlləsinin tələblərinə uyğun qərarlar qəbul olunub. Sosial şəbəkələrdən və müxtəlif mənbələrdən olan məlumatların araşdırılması və müraciətlərə baxılması nəticəsində seçicilərin iradəsinin müəyyənləşdirilməsinə imkan verməyən və digər qanunazidd hallar nəzərə alınaraq 11 saylı Qaradağ seçki dairəsinin 25, 48 saylı Yevlax seçki dairəsinin 6, 82 saylı Ağcabədi seçki dairəsinin 3 və 83 saylı Ağcabədi-Füzuli seçki dairəsinin 9 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri ləğv olunub.

Kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

◆ Müəllifi İlham Əliyevdir






# Səyyar xidmət, vətəndaşa diqqət, vaxta qənaət

Əvvəli 1-ci səh.

## Səyyar xidmətə indiyədək 2 milyondan artıq vətəndaş müraciət edib

Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların real təzahürü olan "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş Səyyar "ASAN Qatar" konsepsiyası reallaşdırılıb.

2016-cı ildə dövlət başçısının açılışını etdiyi səyyar qatar 2017-ci il fevral ayının 1-dən fəaliyyətə başlayıb və bugünədək ümumilikdə 17 rayona 46 dəfə səfər edib.

Bu müddət ərzində səyyar qatara 115 minə yaxın müraciət daxil olub.

Qeyd edək ki, səyyar xidmətin təşkili məqsədilə ilk olaraq avtobuslar təşkil edilib. 2013-cü ilin iyun ayından etibarən iki istiqamət (cənub və şimal-qərb) üzrə hərəkətə keçib. 2013-cü ildə 2 avtobusla fəaliyyətə başlayıb, daha sonra Prezident İlham Əliyevin tapşırığına əsasən avtobusların sayı 10-a çatdırılıb.

Ümumilikdə səyyar xidmətə (avtobus, qatar, kiçik səyyar qruplar, sifarişli əsaslarla həyata keçirilən xidmət və sosial aksiyalar) 2.126.461 vətəndaş müraciəti qeydə alınıb.

## Gözləmə və xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla 3 vaqon

"ASAN Qatar"dayıq. Sanki "ASAN xidmət" mərkəzlərinin kiçildilmiş formasıdır. Qatar gözləmə zalı, xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla 3 vaqondan ibarətdir. Səyyar qatar ölkəmizdə geniş dəmir yolu şəbəkəsi, mövcud infrastruktur, kommunikasiya xətləri və ən müasir texnologiyalardan istifadə edərək yerlərdə vətəndaşların xidmətindədir.

Belə ki, "ASAN Qatar" növbəli qaydada ölkədə bütün istiqamətlərdə hərəkət edərək əvvəlcədən təyin olunan yerdə dayanır və əhaliyə xidmət göstərir.

Xidmətlərə gəlincə burada - tərcümə xidməti; tibb xidməti; bank xidməti (dövlət rüsumlarının və xidmət haqlarının qəbulu); daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi; mənzillər üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların verilməsi; yaşayış evləri (fərdi) üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların (ilkin qeydiyyat istisna olmaqla) verilməsi; əmək pensiyalarının təyin edilməsi; ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi; şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi; vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı; notariat fəaliyyəti xidməti həyata keçirilir.

Səyyar "ASAN xidmət"in qatar və avtobuslarında göstərilən xidmətlərlə bağlı ödənişlərin qəbulu daxildə fəaliyyət göstərən poçt xidməti vasitəsilə reallaşır.

## Dövlət xidmətləri vətəndaşlara yeni və innovativ üsullarla təqdim olunur

"ASAN Qatar"da ümumilikdə 21 nəfər əməkdaş vətəndaşlara xidmət göstərir. Vaqona daxil olan şəxs məlumat mərkəzinə yaxınlaşıb müraciət edir və könüllülər tərəfindən istiqamətləndirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyir ki, Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır. Qatarda vətəndaşlara yüksək səviyyədə xidmət göstərilməsi üçün hər cür şərait yaradılıb. Səyyar "ASAN xidmət" həftənin bazar ertəsi - şənbə günləri saat 10:00-dan 18:00-dək fəaliyyət göstərir.

2017-ci ildə fəaliyyətə başlayan səyyar qatar artıq 4-cü dəfədir ki, Qazax rayonuna səfər edir. Elnur Niftəliyevin sözlərinə görə, indiyədək "ASAN Qatar" vasitəsilə Qazaxda 17.872 nəfər vətəndaş müraciətindən 16.957-si xidmətlə təmin olunub. Səyyar qatar fevral ayının 29-dək Qazax rayonunda vətəndaşlara xidmət göstərəcək.



















## Hansı sənədi düzəltmək istəyirsən gəl, asanlıqla nail ol

Burada ən çox müraciət edilən sahələr ümumvətəndaşlıq pasportu, notariat və şəxsiyyət vəsiqəsinin alınması, dəyişdirilməsi xidmətləridir.

Rayonun Sofulu kəndindən olan məcburi köçkün Qurbanovlar ailəsi yenicə dünyaya gəlmiş körpələri Uğur Qurbanova şəxsiyyət vəsiqəsi almaq üçün səyyar xidmətə təşrif buyurub. Anası Aygün Qurbanova deyir ki, xeyli vaxtdı "ASAN Qatar"ın Qazaxda olması barədə məlumat alıblar. Amma ilk günlər gəlmək mümkün olmayıb: "Rayon yeridir, hər kəsin işi-gücü olur. Biz də imkanlaşdırıb bu gün gəldik. Çox rahat şəkildə sənədlərimizi təqdim etdik. Körpə uşaqla gələnlərə daha çox diqqət göstərilir. Belə xidmətdən kim inciyər ki?!"

Rayonun birinci Şıxlı kəndindən gələn Abdullayev Teymur da 5 yaşlı qızı Nuray üçün yeni nəsil şəxsiyyət vəsiqəsi almaq üçün səyyar xidmətə müraciət edib: "Çox əla bir xidmətdir. Allah Prezident İlham Əliyevin canını sağ eləsin. Əvvəllər necə idi, indi necə... Uşaqlarımızın doğum haqqında şəhadətnamələrini belə güc-bəla ilə alırdıq. İndi hər şey asanlaşıb. Rahat şəkildə nə istəyirsən, hansı sənədi düzəltmək fikirin var, gəl, asanlıqla həll et".

75 yaşlı rayon sakini Minayə Hacıyeva isə ümumvətəndaş pasportunu dəyişdirmək üçün xidmətə müraciət etdiyini deyir. Sevincli şəkildə bzimlə həmsöhbət olan ağbirçək ananın sözlərinə görə, bəlkə də dünyanın heç bir ölkəsində ucqar rayonlarda, kəndlərdə yaşayan insanlara belə xidmət göstərilmir: "Bunun hamısını edən Prezidentimiz İlham Əliyevdir. Allah dövlətimizin başçısını qorusun. Əlindən gələni edir ki, heç kim narazı olmasın, heç kim başqasına rüşvət verməsin. Əvvəllər pasport almaq, dəyişdirmək zülm idi. Baxın, görün, indi necədir? Hamı çox rahat şəkildə gəlib pasportunu dəyişdirir, yenisini alır".

Çaylı kəndinin 92 yaşlı ağsaqqalı Nofəl Hüseynəliyev notariat xidmətinə müraciət etmək üçün səyyar qatara təşrif buyurub. Ancaq növbəsi hələ çatmadığı üçün bayırda maraqlı söhbət edir. Biz də ağsaqqalın söhbətinə qulaq müsafirliyi edirik:

"Ay sənin qadan alım, əvvəllər belə işlər görərdin?! Görün Prezidentimiz xalq üçün nələr yaradır. Saatlarla idarə-müəssisələrin qapılarında növbələrdə qalırdıq. Hərdən dava-dalaş düşürdü, rüşvət alan kim, verən kim... Görün, bunların biri qalıbmı, əlbəttə ki, yox!"

## Səyyar qatarın könüllüləri gün ərzində 60-70 nəfərə xidmət göstərirlər

Səyyar qatarda müxtəlif sahələrlə bağlı xidmətə müraciət edənlərə könüllülər yardımçı olurlar. Əslində elə Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlanıb. "ASAN Könüllüləri"nin sayı ildən-ilə getdikcə artır. Hazırda bütün mərkəzlərdə yüzlərlə könüllü fəaliyyət göstərir.

Ümumiyyətlə, könüllü olmaq insanların xoş niyyətini göstərir. İnsanlar təmənnasız olaraq kiməsə kömək etmək üçün xidmətə müraciət edirlər. Bu mərkəzdə də gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün şərait və imkanların yaradılması, onların bilik və bacarıqlarının artırılması məqsədilə könüllülük fəaliyyəti həyata keçirilir. Könüllülər 2 ay müddətində fəaliyyət göstərirlər. Göstərilən öhdəliklərlə 2 ay müddətində çalışan könüllülərə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən rəsmi sertifikat verilir.

Qatarda könüllü kimi fəaliyyət göstərən Turanə Mustafayeva, Məmmədqasım Bayramov, Murad Hüseynovla söhbətimiz zamanı gənclər dedilər ki, Prezident İlham Əliyev tərəfindən 2020-ci il ölkəmizdə "Könüllülər ili" elan edilib. Onlar da uğurlu karyeralarının ilk addımlarını məhz səyyar xidmətdə könüllü olmaqla atmış olublar.

Turanə deyir ki, burada insanlara yardım, kömək etmək xoş bir hissdir. Yaşlı nəslin nümayəndələri, nənə-babalarımz gəlir buraya. Onlara kömək etmək, qocalara əl tutmaq böyük savabdır. Qazaxda 3-cü dəfədir (2 dəfə səyyar qatar, 1 dəfə səyyar avtobus) bu prosesdə könüllü kimi çalışır. Murad gün ərzində 60-70 nəfər vətəndaşa xidmət göstərdiyini də söylədi.

## Bu il "ASAN Qatar" 11 şəhər və rayona səfər edəcək

Beləliklə, fevralın 3-dən cəbhə bölgəsinə gələn "ASAN Qatar" bu ayın 29-dək, yəni 27 gün müddətində Qazaxda vətəndaşların xidmətində olacaq. Elnur Niftəliyevin sözlərinə görə, növbəti marşrut Ağdaş rayonunun Ləki qəsəbəsi olacaq. Martın 4-dən 18-dək aran bölgəsində olacaq səyyar qatar 15 gün müddətində vətəndaşlara xidmət göstərəcək. Martın 30-dan aprelin 28-dək (30 gün) Xaçmazda, mayın 4-dən iyunun 2-dək isə Şirvan şəhərində olacaq.

Bu il Qazaxdan başlayan səyyar qatarın son duracağı Hacıqabul rayonu olacaq. Ümumilikdə bu il "ASAN Qatar" ölkənin 11 rayonunda - Qazax, Ağdaş, Xaçmaz, Şirvan, Salyan, Astara, Lənkəran, Şəmkir, Ağstafa, Füzuli və Hacıqabulda ölkə əhalisinə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında xidmət edəcək.

*Bir sözlə, Dövlət Agentliyinin səyyar xidmətləri, xüsusən də "ASAN Qatar"da yaradılan şərait bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin icra orqanlarına vətəndaşlara daim diqqət və qayğı göstərilməsi ilə bağlı tapşırığı, habelə bir sıra tövsiyələri effektiv üsullarla yerinə yetirilir. Milli brendimiz olan "ASAN xidmət" fəaliyyətini getdikcə daha da şaxələndirir.*

***Elçin CƏFƏROV,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Pakistanın Xeybər Puxtunxva əyalətinin Assambleyası Azərbaycanın ərazi bütövlüyünə hörməti təsdiq edən qətnamə qəbul edib

Fevralın 21-də Pakistanın Xeybər Puxtunxva əyalətinin Assambleyası tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörməti təsdiq edən qətnamə qəbul edilib. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatında deyilir.

Qətnamədə Xeybər Puxtunxva əyalətinin Assambleyası Pakistan və Azərbaycan arasındakı qarşılıqlı hörmət, etimad və anlaşma prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq münasibətlərinə yüksək dəyər verərək, iki ölkə arasında bölüşülən mədəni dəyərlərin, regional və qlobal məsələlərə ortaq yanaşmanın və beynəlxalq müstəvidə yaxın əməkdaşlığın mövcud olduğunu vurğulayır. Pakistanın Cəmmu və Kəşmir məsələsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə dair prinsipial mövqeyinin Azərbaycan tərəfindən birmənalı dəstəkləndiyi və Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Cəmmu və Kəşmir Kontakt Qrupunda fəal iştirakı qətnamədə məmnuniyyətlə qeyd olunur.

Assambleya Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğal olunmasını və 1992-ci ilin 26 fevral tarixində Azərbaycanın Xocalı şəhərində Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhaliyə qarşı törədilən soyqırımını, İƏT və BMT qətnamələrinə əhəmiyyət verilməməsini pisləyir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə Azərbaycan Respublikasının səylərini dəstəkləyir. Assambleya bəyan edir ki, Ermənistan Azərbaycanın ərazilərini işğaldan azad etməyənədək və beləliklə də bu iki ölkə arasında sülh əldə olunmayanadək Ermənistanla diplomatik münasibətlər qurulmayacaq.

Məlumat üçün bildirmək istərdik ki, Xeybər Puxtunxva əyaləti Pakistanın dörd inzibati əyalətindən biri olub, ölkənin şimal-qərb bölgəsində yerləşir və əhalisinin sayına, həm də iqtisadiyyatına görə üçüncü böyük əyalət hesab olunur. Əyalətin Assambleyası təkpalatalı qanunverici qurum olmaqla 5 il müddətinə seçilən 145 üzvdən ibarətdir.

Pakistan Senatının Xarici Əlaqələr Komitəsi 2012-ci ildə, Pakistan Milli Assambleyasının Xarici İşlər üzrə Daimi Komitəsi tərəfindən 2017-ci ildə Xocalı soyqırımını tanıyan, həmçinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək, Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarından dərhal çıxarılmasını tələb edən qətnamələr qəbul edib.

# Gələn il Bakı IV Beynəlxalq Etnoidman Forumuna evsahibliyi edəcək

Gələn il Bakıda Beynəlxalq Etnoidman Forumu keçiriləcək.

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə Beynəlxalq Etnoidman Federasiyasının prezidenti Bilal Ərdoğan Antalyada keçirilən III Beynəlxalq Etnoidman Forumunda məlumat verib.

"Etnoidman növlərinin yenidən inkişaf etdirilməsi" mövzusunda təşkil olunan Antalya Forumunda Beynəlxalq Etnoidman Federasiyasının prezidenti Bilal Ərdoğan, Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov, Türkiyənin Gənclər və İdman naziri Mehmet Muharrem Kasapoğlu və digər ölkələrin nazirləri etnoidmanın dünyada daha geniş yayılmasına və tanıdılmasına dair birgə bəyanat imzalayıblar.

Gənclər və İdman naziri Azad Rəhimov forumda çıxış edərək 2021-ci ildə IV Beynəlxalq Etnoidman Forumunun Bakıda keçirilməsinə dair qərarın qəbulunun ölkəmizin indiyədək bir sıra mühüm idman yarışlarına və tədbirlərinə uğurla evsahibliyi etməsinin nəticəsi olduğunu deyib. Etnoidmanın inkişafına dair birgə bəyannamənin imzalanmasını önəmli addım adlandıran nazir bunun milli idman növlərinin inkişafı, kütləviliyinin artırılması və təbliği işinə digər ölkələrin də cəlb olunması, eləcə də bu istiqamətdə əməkdaşlığın dərinləşdirilməsi baxımından yeni imkanlar açacağını vurğulayıb.

A.Rəhimov III Beynəlxalq Etnoidman Forumunun xalqların zəngin və çoxəsrlik mədəni irslərinin, yüzillərlə formalaşmış adət-ənənələrinin və mədəniyyətlərinin, milli idman növlərinin inkişafında və daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayacağını bildirib. Nazir Azərbaycan milli atüstü idman oyunu - çövkənin 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına salınmasının ölkəmizin böyük uğuru olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, işini fevralın 23-də başa çatdıracaq forumda 49 ölkədən dövlət və hökumət rəsmiləri, federasiyaların təmsilçiləri və elm adamları olmaqla ümumilikdə 200 nümayəndə iştirak edir. Toplantıda "Milli idman və oyunların hökumətlər tərəfindən dəstəklənməsinin əhəmiyyəti", "Dövlət qurumlarının diqqətinin bu sahələrə yönəldilməsi yolları", "Milli idman və oyunlar vasitəsilə gənc nəslin yetişdirilməsini təmin etmək və gənclərin vaxtlarını səmərəli keçirmələrinə şərait yaratmaq", "Nəsillər və mədəniyyətlər arasında əlaqələrin qurulmasında etnoidmanın rolu", "Milli idman növləri ilə bağlı məlumatların və sənədlərin toplanmasında universitetlərin, federasiyaların və klubların əməkdaşlığının vacibliyi" və digər mövzularda müzakirələr aparılır.

# YAP könüllüləri tərəfindən Gürcüstanda yaşayan soydaşlarımız üçün toplanan dərsliklərin təqdimatı olub

Fevralın 22-də Yeni Azərbaycan Partiyası (YAP) İcra Katibliyində YAP könüllüləri tərəfindən Gürcüstanda yaşayan soydaşlarımız üçün toplanan dərsliklərin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov Prezident İlham Əliyevin elan etdiyi "Könüllülər ili" çərçivəsində görülən işlərdən danışıb. Bildirib ki, "Könüllülərlə maariflənək" şüarı altında Yeni Azərbaycan Partiyasının və "Azərkitab" Kitab Mərkəzinin birgə təşkilatçılığı ilə YAP könüllüləri Gürcüstanda yaşayan soydaşlarımızın istəyini nəzərə alaraq "Kitablarımızı paylaşaq, dilimizi yaşadaq" aksiyasına start verib.

Qeyd edilib ki, ölkəmizdə könüllülər hərəkatı böyük vüsət alıb, YAP Gənclər Birliyi "Könüllülər ili" çərçivəsində paytaxtda və regionlarda müxtəlif tədbirlərin keçirilməsini nəzərdə tutur.

S.Orucov təqdim olunan layihənin də gənclər tərəfindən maraqla qarşılanacağına inandığını söyləyib.

YAP Sabunçu Rayon Təşkilatı Gənclər Birliyinin sədr müavini Misirxan Həsənov aksiya haqqında ətraflı məlumat verib. O bildirib ki, Gürcüstanda yaşayan gənc soydaşlarımız üçün bir ay ərzində 500 adda 2000 nüsxə kitab toplanıb. Bu kitablar Azərbaycan dilində nəşr olunmuş, yerli və dünya ədəbiyyatını, dərslikləri və uşaq ədəbiyyatını əhatə edir.

M.Həsənov vurğulayıb ki, ilk mərhələdə fevralın 23-də 800 nüsxə kitab Tbilisidə 64 saylı Azərbaycan məktəbinin kitabxanasına təhvil veriləcək. Bu aksiya davamlı olacaq. Layihənin məqsədi odur ki, harada yaşamasından asılı olmayaraq azərbaycanlı gənclər özlərini yalnız hiss etməsinlər, Azərbaycan gəncliyi hər zaman həmrəy olsun.

Tədbir mövzu üzrə müzakirələrlə davam edib.





# Mehriban Əliyevanın himayəsində qurulan xoşbəxtlik

## Taleyi uşaq evində yazılan cütlüyün nisgil və sevinc dolu həyat hekayəsi



*Əvvəli 1-ci səh.*

Sanki uşaq evinin bütün sakinlərinin üzərinə günəş doğmuşdu. Onun timsalında ana nəvazişi duymuş, kədərli gözlərinə gülüş qonmuş, özlərinə yaxın dost, həmdəm, "mənəvi ana" tapmışdılar...

Daha onlar tək, kimsəsiz deyildilər. Əlamətdar günlərdə sevinclərini bölüşən, nailiyyətlərinə qiymət verən, xoş günlərində qol götürüb oynayan, gələcək həyatda uğurlara səsləyən, onlara dəstək olan insan vardı...

Elə onların həyat axarının dəyişməsinə, bir-birlərinə olan sevgilərinin xoşbəxt sonluqla bitməsinə, şən körpə sədaları yüksələn bir yuvanın çırağının yanmasına da məhz o xeyirxah səbəb olmuşdu - amalı Azərbaycan uşaqlarını bəxtəvər görmək olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva...

### Acılı-şirinli xatirələr...

*Bu hekayə nisgil, kədər, sevgi, xoşbəxtliyin bir arada yaşandığı Nizami rayonu 1 saylı Uşaq Evinin məzunları Yasəmən və İbrahim Abzotovların ömür yolundan bəhs edir. Gənc qəhrəmanlarımız ötüb keçən, amma hələ də acılı-şirinli xatirələri burunlarını göynədən uşaqlıq illərindən, müstəqil həyatdakı ilk addımlarından, arzularındakı xoşbəxt həyata necə qovuşmalarından danışırlar.*

1989-cu ilin yanvarında Bakıda dünyaya göz açan İbrahimin qismətinə cəmi 10 ay ana qayğısı görmək nəsib olur. Anası tək olduğu və heç yerdə işləmədiyi üçün oğlunu Bakıda yerləşən körpələr evinə qoymağa məcbur olur. 3 yaşına qədər orada qaldıqdan sonra uşaq evinə təhvil verilən körpə İbrahim həyat yolunda tənha addımlamağa başlayır. Amma heç zaman onu uşaq evinə qoyduğuna görə anasını qınaya bilmir...

- Anam arada yanıma gəlib-gedərdi. Amma bu, mənim valideynlərimə olan həsrətimi ödəmirdi. Hər uşağın ən böyük arzusu ata-anası ilə birlikdə böyüməkdir. Təəssüf ki, mən o xoşbəxt uşaqlardan ola bilmədim, bu psixoloji travma ilə böyüdüm. Təbii ki, uşaq evində maddi ehtiyaclarımız ödənirdi, bizə qayğı göstərirdilər, amma ana qayğısı, ata sevgisi başqadır. Adi bir şey deyim, məktəbdən çıxanda görürdüm ki, digər uşaqların dalınca valideynləri gəlib. Bizim isə arxamızca gələn, nailiyyətlərimizlə maraqlanan valideynimiz yox idi... Bəzən mənə sual verirlər ki, valideynlərindən inciyirsənmi? "Yox" deyirəm. Axı onlardır bu dünyaya gəlməyimin səbəbkarları...

### Bilmirdi ki, təkcə atasına yox, anasına da həsrət qalacaq...

1990-cı illərin əvvəlləri idi. Bərdə rayonunun Alaçadırlı kəndində



xoşbəxt bir ailədə üç azyaşlı uşaq böyüyürdü. Çox keçməyəcək ki, üzərlərini qara buludların alacağından, həyatdakı dayaqlarını, atalarını itirəcəklərindən xəbərsiz... Atasının surətini rəsmlərdən ürəyinə həkk edən Yasəmən cəmi yaş yarımlıq idi onda... Körpə Yasəmən həm də ondan xəbərsiz idi ki, elə bu andan o, təkcə atasına yox, anasına da həsrət qalacaq, onun hənirini özgələrlə, yadlarla ovutmağa çalışacaq. Amma bunlar 2-3 il sonra olacaqdı...

Hələliksə tənha ana övladlarını başına yığaraq onlara baxmağa çalışırdı, amma bu, çox çətin idi. Buna görə də Bakıda dolanışıq tapa bilərlər düşüncəsi ilə övladlarını da götürüb heç kimi tanımadığı böyük şəhərə yollanır. Amma yoxluqlar, çətinliklər də onu qarabaqara izləyirdi. İşsiz tənha qadın, himayəsində olan üç azyaşlı uşaqla cavabı olmayan suallar qarşısında çarəsiz qalmışdı. Ümidsiz qalan ana balalarının acından ölməməsi üçün neçə zamandır ürəyində dolandırmağa, dilinə gətirməyə qorxduğu o gerçəyə boyun əyməli oldu. Balaca Yasəməni kiçik qardaşı ilə bərabər uşaq evinə təhvil verib, sürətlə uzaqlaşmağa, körpələrinin ağlamasını, arxasınca qışqırmasını görməmək, duymamaq üçün qaçmağa başladı...

- 6 yaşımdan uşaq evində böyüdüm. Həftəsonları anam görüşümüzə gəlirdi. İstəmirdim bizi qoyub getsin, amma gedirdi... Uşaq vaxtı bunu başa düşməsəm də, sonradan o dövrdə yaşadığımız həyatın reallığını dəyərləndirib anladım ki, bəlkə də bizim üçün beləsi daha məsləhətli olub. Yaxşı ki, anam bu gücü özündə tapıb, bizi uşaq evinə, dövlətin qayğısına verib. O çətinliklərlə açıq cəmiyyətdə böyüsəydik, həyatımız daha ağır olardı. Yəqin, Allahın buyruğu belə idi...

### Mehriban xanım soruşdu ki, hanı mənim alagöz qızım?

*Yaman yuxa, yaman kövrək olur uşaq evinin sakinləri... Gözləri yolda, qulaqları səsdə böyüyürlər. Ürəklərinin dərinliyində kimsəsizliyin soyuq ürpərtisi, gələcəklə bağlı əndişə yuva qurur. Amma onlar və Azərbaycandakı bütün kimsəsiz uşaqlar xoşbəxt idilər, çünki Mehriban xanım Əliyeva idi arxa-dayaqları, könül həmdəmləri...*

*Yasəmən:*

- Mehriban xanım bizim uşaq evinə tez-tez qonaq gəlirdi. O, çox ünsiyyətcil, mehriban idi. Hər birimizlə danışır, nəyə ehtiyacımız olduğunu soruşur, xırda nüanslara qədər maraqlanırdı. Hiss edirdik ki, birinci xanım bizimlə vaxt keçirməyi çox sevir. Ozamankı görüşlərimizdən bir xatirə isə mənim üçün çox əziz, qiymətlidir. Mehriban xanımın bizə növbəti gəlişlərindən biri idi. Otağa daxil olanda bütün uşaqlar yerlərindən durub Mehriban xanımın yanına qaçdılar. Utancaq olduğumdan təkcə mən xalça dəzgahının yanında qısılıb qaldım. Bu zaman Mehriban xanım soruşdu ki, hanı mənim alagöz qızım? O, məni axtarırdı. Sonra yanına çağırdı, görüşdü. Mənə dedi ki, ali təhsil



almalısan, oxumalısan. Nə çətinliyin olsa, xəbər ver. Mehriban xanımın bu sözləri mənə böyük motivasiya, həvəs və özünəinam verdi.

*İbrahim:*

- Mehriban xanımın bizim uşaq evinə ilk dəfə gəldiyi vaxtdan 13-14 il keçib, amma o günü indiki kimi xatırlayıram... Hər zaman ana-atamızı, bacı-qardaşlarımızı gözləyirdik. Amma Mehriban xanım gəlişi ilə o həsrətimizə son qoydu, kimsəsizliyimizi unutdurdu. Elə bil nağıl dünyasına düşmüşdük, o qədər sovqat, oyuncaq gətirmişdi ki...

Təəssüratlarımız çox zəngin idi. Hətta günlərlə, həftələrlə, aylarla danışırdıq ki, cənab Prezidentin xanımı məhz bizim görüşümüzə gəlib. Və bu gəliş bir dəfə yox, davamlı oldu. Elə olurdu ki, ildə 3-4 dəfə bizə baş çəkirdi. Birlikdə oturub çay içir, söhbət edir, bir valideyn kimi bizimlə maraqlanırdı. Bəzən hətta unudurduq ki, valideynimiz yoxdur... Sanki biz Mehriban xanımın övladlarıydıq. O bizə ana qayğısı göstərdi, öz övladları kimi qəbul etdi. Bu günə qədər də özümü tək, atılmış hiss etməmişəm...

Mehriban xanım gələndə onu müxtəlif rəqslər, mahnılarla qarşılayırdıq. Bir dəfə bal rəqsi oynayırdım. Daha sonra isə keçib xalçaçılıq otağında xalça toxumağa başladım. Rəssamlıq əl qabiliyyətim olduğu üçün çəkdiyim rəsmləri sərbəst şəkildə ilmələrə köçürə bilirəm. Mehriban xanım məni orada da gördükdə müdiriyyətimizdən soruşmuşdu ki, "bu, bayaq rəqs edən oğlandır?" "Hə" cavabı alandan sonra isə demişdi ki, "bu oğlanın gələcəyi parlaqdır. Həqiqətən istedadlı bir insan olacaq..."

Çox sevinmiş, qürurlanmışdım ki, Mehriban xanım məhz mənim haqqımda belə gözəl ifadə işlədib...

### Sevgi etirafı

*Çoxdan idi ki, ürəyində iz salan bir sirri-pünhanı dilinə gətirmək istəsə də, çəkinirdi. İlk sevgi oxunun daşa dəyəcəyindən, nakam qalacağından, qarşılıqsız olacağından qorxurdu. Amma vədə yetişmişdi, qarşıda onu ayrılıq gözləyirdi, əsgərliyə yollanacaqdı. Nəhayət, cəsarətini toplayıb sevgisini etiraf etmək qərarına gəlir...*

*İbrahim:*

- Çoxdan idi ki, Yasəməndən xoşum gəlirdi, xasiyyətimiz də tuturdu. Amma sevgimi özünə etiraf edə bilmədim, utandım. Yaxın bir dostum var idi, onun vasitəsilə bildirdim. Lakin ilk dəfə qəbul etmədi. Amma əsgərlikdə olduğum zaman bir-iki dəfə mənə zəng vurmuşdu, danışmışdıq. Sevdiyini etiraf etməsə də, könlünün məndə olduğunu hiss edirdim...

*Yasəmən:*

- Çox yaxşı dostluq münasibətlərimiz vardı, bir-birimizi anlayırdıq. İbrahim ilk dəfə sevgisini etiraf edəndə isə söylədim ki, hələ bu barədə düşünməmişəm, təhsil almaq istəyirəm. 2012-ci ildə Azərbaycan Dillər Universitetinin Beynəlxalq əlaqələr fakültəsinə qəbul oldum. Təhsilim ödənişli olsa da, Mehriban xanımın diqqəti



sayəsində bundan azad edildim, hətta mənə tələbə təqaüdü də ayırdılar.

2016-cı ildə universiteti bitirəndə şəxsi məlumatlarımı Heydər Əliyev Mərkəzinə göndərdim. Üzərindən heç iki gün keçməmiş məni işə qəbul etdilər və o zaman yeni yaranan Regional İnkişaf İctimai Birliyində işə başladım...

### Mehriban xanımın sevinc ərməğanı

*İbrahim:*

- Heydər Əliyev Fondu və SOCAR-ın birgə layihəsinə əsasən uşaq evləri və internat məzunları əsgərliyə gedib-gələndən sonra imtahansız peşə məktəbinə qəbul olub 1 il orada oxuyurlar. Bundan sonra isə ev və işlə təmin edilirlər. Mən də bu imkanlardan yararlandım... Nizami rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə valideyn himayəsindən məhrum olan gənclər üçün inşa edilmiş yaşayış binasında mənzillə təmin olundum. Hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində işləyirəm. Elə nişan üzüyümün pulunun yarısını da öz maaşımla düzəltmişdim. Amma toy etməyə maddi gücüm çatmırdı...

*Yasəmən:*

- İş yerində ailə həyatı qurmaq istədiyimi bildirəndə bu barədə Mehriban xanıma məlumat göndərildi. Bizə bildirildi ki, toyun bütün xərcləri Heydər Əliyev Fondu tərəfindən ödəniləcək. Cəmi iki gündən sonra bizim üçün çox təntənəli toy mərasimi təşkil edildi. Uşaq evinin bütün sakinləri, dostlarımız, xeyli qonaqlar var idi və bolluca şənlənmişdik. Toyumuzda Mehriban xanım bizi bir daha sevindirdi, avtomobil hədiyyə etdi...

*İbrahim:*

- Bəy kürsüsü elə bir yerdir ki, hər kəs özünü orada xoşbəxt hiss edir. Amma mən özümü daha xoşbəxt sayırdım. Keçdiyim çətin günlər xatirəmdə canlanırdı və düşünürdüm ki, özüm bu yolu tək gəlsəydim, çox şeyi bacara bilməzdim. İndi işimiz, evimiz, avtomobilimiz, ailəmiz var. Bütün bunlar isə Mehriban xanım Əliyevanın bizə sevinc ərməğanıdı.

### Həyata keçən arzular...

*Həyatlarının heç bir dönəmində özlərini tənha hiss etmədilər. Bütün analı-atalı uşaqlar kimi, ürəkli böyüdülər. Cəmiyyətə, xalqımıza layiqli, xeyirli vətəndaş kimi yetişdilər. Bütün bunlara isə məhz Mehriban xanım Əliyevanın şəxsi diqqəti və qayğısı sayəsində nail oldular...*

*Yasəmən:*

- Həyatımda ən böyük dəstəkçim Mehriban xanım olub. Hansı çətinliyim olubsa, başımı çevirəndə hər zaman arxamda onu görmüşəm. İşlərinin çox olmasına, zamanının darlığına baxmayaraq, dəstəyini heç zaman əskik etməyib. O, mənə dayaq oldu, təhsil almağa təşviq etdi. Hətta ali təhsil almasaydım belə, uşaq evində bizə öyrədilən peşələrlə həyatımı normal şəkildə qura bilərdim. Məsələn, yaxşı aşpaz, toxucu, saç ustası ola bilərdim.

Həyatım boyu minnətdarlığım, dualarım Mehriban xanıma olacaq. Uşaq evində olsam da, çox yaxşı mühitdə böyümüşəm, xeyli yaxşılıqlarla qarşılaşmışam. Çalışıram mən də gördüyüm yaxşılıqları digər insanlara ötürüm...

*İbrahim:*

- Mehriban xanımın həyatımızda böyük rolu var. Uşaq evində gördüyümüz qayğı, sevgi oranı tərk etdikdən sonra da bitmədi, əksinə, ikiqat artdı. İndi də Heydər Əliyev Fondundan mütəmadi olaraq hər birimizlə maraqlanırlar. İşimizdə hansısa çətinliklərin olub-olmamasını soruşurlar. Bizim üzərimizə düşən borc isə göstərilən etimadı doğrultmaqdır.

Əslində biz tənha, valideyn himayəsindən məhrum deyilik. Mehriban xanımın himayəsində olan heç bir uşaq kimsəsiz deyil və biz böyük bir ailəyik...

*İndi pəncərəsi işıqlı, bacasından tüstü burumlanan bir evdə Abzotovlar ailəsində Əminə adlı qızcığaz böyüyür. Valideynlərinin himayəsində, ana qayğısıyla, ata sevgisiylə...*

*Eyni ilə Mehriban xanım Əliyevanın bütün Azərbaycan uşaqlarını görmək istədiyi şəkildə: bəxtəvər, xoşbəxt, firavan, analı, atalı...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Gənclərin liderlik bacarıqlarının inkişaf etdirilməsi aktual məsələlərdəndir





"Prezident İlham Əliyevin gənclərə yönələn siyasətinin tərkib hissəsi olaraq gənclərin ictimai həyatda rolunun artırılması və məsul vəzifələrə irəli çəkilməsi baxımından onların qərar qəbuletmə, natiqlik, məsuliyyəti öz üzərinə götürmə və digər liderlik bacarıqlarının müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi aktual məsələlərdəndir. Bunu nəzərə alaraq, gənclərdə liderlik qabiliyyətinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən "GəncLİK" (Gənc Liderlərin İnkişaf Konsepsiyası) proqramı fəaliyyətə başlayıb. Proqramın məqsədi potensialı olan ictimai liderlərin üzə çıxarılması, inkişafı və şəbəkələşməsinin təmin olunması, habelə onların fəaliyyət istiqamətləri üzrə irəli çəkilməsindən ibarətdir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər fevralın 22-də Təhsil nazirinin müavini Firudin Qurbanovun "GəncLİK" proqramının 4 mərhələli seçim mərhələsindən uğurla keçən 30 gənc liderlə görüşündə səsləndirilib.

F.Qurbanov Azərbaycan Prezidenti İlham Əliyevin elmə, təhsilə, mədəniyyətə, idmana xüsusi önəm verdiyini vurğulayıb. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin əhəmiyyətindən danışan nazir müavini ölkəmizdə gənclərə, onların təhsilinə böyük diqqət göstərildiyini deyib. O, gənclərə tövsiyələrini verib, onlara uğurlar arzulayıb.

Tədbirdə, eyni zamanda, məlumat verilib ki, seçilən gənc liderlər üçün peşəkar xarici və yerli mentorların iştirakı ilə təlimlər keçirilib, onların regionlara səfərləri təşkil edilir.

GəncLİK proqramı çərçivəsində hər həftənin şənbə və bazar günləri gənc liderlərin dövlət qurumlarının rəhbər şəxsləri ilə görüşləri keçirilir.

Proqram iştirakçılarına Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri Anar Bağırov, Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, KOBİA-nın sədr müavini Nadir Adilov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev, Azərbaycanın Avropa İnsan Haqları Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov, BP-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyev, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının sədri Taleh Ziyadov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ilə görüşlər təşkil olunub.

## Azərbaycan Prezidentinin Münxendəki debatda diplomatik qələbəsi DSX-nin şəxsi heyəti arasında geniş təbliğ olunur





Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən debatda dövlətçiliyimizin növbəti diplomatik qələbəsinin təbliğ edilməsi məqsədilə Dövlət Sərhəd Xidmətinin (DSX) aparatında, struktur qurumlarında və hərbi hissələrində silsilə tədbirlər təşkil olunur.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, tədbirlərdə Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq auditoriya qarşısında Ermənistanın baş nazirinə yüksək diplomatiya və erudisiya ilə beynəlxalq hüquq normalarına və tarixi faktlara əsaslanmaqla, problemlərə dəqiq və konseptual yanaşma tərzi ilə aşkar üstünlük nümayiş etdirməsi fəal şəkildə təbliğ olunur.

Müzakirələrdə çıxış edən deputatlar, elm xadimləri, ictimaiyyətin nümayəndələri həmin debatda dövlətçiliyimizin gücünü, nüfuzunu və qüdrətini beynəlxalq səviyyədə yüksəklərə qaldıran Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli və məharətli çıxışı zamanı erməni faşizminin törətdiyi Xocalı soyqırımının məsuliyyətindən yayınmaq cəhdlərini ifşa edərək işğalçı dövlətin rəhbərini çıxılmaz və aciz duruma saldığı xüsusi vurğulanıb. Bununla yanaşı, səlahiyyətli beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, xalqımızın fundamental haqlarının, dövlətimizin ərazi bütövlüyünün bərpası üçün təzyiqləri artırmağa israrla tələb etməsinin hər bir sərhədçinin döyüş ruhunun və mübarizə əzminin daha da yüksəlməsinə səbəb olması fəxrlə qeyd edilib.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı canlı debatın videoyazısı şəxsi heyətə nümayiş olunub.

***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Qərar № 30/341

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 330 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 86 saylı İsmayıllı seçki dairəsi üzrə qeydə alınmış namizəd Başirov Fuad Valod oğlu 2020-ci il fevralın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 86 saylı İsmayıllı seçki dairəsi üzrə qeydə alınmış namizəd Başirov Fuad Valod oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 330 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/342

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 295 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 98 saylı Şəmkir şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Səfərov Elfaq Məzahir oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin bəzi seçki məntəqələrində pozuntular olduğunu və bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə əlaqədar müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Araşdırma prosesində namizəd Səfərov Elfaq Məzahir oğlu 2020-ci il fevralın 21-də Mərkəzi Seçki Komissiyasına gəlmiş, ərizə ilə müraciət edərək şikayətini geri götürdüyünü bildirmişdir. Bu səbəbdən Səfərov Elfaq Məzahir oğlunun 2020-ci il tarixli 295 saylı müraciətinə baxılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 98 saylı Şəmkir şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Səfərov Elfaq Məzahir oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 295 saylı müraciətinin araşdırılmasına xitam verilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/343

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 294 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 48 saylı Yevlax seçki dairəsi üzrə qeydə alınmış namizəd Hacıbəyli Rüfət İbrahim oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 24/74 saylı qərarını mübahisələndirmiş və onun ləğv olunmasını, seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız sayılmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd R.İ.Hacıbəyli müraciətində iddia edir ki, 48 saylı Yevlax seçki dairəsi üzrə səsvermə günü seçici aktivliyi aşağı olsa da, seçki qutularına namizədlərdən birinin xeyrinə əlavə bülletenlərin atılması və qrup halında şəxslərin seçki məntəqəsinə gətirilməsi və seçicilərin bir neçə seçki məntəqəsində səs verməsinə nail olunması hesabına seçici aktivliyi süni şəkildə artırılmış, seçki prosesini müşahidə etmək üçün müşahidəçilərə Seçki Məcəlləsinin tələblərinə əsasən səsvermə prosesinin izlənilməsi üçün yaradılan şərait qanunla nəzərdə tutulmuş tələblərə uyğun olmamış, bəzi məntəqə seçki komissiyaları saydıqları bülletenləri uca səslə müşahidəçilərə elan etməmişdir. Seçki dairəsinin məntəqələri üzrə spesifik pozuntulardan bəhs edəndə isə yalnız 3 və 13 saylı seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularını - 3 saylı məntəqədə qeydiyyatda olmayan insanların məntəqələrdə bir neçə dəfə səs verdiyini, "Yaşıllaşdırma" idarəsi işçilərinin də bu prosesdə iştirak etdiyini, 13 saylı məntəqədə isə saat 19:20 olsa da, səslərin sayılmağa başlanmadığını, səslər sayılmağa başlananda isə qeyri-müəyyən şərait yaradılması yolu ilə bülletenlərin dəyişdirildiyini iddia edərək 48 saylı Yevlax seçki dairəsində nəticələrin ləğv olunmasını tələb etmişdir.

Ərizəçi müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair 1 ədəd elektron məlumat daşıyıcısı əlavə etmişdir.

Namizəd R.İ.Hacıbəyli müraciətini onunla əsaslandırır ki, yuxarıda qeyd olunanlarla əlaqədar 48 saylı Yevlax seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, şikayət komissiya tərəfindən araşdırılmış, dairə seçki komissiyasının müvafiq qərarı ilə onun müraciəti əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, ərizəçinin Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Həmçinin dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

48 saylı Yevlax seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, 3 və 13 saylı seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd R.İ.Hacıbəylinin müraciəti əsassız hesab olunaraq təmin edilməməlidir.

Araşdırma ilə əlaqədar sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən video materiallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar yalnız 6 saylı seçki məntəqəsində müşahidə edilmişdir ki, bu da seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən pozuntu kimi qiymətləndirilməli və həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir. Baxış nəticəsində həmin seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarındakı məlumatlarda uyğunsuzluqlar aşkarlanmamışdır. Araşdırma zamanı bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir. Onu da qeyd edək ki, seçki dairəsi üzrə namizədin maraqlarını təmsil edən hər hansı seçki subyekti qeydiyyatdan keçməmişdir.

Araşdırma zamanı adıçəkilən məntəqə seçki komissiyaları üzvlərindən, müxtəlif maraqları təmsil edən müşahidəçilərdən müvafiq izahatlar alınaraq nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, qeydə alınmış namizəd R.İ.Hacıbəylinin müraciətdə iddia etdiyi qanun pozuntuları öz təsdiqini tapmamış və bu səbəbdən dairə seçki komissiyası düzgün hüquqi nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən müraciətin qismən təmin edilməsi, seçki dairəsinin 6 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və dairə seçki komissiyası qərarının həmin seçki məntəqəsinə aid hissədə ləğv olunması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 48 saylı Yevlax seçki dairəsi üzrə qeydə alınmış namizəd Hacıbəyli Rüfət İbrahim oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 294 saylı müraciəti qismən təmin edilsin, 6 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 24/74 saylı qərarı 6 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/345

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 302 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 117 saylı Oğuz - Qəbələ seçki dairəsi üzrə qeydə alınmış namizəd İsmayılova Ləman Aləşrəf qızı 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/41 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğvini və pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciətin araşdırılması qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvünə həvalə edilmişdir.

Müraciətlə bağlı əlavə araşdırmanın zəruri olması ilə əlaqədar ekspert qrupunun üzvü tərəfindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.10-cu maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.8-ci bəndinə uyğun olaraq araşdırma müddətinin uzadılması barədə vəsatət qaldırılmışdır.

Vəsatət onunla əsaslandırılmışdır ki, iş üzrə təqdim olunmuş əlavə məlumatların öyrənilməsi və müraciətdə göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması məqsədi ilə araşdırma müddətinin artırılması zəruridir.

Vəsatət əsaslı olduğundan təmin edilməli, əlavə araşdırılma aparılması üçün müddət 3 gün artırılmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1.10-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 9.6-cı bəndinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 117 saylı Oğuz - Qəbələ seçki dairəsi üzrə qeydə alınmış namizəd İsmayılova Ləman Aləşrəf qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 302 saylı müraciətinin araşdırılması müddəti 3 gün artırılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/344

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 293 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 11 saylı Qaradağ seçki dairəsi üzrə qeydə alınmış namizəd Paşayev Kamil Əşrəf oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 20/56 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Ərizəçi müraciətində səsvermə günü 11 saylı Qaradağ seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularına yol verildiyini, həmin pozuntularla bağlı dairə seçki komissiyasına təqdim edilmiş müraciətin və digər sənədlərin düzgün araşdırılmadığını iddia edərək, həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğv olunmasını tələb etmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, ona əlavə sənəd və ya material təqdim etmək, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Namizədin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

11 saylı Qaradağ seçki dairəsinin dairə seçki komissiyası mübahisələndirilən qərarını onunla əsaslandırmışdır ki, namizəd K.Ə.Paşayevin müraciətində səsvermə günü seçki məntəqələrindəki qanun pozuntuları ilə bağlı iddiaları hərtərəfli araşdırılmış və nəticədə səsvermənin keçirilməsi və ya nəticələrin rəsmiləşdirilməsi zamanı seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından müraciət əsassız hesab olunaraq təmin edilməməlidir.

Müraciətin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə baxış keçirilmiş, 11 saylı Qaradağ seçki dairəsinin seçki məntəqələri üzrə hər hansı bir görüntü müəyyən edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir. Səsvermə günü seçki qanunvericiliyinin tələbinə uyğun olaraq məntəqə seçki komissiyaları tərəfindən tərtib edilmiş və müşahidəçilərə verilmiş səsvermənin nəticəsinə dair yekun protokolların nüsxələri ilə məntəqə seçki komissiyaları tərəfindən dairə seçki komissiyasına təhvil verilmiş protokolların müqayisəli araşdırılması aparılarkən 25 saylı seçki məntəqəsinin məlumatlarında uyğunsuzluq müəyyən edilmişdir. Qeyd olunanlara əsasən həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Eyni zamanda araşdırma ilə müəyyən edilmişdir ki, səsvermə günü bir seçki məntəqəsi istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, bir seçki məntəqəsi istisna olmaqla, müraciətdə qeyd olunan pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Beləliklə, K.Ə.Paşayevin müraciəti qismən təmin edilməli, 25 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 20/56 saylı qərarı 25 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilməli, qalan hissədə isə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 11 saylı Qaradağ seçki dairəsi üzrə qeydə alınmış namizəd Paşayev Kamil Əşrəf oğlunun 19 fevral 2020-ci il tarixli 293 saylı müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 25 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 20/56 saylı qərarı 25 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissədə isə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/346

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 304 saylı və 20 fevral 2020-ci il tarixli 329 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 30 saylı Suraxanı birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Quliyev Ziya Rövşən oğlu və digərləri 2020-ci il fevralın 19-da və 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 15 fevral 2020-ci il tarixli 05/65 saylı qərarını mübahisələndirmiş və seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız sayılması barədə qərar qəbul olunmasını xahiş etmişlər.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə birgə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizədlər Z.R.Quliyev, F.V.Eyvazov, M.A.Mahmudov, R.N.Zeynalzadə, İ.A.Sadıqova, F.N.Salahlı və A.T.İsrəfilov birgə müraciətdə səsvermədən əvvəl seçki təşviqatı dövründə, səsvermə günü və səslərin sayılmasında 30 saylı Suraxanı birinci seçki dairəsinin 13, 23 və 25 saylı seçki məntəqələri istisna olmaqla, digər seçki məntəqələrində pozuntular olduğunu iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsini və seçki dairəsi üzrə seçkilərin etibarsız sayılmasını, həmçinin dairə seçki komissiyasına eyni məzmunlu müraciətləri ilə bağlı qəbul olunmuş qərarın ləğvini xahiş etmişlər. Şikayətə və şikayətə əlavəyə iki ədəd elektron məlumat daşıyıcısı əlavə edilmişdir.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onların araşdırmada və komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Müraciətin səsvermə gününədək iddia edilən qanun pozuntuları hissəsi ilə bağlı qeyd edilməlidir ki, həmin pozuntular Seçki Məcəlləsi ilə müəyyən edilmiş şikayətvermə müddəti ötürülməklə mübahisələndirildiyindən onlar üzrə araşdırma aparılması istisna olunur.

Dairə seçki komissiyasından mübahisələndirilən qərarın çıxarılması üçün əsas olmuş sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Namizədlər müraciətlərini əsaslandırmaq üçün iki ədəd elektron məlumat daşıyıcısı təqdim etmişlər. Araşdırma ilə əlaqədar dairə seçki komissiyasının mübahisələndirilən seçki məntəqələrində müşahidə aparmış müşahidəçilərdən, komissiya üzvlərindən və digər seçki subyektlərindən izahatlar alınmışdır.

Namizədlərin müraciətinin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə həmin seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə, seçki məntəqələrində quraşdırılmış veb-kameraların görüntülərinə, həmçinin müraciətlərə əlavə edilmiş iki ədəd elektron məlumat daşıyıcısına və seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokollara baxış keçirilmiş və Mərkəzi Seçki Komissiyasının müvafiq qərarı ilə səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrindən başqa digər seçki məntəqələrində pozuntu halları müəyyən edilməmişdir.

Qeyd edilməsi zəruridir ki, həmin seçki dairəsindən deputatlığa digər namizəd S.A.Rəfullayevanın dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 05/64 saylı qərarından Mərkəzi Seçki Komissiyasına verdiyi şikayətlə əlaqədar aparılmış hərtərəfli araşdırma çərçivəsində təqdim edilmiş video görüntülərdə seçicilərin iradə ifadəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edildiyindən, Mərkəzi Seçki Komissiyasının 19 fevral 2020-ci il tarixli 27/299 saylı qərarı ilə dairə seçki komissiyasının 1, 12, 14, 16 və 18 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilmişdir.

Araşdırma zamanı qeyd edilən seçki məntəqələri istisna olmaqla namizədlərin mübahisələndirdiyi digər seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilərin, vəkil edilmiş şəxslərin, səlahiyyətli nümayəndələrin izahatları ilə iddia edilən qanun pozuntuları təsdiqini tapmamışdır.

Aparılmış araşdırma məcmu şəkildə qiymətləndirilərək müəyyən edilir ki, seçki dairəsi üzrə qeydə alınmış namizədlər Z.R.Quliyev və digərlərinin müraciətlərinin təmin edilməməsi barədə dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir. Ona görə də müraciətin təmin edilməsi və dairə seçki komissiyasının qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 30 saylı Suraxanı birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Quliyev Ziya Rövşən oğlu və digərlərinin 19 fevral 2020-ci il tarixli 304 saylı və 20 fevral 2020-ci il tarixli 329 saylı müraciətləri təmin edilməsin, həmin seçki dairəsi dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 05/65 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/347

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 297 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 19 saylı Nərimanov birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Allahverdiyev Şəmsəddin Həsən oğlu və digərləri 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 74/163 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğvini və pozulmuş hüquqlarının bərpasını xahiş etmişdir.

Müraciətin araşdırılması qanunvericilikdə nəzərdə tutulmuş qaydada Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvünə həvalə edilmişdir.

Müraciətlə bağlı əlavə araşdırmanın zəruri olması ilə əlaqədar ekspert qrupunun üzvü tərəfindən Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.10-cu maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 7.8-ci bəndinə uyğun olaraq araşdırma müddətinin uzadılması barədə vəsatət qaldırılmışdır.

Vəsatət onunla əsaslandırılmışdır ki, iş üzrə təqdim olunmuş əlavə məlumatların öyrənilməsi və müraciətdə göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması məqsədi ilə araşdırma müddətinin artırılması zəruridir.

Vəsatət əsaslı olduğundan təmin edilməli, əlavə araşdırılma aparılması üçün müddət 3 gün artırılmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1.10-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 9.6-cı bəndinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 19 saylı Nərimanov birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Allahverdiyev Şəmsəddin Həsən oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 297 saylı müraciətinin araşdırılması müddəti 3 gün artırılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Qərar № 30/348

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 288 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 28 saylı Sabunçu üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Poladzadə Tahir Əhəd oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/86 saylı qərarını mübahisələndirmiş və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

T.Ə.Poladzadə müraciətdə səsvermə günü 28 saylı Sabunçu üçüncü seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini, həmin seçki məntəqələrinin bəzilərində pozuntuları təsdiq edən video görüntülərin olduğunu iddia edərək, seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onların araşdırma və komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

T.Ə.Poladzadənin müraciətinin araşdırılması zamanı səsvermə günü seçki dairəsinin seçki məntəqələrində baş vermiş qanun pozuntuları ilə əlaqədar sosial şəbəkələrdə yerləşdirilmiş görüntülər və namizəd tərəfindən təqdim olunmuş digər seçki materialları əhatə olunmuşdur.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd T.Ə.Poladzadə dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən onun şikayəti araşdırılmış, dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/86 saylı qərarı ilə müraciəti əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, vəkil edilmiş şəxslər, səlahiyyətli nümayəndələr, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Sosial şəbəkələrdə paylaşılan videogörüntülərin araşdırılması nəticəsində seçki məntəqələrində seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilməmişdir.

Göstərilənlərə əsasən müraciət təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 28 saylı Sabunçu üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Poladzadə Tahir Əhəd oğlunun 19 fevral 2020-ci il tarixli 288 saylı müraciəti təmin edilməsin, 28 saylı Sabunçu üçüncü seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/86 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/349

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 306 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Əliyev Taleh Məhəmməd oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 83 saylı Ağcabədi - Füzuli seçki dairəsi dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 16/39 saylı qərarını mübahisələndirmiş və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

T.M.Əliyev müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası araşdırma apararkən onun təqdim etdiyi şikayət üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir. Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

T.M.Əliyevin müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri və səlahiyyətli nümayəndə tərəfindən təqdim olunmuş digər seçki materiallarını əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar səlahiyyətli nümayəndə T.M.Əliyev 83 saylı Ağcabədi - Füzuli seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

83 saylı Ağcabədi - Füzuli seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, yuxarıda qeyd edilən seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları müəyyən edilmədiyindən qeydə alınmış namizəd T.M.Əliyevin müraciəti əsassız hesab edilərək təmin edilməmişdir.

Səsvermə günü seçki məntəqələrində baş vermiş ehtimal olunan qanun pozuntularının aşkarlanması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, həmin pozuntuları təsdiq edən heç bir fakt aşkarlanmamışdır.

Sosial şəbəkələrdə olan görüntülərin araşdırılması ilə 9 saylı seçki məntəqəsində səsvermənin qanunvericiliyin tələbinə zidd olaraq aparılması faktı aşkarlanmışdır. Bu fakt həmin seçki məntəqəsi üzrə səsvermənin nəticəsinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaradır.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, 9 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə Ümid Partiyasının səlahiyyətli nümayəndəsi Əliyev Taleh Məhəmməd oğlunun 19 fevral 2020-ci il tarixli 306 saylı müraciəti qismən təmin olunsun, 83 saylı Ağcabədi - Füzuli seçki dairəsinin 9 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. Dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli, 16/39 saylı qərarı 9 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/350

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 315 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 125 saylı Zəngilan - Qubadlı seçki dairəsində müşahidəçi qismində çıxış edən Əyyubov İsmayıl Qulu oğlu 2020-ci il fevralın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 15 fevral 2020-ci il tarixli 37/172 saylı qərarını mübahisələndirmiş və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Komissiyanın iclasında iştirak etməyə dəvət olunmuş, lakin gəlməmişdir.

Ərizəçi 125 saylı Zəngilan - Qubadlı seçki dairəsinin dairə seçki komissiyasına müraciət edərək səsvermə günü yuxarıda göstərilən seçki dairəsinin 11 saylı seçki məntəqəsində seçki qanunvericiliyinin tələblərinin pozulduğunu iddia etmiş, həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir. Eyni zamanda o bildirmişdir ki, müraciəti dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 37/172 saylı qərarı ilə əsassız olaraq təmin edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər tələb edilərək alınıb araşdırılmışdır.

Araşdırma zamanı müşahidəçinin mübahisələndirdiyi seçki məntəqəsi üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqəsində səsvermə prosesini müşahidə etmiş digər müşahidəçilər, məntəqə seçki komissiyasının sədri, katibləri, üzvləri, vəkil edilmiş şəxslər, səlahiyyətli nümayəndələr tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Göstərilənlərə əsasən müraciət təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 125 saylı Zəngilan - Qubadlı seçki dairəsində müşahidəçi qismində çıxış edən Əyyubov İsmayıl Qulu oğlunun 20 fevral 2020-ci il tarixli 315 saylı müraciəti təmin edilməsin, 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 34/172 saylı qərarı dəyişdirilmədən saxlanılslın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/351

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 291 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 66 saylı Biləsuvar seçki dairəsi üzrə qeydə alınmış namizəd Əliyeva Lətifə Oruc qızı 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciətlə həmin seçki dairəsinin əksər seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 19/54 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd L.O.Əliyeva müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə yerli icra və bələdiyyə qurumları tərəfindən prosesə müdaxilə olunmuş, seçki məntəqələrində normal müşahidəyə icazə verilməmiş, bəzi vətəndaşlar tərəfindən başqasının əvəzinə səsvermədə iştirak edilmiş, lider namizədin xeyrinə səslər saxtalaşdırılmış, müşahidəçilərə səsvermənin nəticələrinə dair protokolun surəti təqdim edilməmiş və digər qanun pozuntularına yol verilmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd L.O.Əliyevanın müraciəti ilkin olaraq 66 saylı Biləsuvar seçki dairəsi dairə seçki komissiyasında araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda gostərilən müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Namizədin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən fotoşəkillər və videomateriallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar müşahidə edilməmişdir.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Baxış nəticəsində seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Dairə seçki komissiyasına ünvanlanan müraciətdə iddia edilən pozuntular əsasən bir sıra seçki məntəqələri üzrə səsvermənin nəticələrini şübhə altına aldığından, nəticələri mübahisələndirilən seçki məntəqələri üzrə dairə seçki komissiyası tərəfindən araşdırılması aparılan hallara dair müxtəlif maraqları təmsil edən çoxsaylı müşahidəçilərdən, məntəqə seçki komissiyasının üzvlərindən və qeydə alınmış namizədlər Şahbazova Səyalə Əhmədağa qızı və Həsənova Şövkət İftixar qızından izahatlar alınmış, digər zəruri materiallar toplanılmışdır. Toplanan dəlillərlə seçki qanunvericiliyinin tələblərinin pozulmaması təsdiq edilmiş, müraciətdə göstərilənlər isə öz təsdiqini tapmadığından, əsassız olması müəyyənləşdirildiyindən müraciətin təmin olunmaması barədə qərar çıxarılmışdır.

L.O.Əliyevanın müraciətinin təmin edilməməsinə dair 66 saylı Biləsuvar seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 19/54 saylı qərarı qiymətləndirilərkən müəyyən edildi ki, müraciətə dairə seçki komissiyası tərəfindən qanunla nəzərdə tutulan müddətdə və qaydada baxılmış, düzgün hüquqi nəticəyə gəlinmiş və müvafiq qərar ərizəçiyə vaxtında təqdim olunmuşdur.

Beləliklə, 66 saylı Biləsuvar seçki dairəsinin dislokasiyasında olan bir sıra seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya nəticələrinin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd L.O.Əliyevanın 19 fevral 2020-ci il tarixli 291 saylı müraciəti əsassız olduğundan təmin olunmamalı, həmin dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 19/54 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 66 saylı Biləsuvar seçki dairəsi üzrə qeydə alınmış namizəd Əliyeva Lətifə Oruc qızının 19 fevral 2020-ci il tarixli 291 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 19/54 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/352

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 300 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 68 saylı Cəlilabad kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Mirişov Sakit Fərhad oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciətlə həmin seçki dairəsinin əksər seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 18/53 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd S.F.Mirişov müraciətində bildirmişdir ki, səsvermə günü 68 saylı Cəlilabad kənd seçki dairəsinin 34 seçki məntəqəsinin hamısında normal müşahidəyə icazə verilməmiş, bəzi vətəndaşlar tərəfindən başqasının əvəzinə səsvermədə iştirak edilmiş, lider namizədin xeyrinə səslər saxtalaşdırılmış, müşahidəçilərə səsvermənin nəticələrinə dair protokolun surəti təqdim olunmamış və digər qanun pozuntularına yol verilmişdir.

Namizədin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında səlahiyyətli nümayəndəsi ilə birlikdə iştirakı təmin edilmişdir.

Araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən fotoşəkillər və videomateriallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tədqiq edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar müşahidə edilməmişdir.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Baxış nəticəsində seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Dairə seçki komissiyasına ünvanlanan müraciətdə iddia edilən pozuntular əsasən bir sıra seçki məntəqələri üzrə səsvermənin nəticələrini şübhə altına aldığından, nəticələri mübahisələndirilən seçki məntəqələri üzrə dairə seçki komissiyası tərəfindən araşdırılması aparılan hallara dair müxtəlif maraqları təmsil edən çoxsaylı müşahidəçilərdən, məntəqə seçki komissiyasının üzvlərindən və qeydə alınmış namizəd Nuriyeva Xuraman Şakir qızından izahatlar alınmış, digər zəruri materiallar toplanılmışdır. Toplanan dəlillərlə seçki qanunvericiliyinin tələblərinin pozulmaması təsdiq edilmiş, müraciətdə göstərilənlər isə öz təsdiqini tapmadığından və əsassız olması müəyyən edildiyindən müraciətin təmin olunmaması barədə qərar çıxarılmışdır.

S.F.Mirişovun müraciətinin təmin edilməməsinə dair 68 saylı Cəlilabad kənd seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 18/53 saylı qərarı qiymətləndirilərkən müəyyən edildi ki, müraciətə dairə seçki komissiyası tərəfindən qanunla nəzərdə tutulan müddətdə və qaydada baxılmış, düzgün hüquqi nəticəyə gəlinmiş və müvafiq qərar ərizəçiyə vaxtında təqdim olunmuşdur.

Beləliklə, 68 saylı Cəlilabad kənd seçki dairəsinin dislokasiyasındakı bir sıra seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya nəticələrinin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd S.F.Mirişovun 19 fevral 2020-ci il tarixli 300 saylı müraciəti əsassız olduğundan təmin edilməməli, həmin dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 18/53 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 68 saylı Cəlilabad kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Mirişov Sakit Fərhad oğlunun 19 fevral 2020-ci il tarixli 300 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 18/53 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

## Qərar № 30/353

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 287 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 82 saylı Ağcabədi seçki dairəsi üzrə qeydə alınmış namizədlər Hacıbəyli Cavid İbrahim oğlu, Abdullayev Sənan Həsən oğlu, Əmrahlı Əkrəm Əhməd oğlu, İbrahimov Qasım Əhməd oğlu, Talıbov Hüseyn Əli oğlu və Məmmədov Fərid Murad oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 12/36 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğvini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi barədə qərar qəbul olunmasını xahiş etmişlər.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizədlər C.İ.Hacıbəyli və digərləri müraciətdə iddia etmişlər ki, səsvermə günü 82 saylı Ağcabədi seçki dairəsinin 1 - 46 saylı seçki məntəqələrində məntəqə seçki komissiyası üzvləri tərəfindən müşahidənin aparılması üçün normal şərait yaradılmamış, məntəqə seçki komissiyasının üzvləri tərəfindən müşahidə prosesinə maneçilik törədilmiş, səsvermə başlamazdan əvvəl seçki bülletenləri masanın üzərinə qoyulmamış, seçki hüququ olmayan şəxslər seçki məntəqəsinə daxil olmuş, seçki məntəqəsi üzrə adıseçici siyahılarında olmayan şəxslər səsvermədə iştirak etmiş və digər qanun pozuntularına yol verilmişdir.

Eyni zamanda qeydə alınmış namizədlər seçkiqabağı təşviqat dövründə həmin seçki dairəsi üzrə pozuntuların olmasını, lider namizədin görüşlərinin inzibati resurslardan istifadə edilməklə təşkil olunduğunu, digər namizədlərə seçicilərlə görüş üçün normal şərait yaradılmadığını, icra orqanları tərəfindən görüşlərə mane olunduğunu mübahisələndirmişlər.

Yuxarıda qeyd olunanlarla əlaqədar qeydə alınmış namizədlər qanunla nəzərdə tutulmuş müddətdə 82 saylı Ağcabədi seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayətləri araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda gostərilən qərarı ilə onların müraciətləri əsassız hesab edilərək təmin olunmamışdır.

Namizədlər C.İ.Hacıbəyli və digərlərinin müraciətinin səsvermə gününədək iddia edilən qanun pozuntuları hissəsi ilə bağlı qeyd edilməlidir ki, həmin pozuntular Seçki Məcəlləsi ilə müəyyən edilmiş şikayətvermə müddəti ötürülməklə mübahisələndirildiyindən onlar üzrə araşdırma aparılması istisna olunur.

82 saylı Ağcabədi seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, yuxarıda qeyd edilən seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları müəyyən edilmədiyindən qeydə alınmış namizədlərin müraciəti əsassız hesab edilərək təmin olunmamalıdır.

Araşdırma prosesində şikayətçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onların komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Araşdırmanın tamlığı, hərtərəfliliyi və obyektivliyi prinsipi əsas götürülərək səsvermə günü həmin seçki dairəsi ilə bağlı sosial şəbəkələrdə olan məlumatlar, seçki komissiyalarının seçkilərin yekununa dair protokol məlumatları və şikayətçilər tərəfindən araşdırmaya təqdim olunmuş sənədlər və videomateriallar, dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər, həmçinin həmin gün seçki dairəsinin seçki məntəqələrində quraşdırılmış veb-kameraların görüntüləri tədqiq edilmişdir.

Təqdim olunmuş 1 ədəd elektron məlumat daşıyıcısına baxış keçirilərkən müəyyən edilmişdir ki, bu yaddaş qurğusunda 82 saylı Ağcabədi seçki dairəsinin bəzi seçki məntəqələrindən, dairə seçki komissiyasının qeydə alınmış namizədlərin şikayətlərinə baxıldığı iclasından görüntülər və ayrı-ayrı qeydə alınmış namizədlərin müsahibələri qeydə alınmışdır. Araşdırma zamanı müxtəlif siyasi partiyaları təmsil edən müşahidəçilərdən və adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, səsvermə günü 3 saylı seçki məntəqəsi istisna olmaqla, mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun tərtib olunaraq maraqlı seçki subyektlərinə verilmişdir. Bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlsə də, 3 saylı seçki məntəqəsinə düzgün hüquqi qiymət verilməmişdir. Belə ki, sosial şəbəkələrdə göstərilən seçki dairəsi ilə əlaqədar yayımlanan görüntülərə və təqdim olunmuş videomateriallara baxış keçirilərkən 3 saylı seçki məntəqəsində səslərin hesablanması zamanı bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək qanun pozuntuları aşkar edilmişdir. Həmin seçki məntəqəsində quraşdırılmış Mərkəzi Seçki Komissiyasının veb-kamerasının qeydə aldığı görüntülərin tədqiqi nəticəsində baş verən qanun pozuntuları öz təsdiqini tapmışdır. Müəyyən edilmiş qanun pozuntuları seçki qanunvericiliyinin tələblərinə görə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hal kimi qiymətləndirildiyindən 3 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaradır.

Aparılmış araşdırma ilə belə nəticəyə gəlmək olar ki, 82 saylı Ağcabədi seçki dairəsinin 3 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Nəticələri etibarsız hesab edilməli olan seçki məntəqəsinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən azını təşkil edir. Həmin seçki məntəqələrində seçici siyahılarında olan seçicilərin sayı seçki dairəsi üzrə qeydə alımış seçicilərin ümumi sayının 1/4-dən azını təşkil edir.

Belə ki, səsvermənin nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı 1, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 37-dir.

Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;
- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Göstərilənlərə əsasən müraciətin qismən təmin edilməsi, seçki dairəsinin 3 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və dairə seçki komissiyasının qərarının həmin seçki məntəqəsinə aid hissədə ləğv edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 82 saylı Ağcabədi seçki dairəsi üzrə qeydə alınmış namizədlər Hacıbəyli Cavid İbrahim oğlu və digərlərinin 19 fevral 2020-ci il tarixli 287 saylı müraciəti qismən təmin edilsin, 3 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 12/36 saylı qərarı 3 saylı seçki məntəqəsinə aid hissədə ləğv edilsin, qərar digər hissədə dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 30/354**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 305 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə Vətəndaş və İnkişaf Partiyasının səlahiyyətli nümayəndəsi Əlyar Əliş oğlu Şirməmmədov 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 12/36 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğvini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müraciətdə səsvermə günü 17 saylı Yasamal üçüncü seçki dairəsinin 27 saylı seçki məntəqəsi istisna olmaqla, digər seçki məntəqələrində müşahidə aparılması üçün normal şəraitin yaradılmaması, məntəqə seçki komissiyasının üzvləri tərəfindən müşahidə prosesinə maneçilik törədilməsi, səsvermə başlamazdan əvvəl seçki bülletenlərinin masanın üzərinə qoyulmaması, səlahiyyəti olmayan şəxslərin seçki məntəqəsinə daxil olması, məntəqənin dislokasiyasına aid olmayan şəxslərin səsvermədə iştirak etməsi və digər qanun pozuntularına yol verildiyini iddia edərək bu pozuntuların araşdırılmasını, adları qeyd edilən məntəqələr üzrə səsvermənin nəticələrinin ləğvini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsini xahiş etmişdir. Müraciətə səsvermə günü müxtəlif seçki məntəqələrində tərtib edilməsi iddia edilən aktlar və bir ədəd elektron məlumat daşıyıcısı əlavə edilmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar səlahiyyətli nümayəndə Ə.Ə.Şirməmmədov qanunla nəzərdə tutulmuş müddətdə 17 saylı Yasamal üçüncü seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayəti araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda gostərilən qərarı ilə onun müraciəti əsassız hesab edilərək təmin olunmamışdır.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, müraciətdə qeyd edilən seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları müəyyən edilmədiyindən Ə.Ə.Şirməmmədovun müraciəti əsassız hesab edilərək təmin olunmamalıdır.

Araşdırma ilə əlaqədar səlahiyyətli nümayəndə Ə.Ə.Şirməmmədovla əlaqə saxlanılmış, araşdırmada və iclasda iştirak etmək və digər hüquqları ona izah edilmiş, araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə olan məlumatlar, məntəqə seçki komissiyalarının seçkilərin yekununa dair protokol məlumatları və şikayətçi tərəfindən araşdırmaya təqdim olunmuş sənədlər və videomateriallar, həmçinin dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər ətraflı tədqiq edilmişdir.

Təqdim olunmuş 1 ədəd elektron məlumat daşıyıcısına baxış keçirilərkən müəyyən edilmişdir ki, bu yaddaş qurğusunda 17 saylı Yasamal üçüncü seçki dairəsinin müxtəlif seçki məntəqələrindən görüntülər qeydə alınmışdır. Araşdırma zamanı digər namizədlərdən, müxtəlif siyasi partiyaları və namizədləri təmsil edən müşahidəçilərdən və adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən alınmış izahatlardan səsvermə günü göstərilən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntularının təsdiqini tapmaması, seçicilərin sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmələri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokollarının Seçki Məcəlləsinin tələblərinə uyğun tərtib olunaraq maraqlı seçki subyektlərinə verilməsi, bununla da dairə seçki komissiyasının düzgün nəticəyə gəlməsi müəyyən edilmişdir.

Araşdırma ilə həmçinin sosial şəbəkələrdə həmin seçki dairəsinin seçki məntəqələri ilə əlaqədar yayımlanan görüntülər və digər videomateriallar nəzərdən keçirilərkən mübahisələndirilən seçki məntəqələrində səsvermə prosesində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək qanun pozuntuları aşkar edilməmişdir. Buna görə də seçki qanunvericiliyinin tələblərinə görə həmin seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Aparılmış araşdırma ilə belə nəticəyə gəlmək olar ki, 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə səlahiyyətli nümayəndə Ə.Ə.Şirməmmədovun müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə Vətəndaş və İnkişaf Partiyasının səlahiyyətli nümayəndəsi Ə.Ə.Şirməmmədovun 19 fevral 2020-ci il tarixli 305 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

**Qərar № 30/357**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 301 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsi üzrə qeydə alınmış namizəd Hüseynov Murad Əli oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciəti ilə həmin seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 20/64 saylı qərarını mübahisələndirərək seçki dairəsinin əhatə etdiyi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsini və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd müraciətində səsvermə günü 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsinin bütün seçki məntəqələrində seçici fəallığının aşağı olmasını, seçici fəallığının süni şəkildə artırılmasını, müşahidəçilərə maneələrin olmasını, səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini bildirmiş, bəzi seçki məntəqələrində bülletenlərin topa halında qutuya salınmasını, adı seçici siyahısında olmayan şəxslərin səs verməsini, eyni şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılmasını, səsvermənin nəticələri haqqında protokolların verilməməsini, bir şəxsin bir neçə seçki məntəqəsində səs verdiyini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv olunmasını tələb etmişdir. Ərizəçi tərəfindən müraciətə 4 ədəd protokol nüsxəsi və aktlar əlavə olunmuşdur.

Namizədin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmək hüququnun olması nəzərinə çatdırılarkən o, səhhətində olan problemlərə görə araşdırmada və iclasda iştirak edə bilməyəcəyini bildirmişdir.

Araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar müşahidə edilməmişdir.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Təqdim edilən protokol nüsxələrinin müqayisəli araşdırılması nəticəsində seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən uyğunsuzluqlar aşkarlanmamışdır.

Dairə seçki komissiyasına ünvanlanan müraciətdə iddia edilən pozuntular əsasən bir sıra seçki məntəqələri üzrə səsvermənin nəticələrini şübhə altına aldığından, nəticələri mübahisələndirilən seçki məntəqələri üzrə dairə seçki komissiyası tərəfindən araşdırılan hallara dair müxtəlif maraqları təmsil edən çoxsaylı müşahidəçilərdən, məntəqə seçki komissiyasının üzvlərindən izahatlar alınmış, digər zəruri materiallar toplanılmışdır. Toplanan dəlillərlə seçki qanunvericiliyinin tələblərinin pozulmaması təsdiq edilmiş, müraciətdə göstərilən pozuntular öz təsdiqini tapmadığından, əsassız olması müəyyən edildiyindən müraciətin təmin edilməməsi barədə qərar çıxarılmışdır.

Ərizəçinin 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü müşahidə üçün şəraitin yaradılmaması, normal müşahidənin aparılmasının qeyri-mümkün olması, seçki məntəqəsinin ərazisində qeydiyyatda olmayan seçicilərin səs verməsi, eyni şəxslərin bir neçə dəfə səs verməsi, iki şəxsin bir kabinəyə daxil olması, bəzi seçki məntəqələrində seçki bülletenlərinin topa halında qutuya salınması, seçki məntəqələri üzrə seçici fəallığının süni şəkildə artırılması ilə bağlı iddiaları araşdırılarkən həmin halların heç bir əsasının olmadığı və təsdiqini tapmadığı müəyyən edildi.

Belə ki, mübahisələndirilən seçki məntəqələrində müşahidə aparmış digər müşahidəçilərin, məntəqə seçki komissiyası üzvlərinin izahatlarından, seçici siyahılarında edilmiş müvafiq qeydlərdən, digər zəruri materiallardan, eləcə də veb-kameraların quraşdırıldığı seçki məntəqələrində seçmə üsulu ilə görüntülərin izlənilməsinin nəticələrindən görünür ki, seçki günü seçki məntəqələrinin girişində seçicilərin sol əlinin baş barmaqlarının yoxlanılmasından başlayaraq bülletenin qutuya salınmasınadək bütün səsvermə prosesinin izlənilməsi ilə bağlı hər hansı bir maneə və ya problem olmamış, müşahidə sərbəst və açıq şəkildə həyata keçirilmiş, müşahidəçilərə real müşahidə üçün zəruri şərait yaradılmış, həmçinin seçicilərin fəal iştirakı, səs verərək öz iradələrini azad şəkildə ifadə etmələri, səsvermə başa çatdıqdan sonra seçki qanunvericiliyinin tələblərinə uyğun surətdə bülletenlərin sayılması, səslərin hesablanması, səsvermənin nəticələrinə dair protokolun tərtib olunaraq təsdiq olunmuş surətinin maraqlı şəxslərə verilməsi müşahidə olunmuşdur.

M.Ə.Hüseynovun müraciətinin təmin edilməməsinə dair 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 20/64 saylı qərarı qiymətləndirilərkən müəyyən edildi ki, müraciətə dairə seçki komissiyası tərəfindən qanunla nəzərdə tutulan müddətdə və qaydada baxılmış, düzgün hüquqi nəticəyə gəlinmiş və müvafiq qərar ərizəçiyə vaxtında təqdim olunmuşdur.

Beləliklə, 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsinin dislokasiyasında olan bir sıra seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd M.Ə.Hüseynovun 19 fevral 2020-ci il tarixli 301 saylı müraciəti əsassız olduğundan təmin edilməməli, həmin dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 20/64 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsi üzrə qeydə alınmış namizəd Hüseynov Murad Əli oğlunun 19 fevral 2020-ci il tarixli 301 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 20/64 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

**Qərar № 30/358**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 310 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 54 saylı Şabran - Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Hidayətzadə Rüstəm Rafiq oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyi iddiası ilə müraciət ünvanlamış və araşdırma aparılaraq müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş şikayətvermə müddətinin ötürülməsi ilə daxil olmuş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 54 saylı Şabran - Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Hidayətzadə Rüstəm Rafiq oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 310 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə daxil olduğundan müraciət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

**Qərar № 30/355**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 296 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 111 saylı Zaqatala - Balakən seçki dairəsi üzrə qeydə alınmış namizəd Zərqanayeva İradə Zumrad qızı 2020-ci il fevralın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyi iddiası ilə seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğvini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə təqdim olunmuş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarım-bəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 111 saylı Zaqatala - Balakən seçki dairəsi üzrə qeydə alınmış namizəd Zərqanayeva İradə Zumrad qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 296 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

**Qərar № 30/356**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 323 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə müşahidəçi olmuş Salmanova İradə Nurməmməd qızı 2020-ci il fevralın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 19 saylı Nərimanov birinci seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia edərək bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə müşahidəçi olmuş Salmanova İradə Nurməmməd qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 323 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

**Qərar № 30/359**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 292 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 54 saylı Şabran - Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Qasımova Elza Nuru qızı 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyi iddiası ilə müraciət ünvanlamış və araşdırma aparılaraq müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş şikayətvermə müddətinin ötürülməsi ilə daxil olmuş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 54 saylı Şabran - Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Qasımova Elza Nuru qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 292 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə daxil olduğundan müraciət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

**Qərar № 30/360**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 299 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 6 saylı Culfa - Babək seçki dairəsi üzrə qeydə alınmış namizəd Aslanov Mətləb Məhərrəm oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 18 fevral 2020-ci il tarixli 40/690 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd M.M.Aslanov müraciətində iddia etmişdir ki, səsvermə günü seçki dairəsinin bir sıra seçki məntəqələrində müşahidəçilərə müşahidə aparılmasına şərait yaradılmamış, səsvermədə iştirak edən seçicilərin sayının az olmasına baxmayaraq, məntəqə seçki komissiyaları tərəfindən bu say artırılmış, səsvermənin nəticələri haqqında protokol seçki məntəqəsində tərtib edilməmiş və digər qanun pozuntularına yol verilmişdir.

Eyni zamanda namizəd N.T.Qənbərov seçkilər elan edilən vaxtdan namizədliyin qeydə alınması üçün imza toplama mərhələsində, həmçinin namizədliyin qeydə alınması və seçkiqabağı təşviqat dövründə həmin seçki dairəsi üzrə pozuntuların olmasını, səsvermə günü isə seçki dairəsinin 1, 6, 7, 9, 10, 11, 12, 21, 22 və 26 saylı seçki məntəqələrində foto və video çəkilişin aparılmasına imkan yaradılmadığını, səslərin hesablanması zamanı qanun pozuntusuna yol verildiyini və səsvermənin nəticələri haqqında protokolun surətinin onun müşahidəçilərinə verilməməsini iddia etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd M.M.Aslanov 6 saylı Culfa - Babək seçki dairəsi dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda gostərilən müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyasından araşdırma materialları tələb edilərək digər sənədlərlə birlikdə araşdırılmışdır.

Namizəd M.M.Aslanovun müraciətinin səsvermə gününədək iddia edilən qanun pozuntuları hissəsi ilə bağlı qeyd edilməlidir ki, həmin pozuntular Seçki Məcəlləsi ilə müəyyən edilmiş şikayətvermə müddəti ötürülməklə mübahisələndirildiyindən onlar üzrə araşdırma aparılması istisna olunur.

Araşdırma ilə seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü baş verməsi iddia olunan qanun pozuntuları öz təsdiqini tapmamış və bu hal ayrı-ayrı seçki məntəqələri üzrə səslərin sayılmasının müşahidəsini həyata keçirmiş müxtəlif maraqları təmsil edən müşahidəçilərin, namizədlərin, məntəqədə seçki komissiyalarının sədrlərinin, katiblərinin və üzvlərinin verdikləri izahatlarla, həmçinin tərtib edilmiş aktlarla təsdiq olunmuşdur.

Həmçinin səsvermə günü seçki məntəqəsində foto və video çəkilişin aparılmasına imkan yaradılmaması ilə bağlı müraciətdə göstərilənlər həqiqəti əks etdirmir. Belə ki, səsvermə günü müvafiq komissiya tərəfindən foto və video çəkilişə heç bir qadağa qoyulmamışdır. Bu hal araşdırma materiallarına əlavə olunmuş 22 saylı seçki məntəqəsində səslərin hesablanması prosesini müşahidə etmiş namizəd M.M.Aslanovun müşahidəçisinin çəkilmiş fotosu ilə təsdiq olunur.

Daha sonra verilmiş izahatlar, aktlar və əlavə edilmiş digər sənədlərdən görünür ki, səsvermə günü seçki məntəqələrində müvafiq müşahidəçilər tərəfindən seçki qanunvericiliyinin tələblərinə əməl olunmaqla müşahidə aparılmış, Seçki Məcəlləsinin 41-ci maddəsi ilə müəyyən edilmiş müşahidənin aparılması prinsiplərinə əməl olunmuşdur.

Sosial şəbəkələrdə yayılan görüntülər nəzərdən keçirilərkən 6 saylı Culfa - Babək seçki dairəsi üzrə hər hansı bir qanun pozuntusuna yol verilməsi ilə bağlı görüntülər müəyyən olunmamışdır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Beləliklə, 6 saylı Culfa - Babək seçki dairəsinin bir sıra seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya nəticələrinin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hal müəyyən edilmədiyindən namizəd M.M.Aslanovun 18 fevral 2020-ci il tarixli 299 saylı müraciəti əsassız hesab edilərək təmin edilməməli, həmin dairə seçki komissiyasının 18 fevral 2020-ci il tarixli 40/690 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 6 saylı Culfa - Babək seçki dairəsi üzrə qeydə alınmış namizəd Aslanov Mətləb Məhərrəm oğlunun 19 fevral 2020-ci il tarixli 299 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 18 fevral 2020-ci il tarixli 40/690 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 30/361**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 344 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 77 saylı Astara seçki dairəsi üzrə qeydə alınmış namizəd Qənbərov İlqar Əvəz oğlu 2020-ci il fevralın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməlidir. Həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 77 saylı Astara seçki dairəsi üzrə qeydə alınmış namizəd Qənbərov İlqar Əvəz oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 fevral 2020-ci il tarixli 344 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

**Qərar № 30/362**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 289 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 14 saylı Xəzər seçki dairəsi üzrə qeydə alınmış namizəd Qafarov Abid Abdin oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 16/44 saylı qərarını mübahisələndirmiş, dairə seçki komissiyasının adıçəkilən qərarının ləğvini, seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

A.A.Qafarov müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası araşdırma apararkən onun təqdim etdiyi şikayət üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

A.A.Qafarovun müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər materialları əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd A.A.Qafarov 14 saylı Xəzər seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd A.A.Qafarovun müraciəti əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Göstərilənlərə əsasən müraciət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 14 saylı Xəzər seçki dairəsi üzrə qeydə alınmış namizəd Qafarov Abid Abdin oğlunun müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 16/44 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

**Qərar № 30/363**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 298 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Səlimov Kamal İlham oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək adıçəkilən seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyini mübahisələndirmiş və seçki məntəqələrində qanun pozuntularına yol verildiyi iddiası ilə müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olmasına dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməlidir, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Namizəd tərəfindən müvafiq şikayət 57 saylı Kürdəmir seçki dairəsi dairə seçki komissiyasına Seçki Məcəlləsi ilə müəyyən olunmuş qaydada və müddətdə verildiyinə baxmayaraq, komissiya qanunun tələbinə əməl etməyərək həmin şikayətə baxmamış və bununla da hərəkətsizlik etmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Səlimov Kamal İlham oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 298 saylı müraciəti baxılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Seçki Məcəlləsinin 112-1.6.7-ci maddəsinin tələbləri dairə seçki komissiyasının vəzifəli şəxslərinin diqqətinə çatdırılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.02.2020*

# Almaniyada Ümumavropa Qarabağ mitinqi keçirilib





Dünyanın 30-a yaxın ölkəsində fəaliyyət göstərən diaspor təşkilatlarının təşəbbüsü və Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə fevralın 22-də Almaniyanın Berlin şəhərindəki Brandenburq qapıları yaxınlığındakı Paris meydanında Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Ümumavropa Qarabağ mitinqi keçirilib.

AZƏRTAC xəbər verir ki, aksiyada Azərbaycan, Almaniya, Niderland, Macarıstan, Polşa, İspaniya, İtaliya, Belçika, İsveç, Latviya, Litva, Estoniya, Çexiya, Avstriya, İsveçrə, Norveç, Finlandiya, Fransa, Rumıniya, Xorvatiya, Böyük Britaniya, Yunanıstan, Moldova, Ukrayna, Gürcüstan, Türkiyə, ABŞ, Kanada və bir sıra başqa ölkələrdə yaşayan soydaşlarımız, eləcə də Azərbaycana dost münasibət bəsləyən xalqların diaspor təmsilçiləri iştirak ediblər.

Xocalı soyqırımının 28-ci ildönümü ərəfəsində keçirilən mitinqin iştirakçıları "Qarabağ Azərbaycandır!", "Biz terrora yox deyirik!", "Azərbaycan ədalət tələb edir!", "Xocalıya biganə qalma!", "Dinc və günahsızların qatillərinə ar olsun!", "Erməni yalanlarına dur de!", "İşğalı dayandırın!", "Qarabağ haqqımızdır!" kimi şüarlarla beynəlxalq təşkilatlara çağırış ediblər.

Aksiya iştirakçıları 28 il əvvəl ermənilərin Xocalıda törətdikləri soyqırımına beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsini, işğal olunmuş Azərbaycan torpaqlarının geri qaytarılması üçün Ermənistana təzyiq göstərilməsini, yurd-yuvalarından didərgin düşmüş azərbaycanlıların pozulmuş hüquqlarının bərpa edilməsini, münaqişə ilə bağlı qəbul olunmuş məlum beynəlxalq sənədlərə Ermənistanın riayət etməsini tələb ediblər.

Mitinq zamanı yerli sakinlərə, turistlərə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrini, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın məruz qaldığı maddi və mənəvi itkiləri əks etdirən broşürlər paylanılıb. Mitinqdə min nəfərdən çox soydaşımız iştirak edib. Ümumavropa Qarabağ mitinqinin sonunda yekun sənəd qəbul edilib və bir sıra beynəlxalq təşkilatlara ünvanlanıb.

# XX əsrin faciəsi - Xocalı soyqırımı




# İsraildə Xocalı qurbanlarının xatirəsi anılıb

İsraildə, Prezident meşəsində 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində törədilmiş, 613 dinc sakinin, o cümlədən qocaların, qadınların və uşaqların vəhşicəsinə qətlə yetirilməsi ilə nəticələnmiş Xocalı faciəsi qurbanlarının xatirəsinə "Xocalı 613" bağı salınıb.

"Aziz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının təşəbbüsü ilə yəhudilərin "Keren Kayemet le İsrael" (KKL) milli fondu tərəfindən 2016-cı ildə bu bağın salınması inanılmaz bir hadisə olub, çünki əvvəllər bu bağda heç vaxt yəhudi olmayanların xatirəsinə ağaclar əkilməyib.

"Aziz"in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, o vaxtdan hər il Xocalı soyqırımı günü ərəfəsində "Aziz" Assosiasiyası KKL, "Xocalıya ədalət" ("Justice for Khojaly") beynəlxalq kampaniyası və Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Xocalı 613" bağında mitinq təşkil edir. Əslən Azərbaycandan olanlar və İsrailin digər icmalarının nümayəndələri günahsız Xocalı qurbanlarının xatirəsini anmaq üçün bu mitinqə qatılırlar.

Bu il də Xocalı soyqırımı günü ərəfəsində "Xocalı 613" bağında xatirə mitinqi keçirilib. Yəhudilərin KKL milli fondunun Avrasiya bölməsinin başçısı İqal Yasinov xatirə mərasimini açaraq qonaqları salamlayıb. O, dost Azərbaycanın erməni millətçilərinin işğalçı siyasətinin qurbanı olmuş günahsız qurbanlarının xatirəsinə bağ salınmış Prezident meşəsində belə bir tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra mərasimin aparıcısı, "Aziz" Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Yeganə Salman Xocalıda faciəli hadisələrin tarixindən danışıb və mitinq iştirakçılarını xocalıların xatirəsini bir dəqiqəlik sükutla anmağa dəvət edib.

Bu faciəyə görə dərin təəssüf hissi keçirdiyini söyləyən Knessetin deputatı Mark İfraimov ümidvar olduğunu bildirib ki, Dağlıq Qarabağ münaqişəsi yaxın vaxtlarda öz ədalətli həllini tapacaq. "Xocalı faciəsinin 613 qurbanı mənə Tövratın 613 ehkamını xatırladır. Mən istərdim ki, 613 ehkam yəhudi xalqını İsrail torpağında birləşdirdiyi kimi, qoy 613 qurban da Azərbaycan xalqını ərazi bütövlüyü və tərəqqi yolunda birləşdirən rəmzə çevrilsin" , - deyə Mark İfraimov fikrini tamamlayıb.

Mitinqdə iştirak etmək üçün məxsusi olaraq Bakıdan gəlmiş Milli Məclisin deputatı Rauf Əliyev qeyd edib ki, o, 4 il əvvəl bu bağın salınması mərasimində iştirak edib və Xocalı qurbanlarının xatirəsinə belə həssas yanaşdıqlarına görə təşkilatçılara və tədbir iştirakçılarına təşəkkür edib. Rauf Əliyev əmin olduğunu bildirib ki, Azərbaycan hökumətinin məqsədyönlü siyasəti sayəsində Dağlıq Qarabağ münaqişəsi tezliklə həllini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Sonra Kiryat Byalik şəhəri merinin müavini Naxum Raçevski, Xolon şəhəri merinin müavini Mixail Sutovski, "Aziz" Assosiasiyasının gənclər cinahının nümayəndəsi Ayaz Əzizov və ictimai qurumların rəhbərləri çıxış ediblər.

"Aziz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının prezidenti Lev Spivak Azərbaycanın dərdinə şərik olduqlarına görə hamıya təşəkkür edərək məxsusi olaraq bu kədərli gün üçün çap edilmiş "Haray" toplusunu təqdim edib. Topluya tanınmış Azərbaycan yazıçısı Günel Anarqızının "Qarabağ hekayələri" və Azərbaycan mənşəli çex şairəsi Leyla Bəyimin "Qarabağ şikəstəsi" sonetlər çələngi daxil edilib.

Günel Anarqızı və Leyla Bəyim bu əsərlərin, onları bir topluda birləşdirmək ideyasının necə yarandığından danışaraq onlardan kiçik parçalar oxuyublar. Tədbir iştirakçılarının hər birinə müəlliflərin avtoqrafları olan "Haray" toplusu təqdim olunub.

Sonra XABAD-ın nümayəndəsi, ravvin Şaul David Burşteyn Xocalı qurbanlarının ruhuna dua oxuyub.

Tədbirin sonunda Azərbaycanın və İsrailin Dövlət himnləri səslənib.

# Qazaxıstanda bəşəriyyət tarixində törədilən beş soyqırımı qurbanları yad edilib

Qazaxıstan paytaxtındakı Avrasiya Milli Universitetində Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunan "Bir də heç zaman: Aşarşılık, Holokost, Kamboca, Xocalı, Ruanda" adlı beynəlxalq konfrans keçirilib. Tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Belarus, Çin, Türkmənistan və Özbəkistandan tələbə və müəllimlər iştirak ediblər.






AZƏRTAC xəbər verir ki, konfrans Azərbaycanın Qazaxıstandakı səfirliyinin təşkilatçılığı, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və Avrasiya Milli Universitetinin dəstəyi ilə baş tutub.

Tədbirdə çıxış edən Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov bildirib ki, konfransın keçirilməsində əsas məqsəd cəmiyyəti soyqırımlarının ağır nəticələri ilə tanış etməklə, bu cür cinayətlərin törədilməsinin qarşısını almağa çalışmaq və insanları sülhə çağırmaqdır.

Diplomat qeyd edib ki, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən Xocalı soyqırımı, eləcə də digər soyqırımı aktları insanların qəlbinə sağalmaz yara vurub. Ona görə də belə halların qarşısını almaq üçün tariximizi bilməli, eyni zamanda bizə yaxın olan xalqların tarixini öyrənməliyik. Müxtəlif ölkələrdə silahlı münaqişələrin baş verdiyi bir dövrdə tolerantlığın və multikulturalizmin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəməməliyik.

Avrasiya Milli Universitetinin prorektoru Akbota Joldasbekova ötən əsrin 30-cu illərində məqsədyönlü şəkildə Qazaxıstanda və Orta Asiyada milyonlarla insanın aclıqdan tələf edilməsinə yönəldilmiş Aşarşılık qətliamını da yad etdiyi üçün Azərbaycan səfirliyinə minnətdarlıq edib, Xocalı soyqırımının daha çox köməksiz qalan yaşlılar, qadın və uşaqları hədəf almasının çox ağrılı olduğunu vurğulayıb.

Digər iştirakçılar da soyqırımlarının xatırlanması, ədalətin bərpa olunması və sülhə çağırış təşəbbüsünü yüksək qiymətləndiriblər. Çıxışlardan sonra tələbələrin Xocalı soyqırımına və Azərbaycan-Qazaxıstan münasibətlərinə dair sualları cavablandırılıb.

Sonda qazaxıstanlı musiqiçilərin bəstələdiyi və Xocalı soyqırımına həsr olunan "Fevral ildırımı" adlı klip nümayiş olunub.

# *Karim İFRAK:* "Xocalıya ədalət!" kampaniyası beynəlxalq ictimaiyyəti məlumatlandırmaq baxımından çox önəmlidir"

Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı Parisdə keçirilmiş anım tədbirində iştirak etdim. XXI əsrin astanasında bu cür soyqırımı aktının törədilməsi qəbuledilməzdir.




Bir gecədə qəflətən mülki şəxslərə edilən hücum nəticəsində 613 insanın - qadın, qoca və uşaqların vəhşicəsinə qətlə yetirilməsi ilə bağlı eşitdiklərim mənə çox pis təsir etdi. Həmin qətliamdan 28 il keçməsinə baxmayaraq, qatillər, cəlladlar hələ də cəzalandırılmayıb. Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Ədalət tam bərqərar olmalı, Azərbaycan torpaqları geri qaytarılmalıdır.

Bu fikirləri Parisdəki Mədəniyyət Mərkəzində Xocalı soyqırımı ilə bağlı keçirilən tədbirdə iştirak edən Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin tədqiqatçısı Karim İfrak AZƏRTAC-a müsahibəsində deyib. Karim İfrak bildirib ki, "Xocalıya ədalət!" kampaniyası beynəlxalq ictimaiyyəti məlumatlandırmaq baxımından çox önəmlidir. Dünya birliyi ermənilər tərəfindən törədilmiş bu barbarlığı, Ermənistanın əsl üzünü görməlidir. Ermənistan heç bir təşkilata məhəl qoymur, münaqişənin sülh yolu ilə həlli istiqamətində heç bir addım atmır. "İnanırıq ki, sülhpərvər, tolerant və inklüziv Azərbaycan xalqı tezliklə torpaqlarını azad edəcək və ədalət öz yerini tutacaq", - deyə K.İfrak vurğulayıb.

# Həzi Aslanov -110

# General

Hər bir xalqın qəhrəmanlıq simvolları var. Bu il anadan olmasının 110-cu ildönümü tamamlanan general-mayor, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov da Azərbaycanın sarsılmaz əzmini, güclü iradəsini rəmzləşdirən şəxsiyyətlərdəndir. Belə şəxsiyyətlərin öz ömürləri ilə yaratdıqları nümunələr xalqın ruhunu hər zaman oyaq saxlayır. Cəmiyyətin vətənpərvərlik tərbiyəsində, xüsusilə gənc nəslin mənəvi-əxlaqi dəyərlər ruhunda yetişməsində müstəsna rol oynayır.



Xalqımızın tarixboyu yaratdığı şanlı qəhrəmanlıq səhifələrinin mühüm bir qismi İkinci Dünya müharibəsi dövrünə aiddir. Bəşəriyyətin yaddaşına ən dağıdıcı savaş kimi yazılmış bu müharibə zamanı faşizm əleyhinə mübarizədə, insanlığın qorxunc nasizm təhlükəsindən xilas edilməsində Azərbaycan övladlarının çox böyük xidmətləri olub. 1941-1945-ci illərdə altı yüz mindən artıq soydaşımız müharibəyə yollanaraq müxtəlif cəbhələrdə vuruşub. Onlardan 170 min nəfəri orden və medallarla təltif edilib, 130 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçib. General Həzi Aslanov da öz ömrü ilə böyük qəhrəmanlıq tarixi yaradan Azərbaycan övladlarından biridir. Mahir hərbi sərkərdə Volqadan Baltik dənizinədək çətin, ağır döyüşlərdə mərdliklə iştirak edib.

Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2019-cu il tarixli Sərəncamında deyilir: "Dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirmiş və hərb salnaməsində yeni parlaq səhifələr açmışdır. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir".

## Döyüş yolu

İkinci Dünya müharibəsi başlananda Həzi Aslanov Ukraynada - Lvov vilayətində xidmət edirdi. Onda hələ kapitan rütbəsində idi. 1939-cu ilin sonunda o, Sovet-Fin hərbi münaqişəsi ilə əlaqədar könüllü olaraq Kareliyaya gedir. Tankçılar Həzi Aslanovun rəhbərliyi ilə Mannerheym səddini aşır və digər döyüş əməliyyatlarında iştirak edirlər. Sovet qoşunlarının qələbəsi nəticəsində 1940-cı il martın 12-də SSRİ ilə Finlandiya arasında sülh müqaviləsi imzalanır. Həzi Aslanov isə əvvəlki vəzifəsinə - Zoloçev şəhərinə, 10-cu atıcı alayın avtonəqliyyat batalyonunun komandirliyinə qaytarılır. 1940-cı ilin noyabrında ona vaxtından əvvəl mayor rütbəsi verilir.

Hitler Almaniyası SSRİ-yə qarşı müharibə elan edəndə Həzi Aslanov öz tankçıları ilə düşmənin önünə ilk çıxanlardan olur. 1941-ci il iyunun 23-nə keçən gecə alman zirehli qoşunları ilə qeyri-bərabər döyüşdə Həzi Aslanov özünü son dərəcə bacarıqlı bir zabit kimi göstərir. O, döyüşçüləri ilə Donbas ətrafında düşmənin şiddətli hücümlarını düz beş ay dəf edir, hitlerçiləri ağır tələfata uğradır.

1941-ci ilin sonu, 1942-ci ilin əvvəllərində Rostov-Don altında, Moskva ətrafında, Tixvin və Leninqrad istiqamətlərində düşmən birləşmələrinə sarsıdıcı zərbələr vurur.

Moskva ətrafındakı vuruşmalarda qəhrəmanlığına görə Həzi Aslanov "Qırmızı Ulduz" ordeninə layiq görülür. Xarkov və Stalinqrad ətrafında gedən döyüşlərdə də onun başçılığı ilə 35-ci tank briqadası düşmənə ağır zərbələr endirir. Həzi Aslanovun tankçıları vuruşa-vuruşa 40 kilometrdən artıq yol gedərək Stalinqrad Salsk dəmir yolunu tutub almanları Stalinqrad qruplaşmasının əsas magistralından məhrum edirlər. Tanklar düşmənin xeyli canlı qüvvəsini və texnikasını sıradan çıxardır. Bu qəhrəmanlıq nümunəsi Kotelnikovo yaxınlığında gedən döyüşlərdə daha böyük şücaətlə davam etdirilir. Öz tankçıları ilə düşmənin 30 əks-hücumunu dəf edən, hitlerçilərin bir batalyon piyada qoşununu, 30 tankını, 50 avtomobilini sıradan çıxaran polkovnik-leytenant Həzi Aslanov bu döyüşdəki rəşadətinə görə 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülür. O, döyüş tapşırığını yüksək məharətlə yerinə yetirir. Alman feldmarşalı Manşteynin tank ordusunu tamamilə darmadağın edir.

Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı vermək haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanında yazılmışdır ki, cəbhə komandanlığının döyüş tapşırığını nümunəvi surətdə yerinə yetirdiyinə, bu işdə qəhrəmanlıq və şücaət göstərdiyinə, ona tabe olan hissələrə bacarıqla və mətanətlə komandanlıq etdiyinə görə, Həzi Əhəd oğlu Aslanova Sovet İttifaqı Qəhrəmanı, Aslanovun polkuna isə qvardiya adı verilir. Aslanovun polku Rostov, Taqanroq şəhərlərinin azad olunmasında və Kursk vuruşmasında fəal iştirak edir. 1944-cü ildə Aslanovun 35-ci qvardiya tank briqadası Belarusiya və Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşlarda xüsusilə fərqlənir.

## O, qələbələr üçün doğulmuşdu

Sərkərdəlik bacarığını görərək 1943-cü il dekabrın 17-də onu hərbi sahədə biliklərini daha da təkmilləşdirmək üçün Zirehli Tank Qoşunları Akademiyasına oxumağa göndərirlər. Həzi Aslanov birillik proqramı 3 aya başa vuraraq yenidən doğma 35-ci qvardiya tank briqadasına qayıdır. O, döyüş və qələbələr üçün doğulmuşdu. Ona görə də Akademiyada əlavə vaxt itirmək istəmirdi. 1944-cü il martın 13-də Həzi Aslanova tank qoşunları general-mayoru ali hərbi rütbəsi verilir.

1944-cü ildə Belarusiya və I Pribaltika cəbhəsinin qoşunları hücuma keçirlər. Həzi Aslanovun komandiri olduğu briqada da bu qoşunların tərkibində idi. Əvvəlcə Belarusiyanın iri şəhər və dəmir yolları düşməndən təmizlənir. O, briqadadakı əsgər və zabitləri ilə böyük qəhrəmanlıq, şücaət göstərərək iyunun 24-dən iyulun 13-dək düşmənə ağır zərbələr endirir. Bu döyüşdəki rəşadətinə görə 35-ci qvardiya tank briqadası "Qırmızı bayraq" ordeninə, general-mayor Həzi Aslanov isə "İkinci dərəcəli Suvorov ordeni"nə layiq görülür.

Həmin döyüşlə bağlı tarixçilərin araşdırmalarından məlum olur ki, 1944-cü il iyunun 28-də Həzi Aslanovun 35-ci tank briqadası sürətli hücumla Berezina çayını keçərkən düşmən onun qarşını ala bilir. Onda döyüş taktikasının mahir bilicisi olan Aslanov ağlasığmaz qərar qəbul edir: əsas qüvvələrin gəlməyini gözləmədən avtomatçılar batalyonu və bir qrup partizanla hücuma keçərək düşmən qarnizonunu sıradan çıxarır. Generalın əmri ilə suda batırılan bir neçə maşından körpü kimi istifadə edən döyüşçülər çayı keçib, uğurlu döyüşlə Pleşinitsa şəhərini hitlerçilərdən təmizləyirlər. Bununla da sovet ordusunun Berezina çayını bütün cəbhəboyu keçməsi üçün şərait yaradırlar. Sonra Həzi Aslanov qəfil zərbə ilə ilk olaraq Vileykanı azad edir. Bu hücum nəinki alman, elə sovet komandanlığı üçün də gözlənilməz olur. Belarusiya cəbhəsinin komandanı, marşal Vasilevski Stalinə Vileyka şəhərinin azad olunması barədə raport verərkən Həzi Aslanovun rəhbərliyini, şəxsi şücaətini xüsusi vurğulayır və 1944-cü il iyulun 3-də Belarusiya cəbhəsinin komandanı, ordu generalı İ.Çernyaxovski "Baqration" əməliyyatının uğurla başa çatması ilə əlaqədar 35-ci tank briqadasının komandiri Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilməsi üçün sənəd imzalayır. Əfsus ki, buna mane olan erməni səlahiyyət sahiblərinin bədxahlığı ucbatından H.Aslanov öz halal haqqını ala bilmir. Bunun üçün az qala yarım əsrə qədər - 47 il gözləmək lazım gəlir.

Bircə faktı yada salaq ki, təkcə 1944-cü ilin hücum döyüşləri ərəfəsində general Həzi Aslanov Ali Baş Komandanlıq tərəfindən 8 dəfə təşəkkür alır, iki dəfə "Qırmızı Ulduz", 3 dəfə "Qırmızı bayraq", "Aleksandr Nevski", "İkinci dərəcəli Suvorov Ordeni", "1-ci dərəcəli Vətən Müharibəsi Ordeni" və çoxlu sayda medallarla təltif olunur.

## Təsadüf, yoxsa sui-qəsd?

Azərbaycan xalqının zəngin hərb ənənələrini öz sərkərdəlik qüdrətində yaşadaraq şərəflə davam etdirən, Ali Baş Komandanlığın böyük rəğbətini qazanan 34 yaşlı gənc generalı müharibədən sonra bütün SSRİ miqyasında parlaq hərbi yüksəliş gözləyirdi. Əfsuslar olsun ki, müharibənin başa çatmasına lap az - təxminən üç ay qalmış amansız ölüm buna mane olur.

Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən general Həzi Aslanov 24 yanvar 1945-ci ildə Latviyanın Mitava şəhəri yaxınlığında mina partlayışından dünyasını dəyişir. Onun ölümü ətrafındakı müəmmalar indiyə qədər tam aydınlaşmayıb. 15 nəfərə yaxın yüksəkrütbəli zabitin müşayiəti ilə cəbhə xəttini yoxlayan zaman onun durduğu yerdə qəflətən ardıcıl olaraq partlayan minalar düşmən atəşinə bənzəmirdi. Çünki onların olduqları yer düşmənin atəş mövqeyindən xeyli uzaqda idi. Üstəlik, şahidlərin sözlərinə görə, generalın yarası ağır olsa da, ölümcül deyilmiş.

Amma o, yaralı vəziyyətdə səhra hospitalına yerləşdirildikdən sonrakı hadisələrin gedişi yenə də müəmmalara bürünür. Tədqiqatçı-jurnalist Musa Bağırovun sənədlər, arxiv materialları, şahidlərin söylədikləri hadisələr əsasında yazdığı "Sərkərdənin taleyi" adlı kitabında (Bakı, 1999) bunlar hərtərəfli əksini tapmışdır. Orada göstərilir ki, hadisənin şahidi olan 35-ci həkim-sanitar xidmətinin komandiri mayor Georgi Beqiaşvili Həzi Aslanovun sağ böyrək ətrafından ağır zədə aldığını söyləyir. Çoxlu qan itirən generala Beqiaşvili özü qan verir. General özünə gəlir. Hətta yanındakı insanlarla zarafatlar edir. "Vəziyyəti getdikcə yaxşılaşırdı... Qərara gəldik ki, onu bizdən cəmi 900 metr aralıda yerləşən səhra hospitalına göndərək. İki saat müddətində generalı səhra hospitalına çatdırdıq", - deyə Beqiaşvili öz xatirələrində qeyd edir.

Bundan sonra Həzi Aslanovun təcili olaraq Moskvaya aparılması əmri gəlir. General Beqiaşvilidən onunla birgə Moskvaya getməyi xahiş edir. "Mənə təcili olaraq hazırlaşmaq əmri verildi. Amma bir neçə dəqiqədən sonra bildirdilər ki, generalla mən getməyəcəyəm. Həzi Aslanovu müşayiət etmək üçün xüsusi həkim qrupu təyin edilib. Mən generalla sağollaşdım və briqadaya qayıtdım. 3 saatdan sonra dedilər ki, Həzi Aslanov keçinib".

Yaralandıqdan sonra general 23 saat müddətində sağ olub. Müəmmalı hadisələr, döyüş dostlarının, xüsusilə də Beqiaşvilinin fikrincə, general qətlə yetirilib. Özü də erməni əsilli komandan tərəfindən...

Elə onun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı fəxri adına təqdim olunması barədə sənədlərin məqsədli şəkildə it-bata salınması faktı, bu məsələdə haqq-ədalətin yalnız 47 ildən sonra öz yerini tutması da az mətləblərdən xəbər vermir.

## İtirilən sənədlər

Uzun illər bu məsələni araşdıran kinorejissor-ssenarist professor Musa Bağırov Həzi Aslanovla bağlı həmin sənədi üzə çıxarmaqdan ötrü xeyli əziyyətlərə qatlaşır. General haqqında ilk filmini o, 1967-ci ildə lentə alır. 1983-cü ildə isə Azərbaycan televiziyasının sifarişi ilə Həzi Aslanov barədə sənədli film hazırlayır. Filmə ictimai baxışda iştirak edən veteranların söhbətindən məlum olur ki, Həzi Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilibmiş. Amma generalın komandiri olduğu hərbi hissə Pribaltika cəbhəsinin komandanı İvan Xristoforoviç Baqramyanın tabeliyinə veriləndən sonra həmin təqdimat da izsiz-soraqsız yoxa çıxmışdı.

Musa Bağırov 1985-ci ildə SSRİ Müdafiə Nazirliyinin arxivinin yerləşdiyi Podolsk şəhərinə gedir. Sənədləri araşdıran zaman Həzi Aslanovun tankçılarının 23-30 iyun 1944-cü ildə apardıqları hərbi əməliyyatların qeydiyyatının olmadığını aşkarlayır. Tədqiqatçı arxivdə bununla bağlı araşdırma aparmaq istəsə də, ona rədd cavabı verilir və bildirilir ki, bu məlumatlarla tanış olmaq imkanları məhduddur.

O, Həzi Aslanovun döyüş dostları, böyük sərkərdələrlə görüşür. Uzun-uzadı söhbətlərdən, axtarışdan sonra M.Bağırov lazım olan sənədləri tapır. Məlum olur ki, sənəd diqqətdən kənarda qalsın deyə məqsədli şəkildə tamamilə ayrı yerdə saxlanılıb. Sənədin ora necə düşməsi bu günə qədər sirr olaraq qalır. 14 avqust 1944-cü il tarixli təltif sənədində Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilməsi göstərilir. Orada qeyd edilir: "23-30 iyun 1944-cü ildə Həzi Aslanovun rəhbərlik etdiyi 35-ci tank briqadası 580 yaşayış məntəqəsini azad etmiş, düşmənin 18 tank, 118 avtomaşınını məhv etmiş, alman ordusunun 580 zabit və əsgərini əsir götürmüşdür. Berezina çayını birinci keçərək Vileyka şəhərini azad etmişdir". Musa Bağırovun bu tapıntısından və SSRİ rəhbərliyinə müraciətindən sonra M.Qorbaçov və onun Şahnazaryan kimi daşnak xislətli əlaltıları sənədi hər nə qədər şübhə altına almağa çalışsalar da, buna nail ola bilməyiblər. 22 iyun 1991-ci ildə Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi barədə fərman imzalanır.

Musa Bağırov mükafatı da götürüb Bakıya qayıdır, amma Vətəndə də məyusluqla üzləşir. Həzi Aslanovun ikinci dəfə təltif olunduğu Sovet İttifaqı Qəhrəmanı adının mükafatını və sənədlərini Musa Bağırovdan uzun müddət rəsmi səviyyədə qəbul edəcək kimsə tapılmır. Kimsə bunun tarixi dəyərini, Azərbaycan xalqı üçün əhəmiyyətini dərk edəcək təfəkkürdə olmur. AXC-Müsavat iqtidarının səriştəsiz rəhbərləri isə Həzi Aslanovun sovetlər üçün vuruşduğunu deyərək "Qızıl Ulduz" ordenini və medalı qəbul etməkdən açıq şəkildə boyun qaçırırlar.

Musa Bağırov mükafatları iki il evdə saxlamalı olur. "Heydər Əliyev hakimiyyətə gələndən sonra bir müşavirə keçirilirdi. Mən də orada çıxış etdim. Sonda isə Prezidentə yaxınlaşıb dedim ki, Həzi Aslanovun həmin orden və medalı iki ildir məndədir, heç kim qəbul etmir. O isə "Nə danışırsan?! Haradadır!? Tez onları mənə gətir!",- dedi. Səhərisi gün saat on bir tamamda ordeni də, medalı da götürüb Prezident Administrasiyasına getdim. Heydər Əliyev çox mehribanlıqla məni qucaqladı. Ordeni-medalı məndən təhvil aldı (9 may 1994-cü il)", - deyə Musa Bağırov təxminən 20 illik zəhmətinin nəticəsini, Ulu Öndərin qədirbilənliyini belə xatırlayır.

Hazırda general Həzi Aslanovun ikinci "Qızıl Ulduz"u Azərbaycan Tarix Müzeyinin ən qiymətli eksponatlarından biri kimi qorunmaqdadır. Bakıdakı məzarı üzərində sərkərdənin abidəsi ucaldılıb. Hər il 9 May faşizm üzərində qələbə günü paytaxtımızda rəsmi səviyyədə xalqımızın bu igid oğlunun Dağüstü parkdakı məzarının ziyarətilə qeyd edilir.

General Həzi Aslanov Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəmanlarımızla yanaşı uyuyur. Vaxtilə Bakını daşnak-bolşevik işğalından azad etmiş Qafqaz İslam Ordusunun şəhid əsgərlərinin məzarları da onun son mənzilinin bir neçə addımlığındadır.

Şəhidlər xiyabanının yerləşdiyi bu ucalıqdan, bu müqəddəs ziyarətgahdan o məkanın Həzi Aslanov kimi əbədi sakinlərinin əbədiyyət ömrü başlanır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Minskdə Həzi Aslanovun 110 illiyi təntənəli şəkildə qeyd edilib

Azərbaycanın Belarusdakı səfirliyi Minskdə, Belarus Dövlət Böyük Vətən Müharibəsi Muzeyində Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi ilə bağlı təntənəli yığıncaq keçirib.





Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə yüksəksəviyyəli dövlət rəsmiləri, parlament üzvləri, Belarusda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, Belarus Ali Hərb Məktəbinin və Fövqəladə Hallar Nazirliyinin kursantları, yerli ictimaiyyətin nümayəndələri və diaspor təmsilçiləri iştirak ediblər.

Səfirliyin təşkilatçılığı və MDB İcraiyyə Komitəsinin dəstəyi ilə keçirilən tədbirin açılışında Azərbaycanın və Belarusun Dövlət himnləri səsləndirilib.

Tədbirin aparıcısı Həzi Aslanovun hərbi təhsil illəri və Böyük Vətən müharibəsi dövründə keçdiyi şərəfli döyüş yolu barədə məlumat verib.

Sonra çıxış edən səfir Lətif Qəndilov bu tədbirin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2019-cu il tarixində Həzi Aslanovun anadan olmasının 110 illiyinin dövlət səviyyəsində qeyd olunması barədə imzaladığı Sərəncama əsasən və böyük Qələbənin 75 illiyi çərçivəsində qeyd olunduğunu söyləyib. 2020-ci ildə keçirilməsi nəzərdə tutulan bu tədbirlərin Böyük Qələbənin 75 illiyi ilə üst-üstə düşməsi Azərbaycan dövlətinin, xalqının, onun rəhbərliyinin və şəxsən İlham Əliyevin bu tarixi günə nə qədər böyük önəm verməsinin göstərici olduğunu xüsusi olaraq tədbir iştirakçılarının diqqətinə çatdırıb. Azərbaycanda Böyük Vətən müharibəsinin xatirəsinə aid hər bir abidənin dövlət tərəfindən qorunduğunu və xalqımız tərəfindən ona qayğı göstərildiyini qeyd edib. "Biz Həzi Aslanov kimi qəhrəmanlarımızın timsalında gənc nəslimizi yetişdiririk", - deyən səfir Lətif Qəndilov 1941-ci ildə 3 milyon əhalisi olan Azərbaycandan Böyük Vətən müharibəsində iştirak etmək üçün 600 mindən çox azərbaycanlının cəbhəyə getdiyini, onlardan 300 mininin Böyük Qələbənin əldə olunması uğrunda canlarını fəda etdiklərini bildirib. "Bu isə döyüş bölgələrindən uzaq yerləşən ölkənin 10 nəfərindən birinin həlak olması deməkdir", - vurğulayan səfir Böyük Vətən müharibəsi illərində 130 azərbaycanlının Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü, onlardan 14-nün isə bilavasitə Belarusun azad olunmasında iştirak etdiyini qeyd edib. Belarusun azad edilməsi üçün, ümumilikdə, 20 mindən çox azərbaycanlının öz canlarından keçməsi barədə məlumat verib.

Səfir bildirib ki, ortaq Qələbənin əldə olunmasında Azərbaycan xalqının əvəzsiz xidmətləri olub. Xalqımız arxa cəbhədə də qəhrəmanlıq göstərərək Böyük Vətən müharibəsi zamanı cəbhənin tələb etdiyi yanacağın 80 faizini, sürtkü yağlarının 90 faizini, bundan əlavə, isti geyim, ərzaq və silah-sursatla təmin edib. Xalqımız həmçinin cəbhəyə bir tondan çox qızıl və 10 tondan çox gümüş göndərib. Səfir Azərbaycan Hərb Məktəbinin təmsilçiləri "Rus artilleriyasının atası" ləqəbini daşıyan general-leytenant Əliağa Şıxlınskinin və artilleriya generalı Səməd bəy Mehmandarovun qoyduğu ənənələrin Həzi Aslanov tərəfindən layiqincə davam etdirildiyini bildirib.

L.Qəndilov Həzi Aslanovun qəhrəmanlığını öz sözləri ilə yox, həmin dövrdə qəhrəmanımız barədə mətbuatda yayılmış çoxsaylı məqalələrdən yalnız birindən kiçik hissəni oxumaqla tədbir iştirakçılarının diqqətinə çatdırıb. Stalinqrad cəbhəsinin "Sın Oteçestvo" qəzetinin 13 yanvar 1943-cü il nömrəsində yazılmışdı: "Tank əməliyyatlarını piyada qoşunu və artilleriya ilə necə əlaqələndirmək lazım olduğunu polkovnik Həzi Aslanovun qvardiyasının hissələrindən öyrənmək lazımdır. Qoy, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun döyüş bacarığı bizim digər hissələr üçün də nümunə olsun".

L.Qəndilov "Baqration" əməliyyatının gedişində Həzi Aslanovun 35-ci qvardiya tank briqadasının başında Vileyka, Borisov, Smorqon və Minsk şəhərlərini azad etdiyini bildirib. Səfir Həzi Aslanovun Vileyka şəhərini alman faşistlərindən bir güllə atmadan azad etməsinin onun böyük və istedadlı sərkərdə olmasının bariz nümunəsi olduğunu söyləyib. L.Qəndilov yalnız 1944-cü ilin iyul ayında Həzi Aslanova Ali Baş Komandan İosif Stalin tərəfindən 8 dəfə təşəkkür elan edildiyini xatırladıb. İki dəfə Sovet İttifaqı Qəhrəmanımızın qorxmaz və heç bir çətinlik qarşısında geri dönməyən bir şəxs olduğunu, məhz bu xüsusiyyətlərə malik şəxsin 34 yaşında general-mayor rütbəsinə layiq görülməsinin mümkün olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən V.Quminski bildirib ki, keçmiş SSRİ-nin çoxsaylı xalqlarının birlikdə çətin sınaqlardan keçərək faşizm üzərində Böyük Qələbə qazanmaları ilə fəxr edirik. Bu tarixi fəxrimizin yaddaşlarda qorunub saxlanması bizim mənəvi borcumuzdur. Keçmiş SSRİ ölkələri arasında Böyük Vətən müharibəsi abidələrinin dağıdılmasının müşahidə olunduğunu və bunun qəbuledilməz olduğunu söyləyib.

Müdafiə nazirinin müavini Sergey Patapenko çıxış edərək SSRİ xalqlarının çiyin-çiyinə döyüşdüklərini və Azərbaycan oğul və qızlarının qəhrəmanlıqları ilə fərqləndiklərini bildirib. S.Patapenko ətraflı şəkildə Həzi Aslanovun döyüş və həyat yolu barədə məlumat verib. Həzi Aslanovun Stalinqradda mühasirəyə düşmüş Paulusun ordusuna köməyə gedən general Manşteynin qarşısını necə kəsdiyi haqqında və "Baqration" əməliyyatının həyata keçirilməsində göstərdiyi şücaət və qəhrəmanlıqlar barədə fəxrlə danışıb.

Belarus XİN-in xüsusi tapşırıqlar üzrə səfiri İqor Miqidoviç nazirliyin kollektivi adından və şəxsən öz adından Belarusun azad olunmasında iştirak etmiş Azərbaycanın qəhrəman oğlu Həzi Aslanovun 110 illiyinin keçirilməsinə görə təşəkkürlərini bildirib. O, Həzi Aslanovun ölməz qəhrəmanlıqları ilə Böyük Vətən müharibəsinin şərəfli səhifələrini yazdığını söyləyib. Həzi Aslanovun rəhbərliyi ilə təkcə Belarusun Borisov şəhərinin azad edilməsi əməliyyatında düşmənin 8 min nəfər şəxsi heyətinin məhv edildiyini xatırladıb: "Belarus xalqı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovu hörmətlə xatırlayır. Belarusun tarixinə qardaş Azərbaycandan olan qəhrəmanların adları əbədi şəkildə yazılmışdır". İ.Miqidoviç Belarusun Böyük Vətən müharibəsindən sonra bərpa olunmasında da Azərbaycan xalqının aktiv iştirak etdiyini xüsusi vurğulayıb və buna görə öz təşəkkürünü bildirib.

"Belaya Rus" ictimai birliyinin sədri Qennadi Davıdko öz çıxışında Azərbaycan xalqının qəhrəman oğlu Həzi Aslanovun ruhu qarşısında baş əymək üçün burada yığışdıqlarını söyləyib. O, səhnədən asılmış 14 Sovet İttifaqı Qəhrəmanının şəklinə işarə edərək bildirib: "Vətən onlardan həyatlarını istədi, onlar da tərəddüd etmədən verdilər". Azərbaycan qəhrəmanlarının Belarusun faşist işğalından azad olunmasında xüsusi rol oynadıqlarını bildirib. Belarusun müharibədən sonrakı dövrdə bərpa olunmasında azərbaycanlıların iştirakını bir daha xatırlayaraq, müasir dövrdə Azərbaycan liderinin Belarusa göstərdiyi yardımdan və dəstəkdən ətraflı danışıb. O, belə bir məqama toxunaraq söyləyib ki, dövlət başçılarımız arasında əsl səmimi insani dostluq var. Onun sözlərinə görə, Həzi Aslanovun ekranda təqdim olunan şəkillərinə baxanda qorxmaz insanın romantik gözlərini görürük, bu isə bütün azərbaycanlılara xas olan xüsusiyyətdir. Biz səhnədəki şəkillərdən bizə baxan azərbaycanlı qəhrəmanlara minnətdarıq, - deyə çıxışını bitirib.

Belarus Veteranlar Cəmiyyətinin sədri İvan Qordeyçik tədbirin keçirilməsinə görə səfirliyə təşəkkürünü bildirib. O qeyd edib ki, biz Azərbaycanla sıx şəkildə əməkdaşlıq edirik. Biz hamımız başa düşürük ki, Sovet İttifaqı Qəhrəmanı olmaq nə deməkdir. Əhalisinin üçdəbir hissəsi cəbhəyə gedən Azərbaycanın 130 Sovet İttifaqı qəhrəmanı vardır. Azərbaycan əhalisinin üçdəiki hissəsi isə cəbhəni zəruri məhsullarla, xüsusilə yanacaqla təmin edib. O, tədbir iştirakçılarının diqqətini alman faşistlərinin Bakının neftinə can atmalarının təsadüfi olmaması faktına cəlb edib. Arxa cəbhədə olan azərbaycanlıların cəbhə üçün və faşizm üzərində Qələbənin əldə olunması uğrunda əllərindən gələn hər şeyi etdiklərini söyləyib. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəhrəmanlığının onun döyüşçüləri üçün də nümunə olduğunu bildirib. Həzi Aslanovun qələbəyə inam ruhunu onlara da aşılaya bildiyini və onun döyüşçülərinin rəhbərlik tərəfindən çoxlu sayda orden və medallarla təltif edildiyini söyləyib. Sonuncu tank döyüşdən çıxana qədər Həzi Aslanovun hər zaman döyüşdə qaldığını qeyd edib və "Bax, Həzi Aslanov budur", - deyə vurğulayıb. Belarus xalqı azərbaycanlı Həzi Aslanov qarşısında baş əyir. İ.Qordeyçik Azərbaycan xalqının öz qəhrəmanlarına belə böyük hörmətlə yanaşdığına görə çox sevindiyini bildirib.

Səfir L.Qəndilov sonda bir daha çıxış edərək tədbirdə iştirak etdiklərinə görə hər kəsə öz təşəkkürünü bildirib və bu tədbirin yalnız Həzi Aslanovun deyil, Böyük Qələbənin əldə olunmasında həlak olanların və müharibə iştirakçılarının xatirəsinə də həsr edildiyini bildirib. Səfir qeyd edib ki, Həzi Aslanovun ruhu buradadır, o, 75 il bundan əvvəl heç vaxt inanmazdı ki, Vətəni Azərbaycanın 20 faiz torpaqları Ermənistan tərəfindən işğal olunacaq. Biz çox təəssüf edirik ki, bütün dünyanın gözü qarşısında bu işğal davam etməkdədir.

L.Qəndilov Azərbaycan qəhrəmanlarının xatirəsini əziz tutduqları üçün Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiklərinə görə Belarus xalqına və Prezident Aleksandr Lukaşenkoya təşəkkürlərini səsləndirib. Tədbirin davamında Həzi Aslanova həsr olunmuş sənədli və bədii filmlər nümayiş etdirilib. Tədbir iştirakçıları filmləri böyük maraqla izləyib və alqışlarla qarşılayıblar.

Tədbir iştirakçıları eyni zamanda Belarusun azad olunmasında iştirak etmiş Sovet İttifaqı Qəhrəmanı olan 14 azərbaycanlının şəkillərindən ibarət stendlə tanış olub və birgə fotoşəkil çəkdiriblər. Tədbirin sonunda səfirlik tərəfindən ziyafət təşkil olunub.

Tədbir Belarusun sb.by internet səhifəsində, "Belarus Seqodnya" qəzetində işıqlandırılıb, CTB və MIR televiziya kanallarında isə geniş süjetlər təqdim olunub.

Dünya olduğu kimi

# Sirli mağara, müqəddəs ziyarətgah



**"Allahdan üz çevirib bütlərə tapınan Dağ Yunis adlı hökmdarın zülmü ərşə dayanmışdı. İnsanlar arasında küfr hökm sürürdü. Buna dözə bilməyən vəzir Təmirxan tək Tanrıçılıq inancında olan bir neçə dostu ilə birgə zülmdən qurtulmaq üçün dağlara sığınmaq və başlarına çarə qılmaq istəyi ilə şəhərdən qaçırlar.**

Yolda hökmdarın çobanına rast gəlirlər. Vəziyyəti öyrənən çoban da zülmdən cana gəldiyini və ümidini bir olan Allaha bağladığını bildirərək onlara qoşulur. Bu vaxt çobanın iti də ardınca gəlir. İtin səs salıb onların yerini bildirəcəyindən qorxuya düşürlər. Çoban iti heç bir vasitə ilə qova bilmir, vurub ayağının birini sındırır. Bir azdan baxırlar ki, it yenə gəlir. Çoban onun ikinci ayağını sındırdıqda it insan kimi dil açıb zülmdən qaçdığını bildirir və ölür. Çoban onu mağaranın girəcəyindən bir az aralıda basdırır və üstünə çomağını taxır. Bundan sonra qaçıb, yaxınlıqdakı mağaraya sığınırlar. Onları dərin yuxu aparır. Oyandıqdan sonra acdıqlarını hiss edərək vəziyyəti öyrənmək və çörək almaq məqsədilə vəziri şəhərə göndərirlər. O, pul verib çörək almaq istəyərkən yaxalanır. Ondan soruşurlar ki, bu pullar hardandır? Xəzinə tapmısan? O isə inandırmağa çalışır ki, pullar kimsənin deyil, onları dünən şəhərdən çıxarkən özü ilə götürüb. Onu başa salırlar ki, bu pullar üç yüz il bundan əvvəl hökmdarlıq etmiş Dağ Yunisə aiddir.

Burada bir möcüzə olduğunu bilən vəzir başına gələnləri danışdıqdan sonra insanlar bununla maraqlanıb mağaraya doğru axışırlar. Vəzir yoldaşlarının bundan qorxuya düşəcəklərini söyləyərək onları xəbərdar etmək üçün qaçaraq mağaraya gəlir. Baş vermiş möcüzəni bildirir. Hər biri əl qaldırıb Allahdan qeyb olmalarını diləyir. Allah onların səsini eşidir, hər biri qayaya söykəndikləri kimi də yox olur. Mağaraya daxil olanların izlərini tapırlar və o zamandan bu yer ziyarətgaha çevrilir..."

Bura Naxçıvanda ən müqəddəs yerlərdən sayılan "Əshabi-Kəhf" Dini-Mədəni Abidə Kompleksidir. Şəhərdən təqribən 12 km məsafədədir. İlandağ və Nəhəcir dağı arasındakı bu təbii mağara Culfa rayonunda keçmiş Haçaparaq kəndi ərazisində yerləşir. Hazırda bura Bənəniyar kəndi adlanır. Girişi güneydən başlanan mağara quzey istiqamətdə, dağın içərisinə doğru uzanıb gedir. Mağara dəniz səviyyəsindən 1666 metr hündürlükdədir.

Adı ərəb dilindən götürülüb. "Əshab" yeniyetmə cavan oğlanlar, "kəhf" isə mağara, sığınacaq yeri deməkdir. Deməli, "Əshabi-Kəhf" yeniyetmə cavanların sığınacaq yeri - mağara mənasındadır.

"Əshabi-Kəhf" təkcə ziyarətgah deyil, həm də Azərbaycanın ən qədim tarixi abidələrindən biridir. Təsadüfi deyil ki, islamın müqəddəs kitabı "Qurani-Kərim"də də onun adı çəkilir. "Qurani-Kərim"də bu məsələ ilə birbaşa bağlı olan surə "Əl-Kəhf" surəsidir. Dünyanın bir sıra bölgələrində "Əshabi-Kəhf" adı ilə tanınan mağaralar vardır ki, onların da "Qurani-Kərim"də adı keçən mağara olduğu iddia edilir. Mağaranın yerləşdiyi yerin xüsusiyyətləri "Əl-Kəhf" surəsinin 17-ci ayəsində belə açıqlanır: "Baxsaydın, günəşin mağaranın sağ tərəfindən doğub meyil etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın genişcə bir yerində olduqlarını görərdin". Mağaranın içərisinə girəcəkdən baxarkən girişdən sağ və sol nəzərdə tutulur. Məhz Culfadakı "Əshabi-Kəhf"də içəri girən (baxan) adamın sağı gündoğana düşür. Bundan başqa, onların qeyb olduqları yerin girişi üzü qibləyə olub. Bu əlamətlər əsl "Əshabi-Kəhf"in Naxçıvan Muxtar Respublikasındakı mağara olduğunu sübut edir.

"Əshabi-Kəhf" mağarasının quruluşu, təbii coğrafi şəraiti buranın ilkin yaşayış məskənlərindən biri olmasını söyləməyə əsas verir. Mağarada qışın soyuğundan, yayın istisindən qorunmaq üçün hər cür şərait var. Mağaradakı təbii sığınaqlar ayrı-ayrı otaqları xatırladır. Buranın təbii girişi çox çətin keçilə bilən, sürüşkən qayadan ibarətdir ki, bu da mağaradakıları düşmənlərin və vəhşilərin hücumundan qoruyurmuş.

"Əshabi-Kəhf" neçə yüzilliklərdir müqəddəs ocaq sayılır. Hətta sovet hökumətinin qadağaları da insanları ona pənah aparmaqdan çəkindirməyib. El arasında deyirlər ki, "Əshabi-Kəhf"i 7 il ard-arda ziyarət etmək Kərbəla, hətta Həcc ziyarətinə bərabərdir. "Əshabi-Kəhf" ziyarətinin dəqiq vaxtı yoxdur, bura ilin istənilən fəslində getmək olar.

XX yüz illiyin 60-cı illərinə qədər ziyarətə əsasən at, ulaq, qatır, hətta dəvələrlə gediblər. Ziyarətə gedən bir neçə qohum ailə birləşib qəfilə təşkil edirdilər. Qəfiləyə daxil olanların hamısı zəvvar adlanırdı. Qəfiləyə yaşlı, dindar kişilərdən biri rəhbərlik edirdi. Hər qəfilədə ziyarətə getmək imkanı olmayan, qurban aparmayan müəyyən yaşlı adamlar olurdu. Yəni arzusu olub, imkanı olmayanlara da yardım edilirdi.

"Əshabi-Kəhf"ə çatmamış, yolun kənarında çoxlu qəbirlər var. Zəvvarlar ilk öncə həmin qəbirləri ziyarət edirdilər. Qəbirlərin burada nə vaxtdan və kimə məxsus olduqları məlum deyil. Aşağı hissədəki qəbiristanlıq isə vaxtilə burada mövcud olmuş Haçaparaq kəndinə aiddir.

Rəvayətlə bağlı olaraq, ilk ziyarət olunan yer mağaradan 100-120 metrə qədər aralı, yolun sol tərəfində çobanın itinin - Qitmirin basdırıldığı yerdir.

Mağarada müqəddəsləri ziyarət etməzdən və bir sıra ayinləri yerinə yetirməzdən əvvəl gətirilmiş qurban kəsilir. Qurban kəsilməmişdən öncə ona su verilməsinə, kəsilərkən qurban duası oxunmasına əməl olunur. Ziyarətgahın ətrafında natəmizlik olmasın deyə, buradan xeyli aralı, yolun sağ tərəfində qurban kəsmək üçün ayrıca yer duzəldilib.

Qurban kəsiləndən sonra mağarada müqəddəs yerləri ziyarət etməyə başlayırlar. İnsanların ilk rast gəldikləri möcüzə girişin başlanğıcındakı kiçik bulaqdır. Hər tərəf sərt qayalar, bu qayaların altından sızıb gələn bulaq sanki şəfa suyudur. Bu, qədim mağara sakinlərinin, sonrakı dövrlərdə zəvvarların min illər boyu istifadə etdikləri yeganə içməli sudur. Bulaq xalq arasında "Yeddi kimsənə" adlanan ziyarət yerinin aşağı tərəfindədir.

"Yeddi kimsənə" "Əshabi-Kəhf"in girişinin sol tərəfində qabağa doğru əyilmiş qayanın altındadır. Sanki sığınacaqdır. Rəvayətə əsasən, yeddi müqəddəs burada qayaya söykənərək qeyb olublar. Divarda dörd iz aydın görünür. Sanki insan divara söykənmiş, izi qalmışdır. Xalq arasındakı inama görə, bu, qeybə çəkilmiş yeddi nəfərin kürəklərinin izləridir.

Mağaranın içərisində "Yeddi kimsənə"dən sonra ziyarət edilən məqam Həzrəti Əli və onun atı Düldüllə bağlıdır. Rəvayətə görə, Həzrəti Əli bura ziyarətə gəlmiş, Düldül sol tərəfdəki qayadan sağdakı qayaya sıçramış və həmin qayada dal ayaqlarının izi çala kimi qalmışdır. İnsanlar niyyət edib yerdən təqribən 5-6 metrə qədər hündürlükdə olan həmin çalalara kiçik daşlar atırlar. Niyyəti hasil olanın daşı orda qalır. Bir qayda olaraq üç daş atılır.

Mağaranın daxilinə girdikcə ətrafdakı ağac və kollara parçalar bağlanır. Yuxarı tərəfdə, məscidə və "Cənnət bağı"na çıxan yolun solundakı qayada deşik var. Niyyəti olanlar deşikdən keçib həmin qayanın başına üç dəfə dolanırlar.

Məscidin qabağındakı "Qara daş"ın və "Damcıxana"nın ziyarəti əsas məqamlardan hesab edilir. Əvvəllər gətirilmiş nəzirlər qara daşın yanına və ya üstünə qoyulardı. Qara daşı müqəddəs hesab etməklə, onu öpür, daş yapışdırırlar.

"Damcıxana" məscidin yuxarı tərəfində, bir neçə metr hündürlükdə yerləşir. Açıq salon şəklində olan həmin yerdə tavandan su damır. Maraqlıdır ki, ilin yağışlı və quraq keçməsindən asılı olmayaraq, burada damcı kəsilmir. Hər hansı arzusu olan niyyət edib oturur. Damcının başa və ya çiyinə düşməsi niyyətin tez hasil olacağı, aşağı ətraflara, bədənin hər hansı bir yerinə düşməsi isə nisbətən gec hasil olacağı kimi yozulur. Damcı düşməsə, deməli, niyyət qəbul olmur.

Ziyarətgahda ən uca, yüksək məqam "Cənnət bağı" adlanan yerdir. Əvvəllər bura çıxmaq çox çətin idi. İndi isə dəmir pilləkənlər bu işi asanlaşdırıb. Silindrik formalı, hər tərəfdən yüksək qayalarla əhatə olunan bu məqam duaların qəbul olunduğu yer sayılır. Burada gündoğana doğru qayaların arası ilə dar keçid qalxır. Keçidin baş tərəfində, sıldırım qayada bir dağdağan ağacı bitib. Həmin ağaca dilək üçün parçalar bağlanılır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tapşırığı və himayəsi ilə 1998-ci ildə burada abadlıq-bərpa işləri aparılıb. Ziyarətgahın girişində bu haqda məlumat verən kitabə qoyulub. Kitabədə deyilir: "Əshabi-Kəhf ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür".

Son illərdə "Əshabi-Kəhf" ziyarətgahının ərazisində yenidənqurma, bərpa və abadlıq işləri aparılıb. Zəvvarlar üçün yaxşı şərait yaradılıb, 13 km məsafədə rahat yol salınıb, yolboyu yaşıllaşdırma işləri aparılıb, məscid tikilib, köşklər memarlıq baxımından fərqlənən tikililərlə əvəzlənib. Ziyarətgahın ərazisində "Qonaq Evi", "Bələdçi otağı" və hədiyyələr mağazası da fəaliyyət göstərir.

Bu gün "Əshabi-Kəhf" Dini-Mədəni Abidə Kompleksi Azərbaycanda tanınmış dini turizm obyektidir. İlin hansı dövründə olursan ol, burada əcnəbi turistlərə rast gəlmək mümkündür. Azərbaycanın bölgələrindən və müxtəlif müsəlman ölkələrindən bu dini ocağa gələn zəvvarların sayı ildən-ilə artır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Bilirsinizmi...



- Uşaqlar diz qapağı olmadan dünyaya gəlirlər;
- dünyada piylənmədən əziyyət çəkən insanların üçdə biri inkişaf etmiş ölkələrdə yaşayır;
- küləkli havada arı sancma ehtimalı isti havadan daha çoxdur;
- mavi gözlü insanlar digərlərinə nisbətən ağrıya daha həssasdırlar;
- hazırda Yer kürəsinin ətrafında 22 min peyk dövr etməkdədir. Bunların sadəcə 5 faizi işləyir. 8 faizinin yanacağı bitib, 87 faizi isə xarab olub, çalışmır;
- fillər bellərindəki dəri qırışıqlıqlarını ağcaqanadları öldürmək üçün istifadə edirlər;
- insanın burnu və qulaqları ömrü boyu böyüdüyü halda, gözləri heç vaxt böyümür;
- bir sutkada 24 saat yoxdur. Doğrusu, 23 saat 56 dəqiqə 4 saniyədir;
- qədim Misirdə milçək öldürmək üçün zürafə quyruğundan istifadə edilirdi.

# Uçan taksilərin idarəetmə sistemi test edilir

**ABŞ Kosmik Agentliyinə (NASA) məxsus "Ames Research Center" tədqiqat mərkəzi "Uber" taksi servisi ilə birgə sərnişin hava nəqliyyatı monitorinq sisteminin sınaqları üzrə layihənin icrasına başlayıb. Proqramın məqsədi şəhər şəraitində aerotaksi vasitəsilə hava daşımalarının təşkilidir.**

"Urban Air Mobility" (UAM) adlanan monitorinq sistemi müxtəlif yaşayış məntəqələrində uçan nəqliyyatın idarəetməsini həyata keçirəcək.



Tərtibatçıların sözlərinə görə, sistem kiçik hava gəmilərinə uçuş zamanı problemləri, o cümlədən toqquşma imkanını aradan qaldırmağa kömək edəcək. Birgə testlər zamanı hər iki şirkətin mütəxəssisləri yeni infrastrukturun yaradılması üçün lazımi informasiyanı müəyyənləşdirməyi planlaşdırırlar.

Bildirilir ki, söhbət təkcə uçan sərnişin nəqliyyatından deyil, həm də çatdırılma xidmətləri dronlarından gedir. Hazırda havaya tam işlək avianəqliyyatın qaldırılması nəzərdə tutulmur - ilkin testlər zamanı "NASA" və "Uber" kompüter sistemləri aşağı yüksəkliklərdə uçuşların müxtəlif ssenarisinin modelləşdirilməsi üçün birləşdiriləcək. Yaxın aylarda agentlik birgə işə hava daşımaları sahəsində fəaliyyət göstərən digər tərəfdaşları da cəlb etməyə hazırlaşır.

# Sağlıq olsun

# Zərərli piy

## Həkim məsləhəti



**Çox zaman xolesterolu (xolestirin) təhlükəli, zərərli maddə kimi təsvir edirlər. Mütəxəssislər isə bildirirlər ki, bu, yanlış fikirdir və xolesterol orqanizmdə hormonların, D vitamininin, həzm fermentlərinin sintezi üçün lazım olan maddədir.**

Endokrinoloq Günay Əzimova məlumat verir ki, xolesterol əsasən qaraciyərdə sintez olunan piyə oxşar maddədir (lipid) və orqanizmdə bir çox həyati proseslərdə iştirak edir. Yağ və yağabənzər maddələr sinfində yer alan xolesterol hüceyrə zarının keçiriciliyində, hormonların sintez olunmasında, öd əmələ gəlməsində əvəzedilməz maddədir.Xolesterol lipoproteinlər vasitəsilə bədəndə daşınır. Bunların 2 əsas tipi var: yüksək sıxlıqlı (HDL) və aşağı sıxlıqlı (LDL). Orqanizmdə hər iki növə müəyyən miqdarda ehtiyac duyulur. LDL xolesterolun miqdarının artması ürəyə gedən damarlarda yağ əlavələrinin toplanmasına gətirib çıxarır. Ona görə də LDL "ziyanlı xolesterol" adlanır. HDL xolesterolu isə xeyirli xolesteroldur, çünki vəzifəsi damarlarda toplanan pis xolesterolu alıb qaraciyərə daşımaqdır. Bu xolesterolun miqdarı azalanda isə orqanizm yağ toplantılarından təmizlənə bilmir. Nəticədə ürək xəstəlikləri və infarkt riski artır. Araşdırmalar sübuta yetirib ki, qanda xolesterol artanda ölüm riski də artır".

G.Əzimova söyləyir ki, xolesterolun qida ilə bədənə daxil olması şərt deyil, çünki orqanizm lazım olan xolesterolu özü sintez edə bilir: "Xolesterolla zəngin olduğu üçün yumurta, ət, qaraciyər, "fast food", pendir və s. qidalar qandakı xolesterolu yüksəldir. Qanda həddindən artıq miqdarda olan xolesterol yavaş-yavaş damar divarında yığılır və infarkt, iflic, damar keçilməzliyi, böyrək çatışmazlığı kimi xəstəliklərin əmələ gəlmə riskini artırır. Xolesterol qanda həll olmadığı üçün zülallara birləşərək qanla bir yerdən başqa bir yerə daşınır. Qanda yüksək LDL səviyyəsi ilə müxtəlif xəstəliklər arasında əlaqə tapılıb. Damarları daraldan, damar sərtliyinə səbəb olan, yuxarıda adı keçən xəstəlikləri də törədən məhz odur. Qan analizlərində yaxşı və pis xolesterol səviyyəsini müəyyən etmək mümkündür.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bilmək vacibdir

**Tibbi maskalardan düzgün istifadə edirikmi?**

Çində yayılmış dəhşətli koronavirusdan, o cümlədən kəskin respirator virus infeksiyalarından qorunmaq üçün insanlar müxtəlif üsullardan istifadə edirlər. Bunlardan biri də qoruyucu maskalardır. Mütəxəssislər isə bu maskalardan düzgün istifadə edilmədikdə onun heç bir qoruyucu təsirinin olmadığını bildirirlər.

1. Maska ağızı və burunu tamamilə bağlayacaq və üzlə maska arasında boşluq qalmayacaq formada taxılmalıdır.

2. Maska taxılı ikən ona toxunmaqdan qaçılmalı, istifadə edilmiş bir maskaya əl vurduqdan sonra əllər mütləq sabunla yuyulmalıdır. Su olmayan yerlərdə isə spirtli dezinfeksiyaedici məhsullardan istifadə etmək lazımdır.

3. Parça və ya kağızdan hazırlanmış birdəfəlik maskalar insanı yalnız iki-üç saat ərzində virusların nüfuzundan qoruya bilər. Bu müddətdən sonra o təzəsi ilə əvəzlənməlidir.

4. Maska islandığı, ya da nəmləndiyi təqdirdə də yenisi və qurusu ilə dəyişdirilməlidir.

5. Birdəfəlik maskalardan istifadə etdikdən dərhal sonra o, zibil qabına atılmalıdır, yəni təkrar istifadə yolverilməzdir.

6. Maskanı çıxardıqdan sonra üz və əllər sabunla yuyulmalıdır.

7. Virus infeksiyalarından qorunmaq üçün insanların kütləvi olduğu yerlərdə, ictimai nəqliyyatda, metroda və s. maska taxmaq lazımdır.

## Tibbi araşdırma

### Xərçəng xolesterolu da "yeyir"

**ABŞ alimləri aşkar ediblər ki, orqanizmdə xolesterolun aşağı səviyyədə olması xərçəng xəstəliklərinin riskini xeyli artırır.**

Sağlam və onkoloji xəstəliyi olan 600-dən çox insanın iştirak etdiyi araşdırma zamanı analizlər göstərib ki, xərçəng xəstəliyindən əziyyət çəkən insanların əksəriyyətində xolesterolun səviyyəsi normadan aşağıdır. Onların sözlərinə görə, xolesterolun orqanizmdə normada olmağı insan sağlamlığına fikirləşdiyimizdən daha böyük təsir edir, o cümlədən xərçəng riskini azaldır.

## Düzgün qidalanma:

### Xolesterolu necə stabilləşdirməli?

**Xolesterolu aşağı salmaq üçün bu qidalar sizə kömək edər:**



**İspanaq**
İspanağın tərkibində olan lutein piqmenti xolesterol və trigliseridləri azaldır. İspanağın tərkibində, eyni zamanda, E vitamini də var və bu vitamin antioksidant sayılır;

**Qarağat**
Qarağat damarların tıxanmasına səbəb olan xolesterolun miqdarını azaldır.

**Qara şokolad**
Qara şokoladın tərkibində kakao polifenolları çoxdur. Kakao polifenolu müsbət xolesterolun miqdarını artırır. Şokoladın tərkibində olan yağ turşuları mənfi xolesterol olan LDL-in molekullarının strukturunu dəyişərək ziyanının azalmasına səbəb olur.

**Alma, üzüm, çiyələk**
Bu meyvələrin tərkibində mənfi xolesterolun miqdarını azaldan pektin maddəsi var.

**Avokado**
Avokado zərərli xolesterolun miqdarını azaldır, sağlam xolesterolun miqdarını isə artırır və tərkibində ürəyə faydalı olan doymamış yağ turşuları var. Avokadonun tərkibində yağ miqdarı bir az çox olduğu üçün həddən artıq qəbul etmək məsləhət görülmür.

**Yulaf**
Yulafın tərkibi liflə zəngindir. Gündə bir kasa yulafı səhər yeməyində qəbul etmək xolesterolu stabilləşdirir.

**Yağlı balıqlar**
Həftədə 2-3 dəfə yağlı balıq yemək zərərli xolesterolu azaldır. Aparılan tədqiqatlara görə, doymuş yağları omeqa-3 ilə dəyişdirmək müsbət xolesterolu 4 faiz artırır.

## Sağlam həyat:

### Həm gözəllik, həm də təmiz hava



**Gözəlliyi ilə insanı heyran edən ev bitkiləri, həm dekorativ bəzəkdir, həm də evin havasını təmizləyir. Bu bitkilər otağı çirkləndirən maddələrin konsentrasiyasını azaldır və hətta benzol, formaldeqid, toluol və ksilol kimi zərəli birləşmələrdən təmizləyə bilir. Ev bitkiləri, həmçinin havada olan mikrobların sayını azaltma və rütubəti artırma gücünə malikdir. Havanı təmizləməsi ilə yanaşı, baş ağrıları və sinir pozuqluğunu da aradan qaldırır.**

**Fikus**
Bu bitki, 1 saat ərzində 10 mq formaldeqidi udmaq gücünə malikdir. Bununla bərabər o, energetik balansa təsir göstərir, immun sisteminin terapevti rolunu oynayaraq insanı sakitləşdirir.

**Aloe**
Aloe, havanı formaldeqidlərdən təmizləyib, onda olan sadə mikrobların sayını azaldır. Gecə oksigen ifraz edib, karbon qazını udur. Aloe olan evdə insanlar az xəstələnir, xəstələndikdə isə tez sağalırlar.

**Spartfilium**
Gözəl ağ gülləri olan bitki havanı zərərli birləşmələrdən, formaldeqidlərdən, karbon qazından, benzol və ksiloldan təmizləyir. Mikroorqanizmlərin sayını azaldır və ən əsası isə kif göbələyi ilə aktiv mübarizə aparır.

**Xlorofitum**
Xlorofitum, havanı zərərli qatışıqlardan təmizləyir və formaldeqidləri udur. Həmçinin mikrobları öldürmə effektinə malikdir. Mütəxəssislər müəyyən ediblər ki, bu bitki 24 saat ərzində havanı mikroorqanizmlərdən tamamilə təmizləyir. Dibçəyə aktivləşdirilmiş kömür əlavə etdikdə isə təmizləyici xüsusiyyəti daha da artır.

**Drasena**
Drasena sintetik örtük olan linoleum və DSP-dən havaya ifraz olunan, benzol, amiak, formaldeqid, toluol, ksilol və digər zərərli birləşmələrin 70 faizini təmizləmə gücünə malikdir. O, zərərli birləşmələri emal edir və mikrobların yarısını məhv edir. Bağırsaq xəstəliklərinin ağırlaşmasının qabağını alır, yaraların və ümumiyyətlə, dəri xəstəliklərinin sağalmasına kömək edir. İnsan hiss etmədən bu bitki sümük-əzələ sistemini bərkidir. Həmçinin dişlərə də xoş təsir edir.

**Monstera**
Monstera havanın rütubətini artırır, harmoniya və sakitlik bəxş edib, nasazlıq zamanı yuxusuzluqdan qoruyur.

## Şəfalı bitkilər

### Saplağı özündən faydalı

**Zəngin tərkibli kərəviz bir çox xəstəliklərə qarşı ən yaxşı müdafiə vasitələrindəndir. Qandakı stress hormonunun miqdarını aşağı salaraq sinir sisteminə müsbət təsir göstərir.**



K ilə birlikdə yüksək miqdarda A vitamini, fosfor və kalium ehtiva edir. Bundan başqa, kərəvizin tərkibində az miqdarda B və C vitamini və digər minerallar da var. Kərəvizin kökü və saplağı yüksək antioksidant təsirə malik olduğu üçün xərçəng hüceyrələrinin çoxalmasının qarşısını alır. İltihab önləyici olan kərəviz, həm də detoks təsiri ilə tanınır.

Lif baxımından zəngin olan kərəviz həzm sisteminin fəaliyyətini yaxşılaşdırır. Bunun üçün 1 ədəd kərəviz sapını qatığa, salatlara və ya yeməklərə qataraq qəbul etmək çox faydalıdır. Bundan başqa, kərəviz sapı təzyiqi aşağı salmağa yardım edir.

Artıq çəki problemi olanlar üçün də kərəviz ideal tərəvəzlərdən biri sayılır. Aşağı kalorili bitki olduğu üçün arıqlamaq istəyənlər qidalanma rasionuna kərəviz əlavə etsələr, müsbət nəticəyə nail ola bilərlər. Belə ki, 100 qram kərəviz yedikdə 16 kalori qəbul edilmiş olur. Ancaq həmin 100 qram kərəvizi həzm etmək üçün orqanizmdən daha çox enerji tələb olunur ki, bu prosesdə insan daha çox kalori sərf edir.






# DÜNYA






## Beynəlxalq siyasət



# İDLİB - Suriyada yeni gərginlik ocağı

### Bu dəfə Rusiya ilə Türkiyə üz-üzə gəlib

Suriyanın İdlib vilayətində cərəyan edən dramatik hadisələr hazırda dünya ictimaiyyətinin diqqət mərkəzindədir. 2017-ci ilin mayında Qazaxıstanın paytaxtı Astanada (indiki Nur-Sultan şəhəri) Rusiya, Türkiyə və İranın təşəbbüsü ilə Suriyanın dörd bölgəsində, o cümlədən İdlib vilayətində gərginliyin azaldılması zonaları yaradılmışdır.

O vaxtdan bəri Suriya hökumət qoşunları müttəfiqlərinin köməyi ilə dörd zonadan üçünü ələ keçirmişdir. İndi isə İdlib gərginliyin azaldılması zonası silahlı qarşıdurma bölgəsinə çevrilmişdir: Suriya Prezidenti Bəşşar Əsədin qoşunları və onun müttəfiqləri Rusiya hərbi aviasiyasının dəstəyi ilə hücum əməliyyatlarını davam etdirir, nəticədə ərazidə yaşayan dinc əhali ev-eşiyini tərk etmək məcburiyyətində qalır. Eyni zamanda, Suriya silahlı müxalifəti və gərginliyin azaldılması zonasında yerləşən Türkiyə hərbi kontingenti tələfat verir.

İdlibdə vəziyyət cari ayın əvvəllərindən bəri gərginləşməkdə davam edir. Fevralın 2-3-də Bəşşar Əsəd ordusunun hücumu nəticəsində 7 türkiyəli hərbçi və Türkiyə ordusunun bir mülki qulluqçusu həlak olmuşdur. Fevralın 10-da 5 türkiyəli əsgər həlak olmuş, 5-i yaralanmışdır. Fevralın 20-də daha 2 türkiyəli hərbçi həlak olmuşdur. Türkiyə hərbi komandanlığı hücum edən tərəfin mövqelərinə zərbə endirib onu canlı qüvvə və texnika baxımından ağır tələfata uğratmışdır.

Gərginliyin azaldılması zonasında vəziyyəti nizama salmaq üçün Türkiyə və Rusiya rəsmiləri əvvəlcə Ankarada, sonra isə Moskvada danışıqlar aparmışlar, amma ortaq məxrəcə gəlmək mümkün olmamışdır. Məsələ burasındadır ki, tərəflər İdlib problemi ilə əlaqədar əldə olunmuş Astana və 2018-ci il tarixli Soçi sazişini fərqli şəkildə izah edirlər. Moskvanın fikrincə, Suriyanın bu vilayətində vəziyyəti tənzimləmək üçün Soçi sazişindən çıxış etmək lazımdır. Sazişin rəsmi mətni dərc olunmasa da, Kreml hesab edir ki, sənədin əsas məğzi İdlibdə silahlı müxalifətlə terrorçu qruplaşmaları bir-birindən ayırmaqdır. Ona görə də Moskva İdlibdə gərginliyin azaldılmasından çox vilayətdəki terrorçu qrupları məhv etməyi və burada Suriyanın suverenliyini bərpa etməyi aktual məsələ kimi vurğulayır. Rusiya rəsmiləri təkrar-təkrar nəzərə çatdırırlar ki, Suriya qoşunları İdlibdə, öz ərazisində terrorizmlə mübarizə aparır. Onların fikrincə, Suriya ərazisində yalnız Dəməşqin dəvət etdiyi qoşunlar yerləşə bilər, heç kim Bəşşar Əsədə terrorçularla mübarizə aparmağı, öz ərazisini silahlı ekstremistlərdən təmizləməyi qadağan edə bilməz.

Öz növbəsində Türkiyə İdlibdə belə bir gərgin vəziyyətin yaranmasında Bəşşar Əsəd rejimini və onun müttəfiqlərini ittiham edir. Astana sazişinə görə, Türkiyənin nəzarət etdiyi İdlib gərginliyin azaldılması zonasında atəş dayandırılmalı, atəşkəsi pozanlara qarşı tədbirlər görülməlidir. Sazişə uyğun olaraq, Türkiyə Silahlı Qüvvələri İdlibdə 12 müşahidə nöqtəsi yaratmışdır. Lakin Bəşşar Əsəd qoşunları hücum əməliyyatı nəticəsində 4 müşahidə məntəqəsini artıq nəzarət altına almışdır. Həmçinin Suriya rejimi Türkiyə ordusunun əvvəllər tutduğu iki hərbi mövqeyi ələ keçirmişdir. Buna baxmayaraq, Ankara dəfələrlə bəyan etmişdir ki, İdlibdə nəzarət etdiyi mövqelərdən geri çəkilmək niyyətində deyil və türkiyəli hərbçilər missiyasını davam etdirəcəklər. Ona görə də Bəşşar Əsəd rejiminin və onun müttəfiqlərinin hər hansı hücumuna daha güclü cavab veriləcək.

Bununla yanaşı, Türkiyə rəhbərliyi bəyan etmişdir ki, İdlibdə vəziyyəti təbii məcrasına qaytarmaq üçün hərbi əməliyyat keçirməkdən çəkinməyəcək. Prezident Rəcəb Tayyib Ərdoğanın qeyd etdiyi kimi, Suriya hökumət qoşunları gərginliyin azaldılması zonasından çıxmasa, əməliyyat istənilən vaxt başlaya bilər. Dövlət başçısı əməliyyatın məqsədi kimi İdlibdə atəşkəsin təmin edilməsini və burada təhlükəsizlik zonasının yaradılmasını göstərmişdir. Özü də Türkiyə ilə həmsərhəd zolağa artıq 900 min suriyalı köçkün sığındığından təhlükəsizlik məsələsi xüsusi əhəmiyyət kəsb edir.

Ankaranın İdlibdə hərbi əməliyyat keçirmək niyyəti Moskvada mənfi reaksiya doğurmuşdur. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirmişdir ki, belə bir əməliyyat mümkün ssenarilərin ən pisi olar. Öz növbəsində Bəşşar Əsəd rejimi bəyan etmişdir ki, Türkiyə qoşunlarının Suriya ərazisində yerləşməsi qeyri-qanunidir və beynəlxalq hüququn kobudcasına pozulmasıdır. Suriya Xarici İşlər Nazirliyi vurğulamışdır ki, ordu xalqını silahlılardan müdafiə etmək və ölkənin bütün ərazisində terrorçu təşkilatlarla mübarizə aparmaq kimi milli və konstitusion vəzifəsini yerinə yetirməkdə davam edəcək.

Belə bir məqam da diqqəti cəlb edir ki, İdlibdə vəziyyətin gərginləşdirilməsi Türkiyənin Liviya legitim hökumətinin dəvəti ilə bu ölkəyə hərbi yardım göstərməsi ilə əlaqəlidir. Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov qeyd etmişdir ki, Türkiyənin Liviyada cərəyan edən hadisələrə müdaxiləsi Moskvanı narahat edir: “İdlib gərginliyin azaldılması zonasında qaynaqlanan risk və təhlükələrlə əlaqədar başqa bir aspekt yüzlərlə silahlının oradan Liviyaya göndərilməsindən ibarətdir. Rusiya bu problemi təkbaşına həll edə bilməz, amma İdlib üzrə bütün razılaşmaları qeyd-şərtsiz yerinə yetirilməsinə nail ola bilər. Biz türkiyəli tərəfdaşlarımızla bu barədə danışırıq”.

Göründüyü kimi, İdlib böhranı ilə bağlı Rusiya-Türkiyə ixtilafı geniş miqyas kəsb edib. Türkiyəli müşahidəçilər hesab edirlər ki, İdlibdə gərginliyin artması daha çox Ankaranın Liviyada hərəkətlərindən qaynaqlanır. Onların fikrincə, Bəşşar Əsəd rejimi və Rusiya İdlibə hücum edərkən nəzərə almışdı ki, Suriya silahlı müxalifətinin təcrübəli döyüşçüləri Liviyaya getdiyindən İdlib müdafiəsiz qalmışdır və belə bir şəraitdə İdlibi asanlıqla ələ keçirmək mümkündür. Bütün bunlara baxmayaraq fakt odur ki, Suriyada son vaxtlaradək tərəfdaş kimi hərəkət etmiş Rusiya və Türkiyə indi bir-birinə əks mövqedədir. Belə bir vəziyyət isə istər Suriya münaqişəsinin tənzimlənməsi, istərsə də ikitərəfli münasibətlərin gələcəyi baxımından yaxşı heç nə vəd etmir. Türkiyə və Rusiya prezidentlərinin srağagün keçirdiyi telefon danışığı da Suriya və Liviyada vəziyyəti normal məcraya qaytarmaq üçün elə bir zəmin yaratmır. Verilən rəsmi məlumatdan aydın olur ki, tərəflər mövqelərindən geri çəkilməmişlər. Bununla belə, Ankara və Moskva ikitərəfli təmasları davam etdirmək qərarına gəlmişlər. Gələn həftə Rusiya nümayəndə heyətinin Ankaraya gələcəyi gözlənilir. Yəqin ki, bu, İdlibdə hər şeydən əvvəl, humanitar fəlakətin baş verməməsi üçün son cəhd olacaq.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

## Ekologiya

# Koronavirus atmosferə tullantıları azaldıb

### Planet rahat nəfəs alır



**Koronavirusla mübarizə aparan Çin karbon qazı tullantılarını 25 faiz azaltmışdır. Alimlərin dediyinə görə, bunun səbəbi sənaye istehsalının ləngiməsi və enerjidən istifadənin azalmasıdır.**

İlin əvvəlindən bəri dünyada ən mühüm hadisəyə çevrilmiş koronavirus epidemiyası Çində iki mindən çox adamın ölümünə, böyük iqtisadi zərərə və ölkənin nəqliyyat təcridinə səbəb olmuşdur. Lakin planetin ekologiyası nöqteyi-nəzərindən yeni tipli virusun epidemiyası gözlənilməz və təəccüblü müsbət nəticələrə gətirib çıxarmışdır. Məlum olmuşdur ki, Çində elektrik enerjisindən istifadənin azalması və sənaye istehsalının tənəzzülü karbohidrogen yanacağının yandırılmasının və bunun nəticəsi kimi atmosferə atılan zərərli tullantıların azalmasına səbəb olmuşdur. Bu qənaət Finlandiyanın atmosferin çirklənməsi məsələləri ilə məşğul olan “Centre for Research on Energy and Clean Air” müstəqil şirkətinin mütəxəssisi Lauri Millivirtanın tədqiqatında yer almışdır.

Tədqiqat zamanı Çində koronavirusun yayılması fonunda aşağı düşmüş bir neçə iqtisadi indikator təhlil edilmişdir. Məsələn, ölkənin elektrik stansiyalarında kömürün yandırılması dördillik minimuma, Şandun əyalətində zavodlarda neftayırmanın həcmi isə 2015-ci ildən bəri minimuma düşmüşdür. Poladəritmənin həcmi beşillik minimuma çatmış, NO2 azot dioksidi tullantıları ötən ilin analoji dövrü ilə müqayisədə 36 faiz azalmışdır.

Eyni zamanda daxili aviasiya daşınmalarının həcmi 70 faiz aşağı düşmüşdür. Ümumilikdə epidemiyanın fəsadları ilə mübarizəyə yönəlmiş tədbirlər Çin sənayesinin əsas sahələrində 15-40 faiz azalmaya gətirib çıxarmışdır. Ölkə miqyasında bu, son iki həftə ərzində atmosferə karbohidrogen tullantılarının artırılmasının 25 faiz azalması deməkdir. Adətən bu müddətdə Çin sənayesi ənənəvi Yeni il tənəzzülündən sonra bərpa olur.

Fin mütəxəssisinin hesabatında qeyd olunur ki, 2019-cu ilin analoji dövründə Çin atmosferə 400 milyon ton karbon qazı atmışdır. Bu o deməkdir ki, virus emissiyanı 100 milyon ton azaltmışdır. Eyni zamanda ekspertlər əmindirlər ki, vəziyyətin sonrakı inkişafı Çin hökumətinin qəbul edəcəyi tədbirlərdən asılı olacaq. Əgər iqtisadiyyat tezliklə özünə gələ bilsə, ilin yekunlarına görə iqtisadi zərər və tullantıların azaldılması çox da gözəçarpan olmayacaq.

“Greenpeace” təşkilatının Çindəki bölməsinin əməkdaşı Li Şonun fikrincə, virus “sakitləşdikdən” sonra güman ki, “növbəti çirklənmə” müşahidə olunacaq. Belə ki, fabriklər şatdaun dövründə itirdiyini kompensasiya etmək üçün istehsalını maksimuma çatdıracaq.

## Münaqişə

# Şahzadə Harri və həyat yoldaşı imtiyazlarından məhrum olunacaqlar

Şahzadə Harri və onun həyat yoldaşı Meqan Markl martın 31-də kral titulundan məhrum olunacaq və alihəzrət adlandırılmayacaqlar.



Bundan əlavə, onlar həmin gündən etibarən kral ailəsinin təmsilçilik funksiyalarını icra etməyəcək və Böyük Britaniya xəzinəsindən vəsait almayacaqlar. Bu barədə “Daily Mail” qəzeti xəbər verir.

Məlumata görə, hələ bir ay hersoq və Sasseks hersoginyası monarx ailəsinin üzvləri kimi bəzi tədbirlərdə iştirak etməlidirlər. Həmin tədbirlərdən biri də 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram mərasimidir.

Xatırladaq ki, ötən ay şahzadə Harri və Meqan Markl Kanadaya köçmək və kral titulundan imtina etmək barədə qərar qəbul etmişdilər. Belə bir misli görünməmiş bəyanatdan sonra Böyük Britaniya Kraliçası II Yelizaveta ailə iclası çağırmışdı.

O vaxt yayılmış məlumata əsasən, ər-arvad öz ailələrini kral sarayında üzləşdikləri irqçilik və seksizmlə bağlı ifşaedici müsahibə verəcəkləri ilə hədələmişdi. “The Sun” qəzetinin xəbərinə görə, Harri və Meqan Markl bu barədə artıq ABC, NBC və CBS telekanalları, habelə məşhur televiziya aparıcısı Opra Uinfri ilə razılaşma əldə etmişdilər.

Ötən ayın 13-də Britaniya Kraliçası hersoqun və hersoginyanın “yeni həyatına” xeyir-dua vermiş, onlara daha müstəqil gələcək arzulamışdır.

Lakin bu ərəfədə II Yelizaveta onlara “Sussex Royal” brendindən istifadə etməyə qadağa qoymuşdur.

CNN telekanalının xəbərinə görə, keçən ayın əvvəllərində cütlük bu əmtəə nişanının qeydiyyata alınması üçün sənədlər təqdim etmişdir. Onlar bu brend altında təkcə xeyriyyəçiliklə məşğul olmaq deyil, həm də çap məhsulları, təşviqat materialları və s. hazırlamaq, habelə geyim və ayaqqabı istehsal etməyi planlaşdırırdılar.

Hazırda cütlüyün özlərinə nə qədər gəlir təmin edə biləcəyi məlum deyil. Lakin “The Daily Telegraph” qəzeti xəbət verir ki, yaxın bir il ərzində Britaniya taxt-tacının varisi, şahzadə Çarlz oğluna maliyyə yardımı göstərməyə hazırdır. Meqan Markl və şahzadə Harri saraydakı səlahiyyətlərindən imtina etmək qərarına gəlmişlər və indi etiraf edirlər ki, xoşbəxtdirlər.

## Ksenofobiya

# Qərb ölkələrində ksenofobiya geniş miqyas alıb

### Almaniyada sağçı terror təhlükəsi güclənir

Avropa ölkələrində etnik və dini zəmində nifrət təzahürlərinin sayı artır. Problem artıq təhlükəli miqyas almışdır. Qərbi Avropada əcnəbilər praktiki olaraq hər gün təzyiq və təhqirlə qarşılaşır, hücuma məruz qalırlar. Radikalların belə hücumlarının hədəfi daha çox məscid və sinaqoqlar olur.



Ötən ilin noyabr ayı üçün hazırlanmış Qlobal Terrorizm İndeksində Qərbdə ksenofobiya təzahürlərinin artması diqqəti cəlb edir. Sənəddə deyilir ki, son beş il ərzində Qərbi Avropa ölkələrində etnik və dini nifrət zəminində törədilmiş cinayətlərin sayı 320 faiz artmışdır.

Hələ keçən il martın 15-də Yeni Zelandiyanın Kraystçerç şəhərində Nur və Linvud məscidlərinə on dəqiqəlik fasilə ilə silahlı hücum baş verərkən təhlükənin nə qədər geniş miqyas aldığı ortaya çıxmışdır. Həmin gün radikal sağçının atəşi ilə 50 nəfər öldürülmüşdür. Yeni Zelandiya hakimiyyət orqanları cinayətin dəqiq tərifini vermişdi - terror aktı.

Fevralın 19-da Almaniyanın Hanau şəhərində törədilmiş terror aktı Qərb ölkələrində ifrat sağçıların cinayətləri sırasında növbəti həlqə olmuşdur. Həmin gün 43 yaşlı ekstremist Tobias Ratçen şəhərdə iki kafeyə hücum edib doqquz nəfəri, o cümlədən dörd türkü qətlə yetirmişdir. Ümumiyyətlə, ölənlərin hamısı etnik mənşəli idi. Terrorçu cinayəti törətdikdən sonra evə qayıdıb yaşlı anasını güllələmiş, ardınca intihar etmişdir.

Ratçen cinayəti törətməzdən bir neçə gün əvvəl sosial şəbəkədə sağ ekstremizm ideologiyasının açıq-aşkar əlamətlərini ehtiva edən videomüraciət yerləşdirmişdir. O, bütöv millətlərin məhv edilməsinin vacibliyini qeyd edirdi.

Qəribə burasıdır ki, cinayətin təhqiqi ilə məşğul olan Almaniya Federal Prokurorluğu hadisəni terror aktı kimi tövsif etməkdə xeyli çətinlik çəkmiş, nəhayət, real faktı təsdiqləmişdir: Hanauda baş vermiş cinayət irqçilik motivli terror aktıdır.

Məsələ tamamilə aydındır: Almaniyada sağçı terror təhlükəsi güclənmişdir. Rəsmi məlumata görə, hazırda ölkədə təxminən 60 nəfər sağçı ekstremizm zəminində terror aktı daxil olmaqla ağır cinayətlər həyata keçirməyə hazırdır. Bu rəqəm 2012-ci illə müqayisədə beş dəfə artmışdır.

Təhlükə potensialının nə qədər böyük olması Konstitusiyanın Müdafiəsi üzrə Federal İdarənin son hesabatında da əksini tapmışdır. Sənəddə deyilir ki, Almaniyada 12700 sağçı ekstremist zorakılığa meyillidir. Onların arasında ünsiyyət əsasən internet vasitəsilə həyata keçirilir. Virtual məkan bir növ reaksiyanı sürətləndirən katalizatora çevrilib. Bəzi məlumatlara görə, bu yaxınlarda zərərsizləşdirilmiş terrorçu “C qrupu”nun üzvləri radikallaşmışlar. Özü də bu, əsasən internetin köməyi ilə baş vermişdir: ötən ilin oktyabrında Qall şəhərində sinaqoqda terror aktı törətməyə cəhd göstərmiş cinayətkar həmin qruplaşmanın üzvü idi.

Hanauda baş vermiş son terror hücumu göstərir ki, Almaniya hakimiyyət orqanları Kraystçerç faciəsindən ibrət almamış, ksenofobiya təzahürləri ilə mübarizədə zəruri tədbirlər görməmişdir. Bundan başqa, çox güman Kraystçerç hadisəsi Avropa ölkələrindəki ifrat sağçılar üçün “nümunə” olmuşdur. Həmin terror aktı çox keçməmiş Qərbi Avropada qanlı əks-səda doğurmuşdur.

Onu da qeyd etmək lazımdır ki, ksenofobiyanın güclənməsinə siyasətçilərin özləri də az “töhfə” vermirlər. Xüsusilə seçkiqabağı dövrlərdə siyasətçilər elektoratını genişləndirmək cəhdi ilə populizm və radikal ifadələrdən gen-bol istifadə edirlər ki, bu da ifrat sağçı ideologiyanın yayılması üçün münbit zəmin yaradır.

# Çində COVİD-19 qurbanlarının sayı 2347 nəfərə çatdı

Çində yeni tipli koronavirusdan ölənlərin sayı 2347 nəfərə çatmışdır. Xəstəliyə yoluxanların sayı 76288 nəfərdir.

Dövlət Səhiyyə Komitəsindən verilən məlumata görə, xəstələrlə əlaqədə olmuş 113564 nəfər nəzarət altındadır. 11477 nəfərin vəziyyəti ağırdır. 20 min nəfərdən çox adam xəstəxanadan evə buraxılmışdır.

Son bir gün ərzində Çində ölümcül virus 109 nəfərin həyatına son qoymuş, 397 yeni yoluxma halı qeydə alınmışdır.

Honq Konqda 68 nəfər, Makaoda 10 nəfər xəstəliyə yoluxmuşdur.

# Fransada AES işini dayandırır

Fransanın qədim atom elektrik stansiyası (AES) işini dayandırır. Dünən “Fessenhaym” AES-in iki enerji blokundan birinin avadanlığı söndürülmüşdür. İkincinin dayandırılması iyunun 30-na planlaşdırılmışdır.

Nüvə reaktorunun sökülməsi 2025-ci ildə başlayacaq və proses 2040-cı ilədək davam edəcək. Almaniya və Fransa regionda texnopark açmaq barədə razılaşma əldə etmişlər. Bunun üçün 1 milyon avro nəzərdə tutulmuşdur.

Atom energetikasının almaniyalı, fransalı və isveçrəli əleyhdarları uzun müddət Almaniya sərhədindən bir kilometrlikdə yerləşən elektrik stansiyasını bağlamağı tələb edirdilər. “Fessenhaym” AES-in reaktorları 1977-ci ildə istismara verilmişdir. Stansiyada dəfələrlə qəza baş vermişdir.

# ABŞ Avropada nüvə raketləri yerləşdirməyəcək

ABŞ ortamənzilli və yaxınmənzilli raketlərin ləğvi barədə müqavilənin qüvvədən düşməsi ilə əlaqədar Rusiyaya cavab verməyi planlaşdırır.

Lakin söhbət Avropada nüvə silahlarının yerləşdirilməsindən getmir. Vaşinqton Köhnə dünyada adi raketlərlə kifayətlənəcək. Bu barədə Pentaqonun nümayəndəsi məlumat vermişdir. O demişdir: “Biz məlum müqaviləni əhatə edən radiuslu adi qanadlı və ballistik raketlərlə cavab verəcəyik. Bizim bu raketləri nüvə başlığı daşımağa qadir etmək planlarımız yoxdur”.

Azercell

abunəçilərinin nəzərinə

”Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 25.02.2020-ci il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6940
Sifariş 586
Qiyməti 40 qəpik